HƏKİMƏ BİLLURİ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab "**Həkimə Billuri.** Bir də bahar gəlsə..." (Bakı, Yazıçı, 1984) və "**Həkimə Billuri.** Seçilmiş əsərləri" (Bakı, Azərnəşr, 1986) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni və
ön sözün müəllifi: **Aybəniz Kəngərli**

**894.3611 - dc 21**
**AZE**
**Həkimə Billuri. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2005, 224 səh.

Həkimə Billuri Azərbaycanın ikiyə bölünməsi faciəsini şəxsi taleyində yaşayan, yarım əsr doğulduğu yerləri, doğma ocağı görmək həsrəti ilə yanıb yaxılan, Təbrizi daim gecələr yuxularında görən, amma yuxuları heç çin çıxmayan bir Azərbaycan şairidir. O, Güney dağlarından bir udum hava, meşələrindən bir tək yarpaq diləmiş, vətənin suyundan bir ovuc içmək, Arazın o tayına qədəm basmaq həsrəti ilə alışıb–yanmışdır.

Kitabda istedadlı şairənin müxtəlif illərdə yazdığı əsərlərindən seçmələr toplanmışdır. Bu poetik nümunələrdə ikiyə bölünmüş vətənin bütövlüyü arzusu, onun gələcəyinə dərin inam, Güney Azərbaycan milli-azadlıq hərəkatı, təbiətə və insana sevgi motivləri aparıcı yer tutur.

**ISBN 9952-418-38-5**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# AYRILIQ NƏFƏSLİ, HİCRAN SORAQLI...

*Mən də bir şairəm sinəsi dağlı,*
*Ayrılıq nəfəsli hicran soraqlı.*
*Vətənin qapısı üzümə bağlı,*
*Hər axşam bu dərddən alışır sinəm,*
*Vətən həsrətliyəm, el həsrətliyəm.*

***Həkimə Billuri***

Ədəbiyyat əlbəttə ki, yarandığı dövrün ictimai-siyasi hadisələrinin ciddi təsiri altında formalaşır. Bu baxımdan Azərbaycanın ikiyə bölünməsi, milli azadlıq uğrunda mübarizələr də yola saldığımız əsrdə milli ədəbiyyatımızın aparıcı mövzularından, ürək göynədən niskillərindən olmuşdur. Ötən əsrin ortalarında – 1946-cı ildə devrilən "21 Azər" hərəkatının faciəvi sonluğu Güneydəki bir sıra şairlərin, ziyalıların, ictimai xadimlərin şimala mühacirət etməsinə səbəb oldu və həmin hərəkatın "şinelindən çıxan" xüsusi bir ziyalı nəsli meydana gəldi. Yəni bu hərəkatın özünün şairləri meydana çıxdı. Onlar bütün ömürləri boyu şahidi, hətta iştirakçısı olduqları hadisələri ürəklərində, duyğularında, əsərlərində yaşatdılar. Həmin şəxsiyyətlərdən biri yarım əsrə yaxın müddətdə Azərbaycan ədəbiyyatında sözü gedən problemlərin tərcümanı olmuş istedadlı şair Həkimə Billuridir.

Bu hicran, bu niskil olmayaydı kaş,
Həsrət qalmayaydı qardaşa qardaş...

Həkimə Billurinin yaradıcılığı mövzu dairəsinə, ideyalar aləminə görə olduqca rəngarəng olsa da, burada bir neçə xətti asanlıqla, özü də şairin lap ilk şeirlərindən son günlərdə yazdığı şeirlərinə qədər izləmək mümkündür.

Həkimə Billuri ilk növbədə Azərbaycanın ikiyə bölünməsi faciəsini şəxsi taleyində yaşayan, yarım əsr doğulduğu yerləri, doğma ocağı görmək həsrəti ilə yanıb yaxılan, Təbrizi daim gecələr yuxularında görən, amma yuxuları heç çin çıxmayan, son nəfəsində belə bu həsrətlə barışmayan bir Azərbaycan şairidir. Həkimə Billuri Güney dağlarından bir udum hava, meşələrindən bir dənə yarpaq diləyən, vətənin suyundan bir cam içmək, Arazın o tayına qədəm basmaq həsrəti ilə nəfəs alan, vətən həsrəti deyilən xəstəliyə mübtəla olan faciəvi taleli Azərbaycan şairidir. Onun taleyi elə Azərbaycanın taleyinə bənzəyir.

Sinəmə ağır bir yükdü ayrılıq,
Belimi yay kimi bükdü ayrılıq...

Həyat gözlərimdə sönmədən qabaq,
Sizdən bir diləyim olacaq ancaq.
Tufana, küləyə döndərin məni,
Göndərin vətənə göndərin məni!



Həkimə Billurinin şeirlərinin çox böyük bir hissəsi bu ağrının, bu böyük milli faciənin doğurduğu yaşantılardır. Həqiqi şairlər yaşadıqlarını yazanlardır və Həkimə xanımın şəxsi ağrılarından doğulan şeirləri oxucunun da gözünə yaş, qəlbinə dərd qoyan şeirlərdir. Təsadüfi deyil ki, onun şeirlərində Təbriz, Araz, ayrılıq, Vətən sözləri ən çox təkrarlanan və duyğularına, yaşantılarına həmişəlik hakim olan anlayışlardır. Təbriz haqqında çox yazılıb – Təbriz həsrəti bizim Qarabağ dərdindən də qədim tarixi olan, yanğısı sinə göynədən dərdimizdir. Həkimə Billurinin "Təbriz" şeri o şeirlərin ən yaddaqalan, ən uğurlu nümunələrindəndir:

Həsrətin yandırar, pörşüdər məni,
Zərif çiçək kimi üşüdər məni,
Səsləsəm Savalan eşidər məni,
Qızınnam oduna, közünə, Təbriz!

Şairin şeirlərində ikinci aparıcı motiv 1945-46-cı illər Güney Azərbaycan milli azadlıq hərəkatıdır. Bu hərəkatın fədailərindən biri kimi həmin ağrını misralara köçürən şair əslində daha bir milli faciəmizin bədii tarixini yaratmış olur. Bu qədər faciəvi hadisələrin iştirakçısı olmasına baxmayaraq, şairin şeirlərindən sabaha ölmək bilməyən bir inam hissi də həmişə aparıcı xətt kimi keçir. "İnanıram o parlaq günə!" deyən şair Azərbaycanın bütövləşəcəyinə də, Güneyin öz azadlığına qovuşacağına da sarsılmaz bir inam bəsləyir.

Azərbaycan əslində Həkimə Billurinin şerlərində bütövdü, tamdı və bölünməzdi. Təkcə bu kitabda şairin Azərbaycan adlı üç şeri təqdim olunur. Ümumilikdə isə birbaşa, ya dolayı yolla onun Azərbaycan mövzusundan uzaq şeri yoxdur. Vahid və azad Azərbaycan ideyası ömrünün sonuna qədər onun həyatının məzmununu, yaşamının qayəsini təşkil edən ən birinci və şəriksiz ideal idi... Qarabağ ağrımızın bədii ifadəsi olan silsilə şeirləri, Bakıya, Xəzərə ünvanlanmış bədii nümunələr bu amalın inikasından doğurdu.

Nəhayət, Həkimə Billuri təbii, səmimi hisslərlə yaşayan qadındır, anadır, insandır. Onun şeirlərinin ən böyük məziyyəti onların ruhuna hopmuş səmimiyyətdir. Şerə tale kimi, yazı kimi tapınan bir qələm ustasıdır. "Mənim şeirlərim gündəliyimdir" deyən şair eyni zamanda son dərəcə lirik, qəlbi riqqətə gətirən sevgi şeirləri yazır:

Məhəbbətsiz sönər insan,
Qara daşa dönər insan,
Dönər insan.

– deyir. Həkimə Billuri həm də dünyanın ağrıları ilə yaşayan şairdir.

"Gözü yolda qalan vətənimiz var!", "Sərhəddə bir çinar gözləyir məni!", "İnanıram o parlaq günə!" – Bu sözlər onun bir şair kimi ölməzliyinin təsdiqidir.

***Aybəniz Kəngərli***

## MÜNACAT

Varlığımla, ürəyimlə,
Hissim, duyğum, diləyimlə,
Sənə bağlıyam, ilahi!
Sinə dağlıyam, ilahi!
Kainatı yaratdın sən.
Bu həyatı yaratdın sən!
Uluların ulususan,
Doğruların doğrususan.
Dünyamızı quran da sən,
Zülmün boynun vuran da sən.
İradənlə, ey yaradan,
Hey dolanıb, dönür cahan
Ulduzlarım, ayım səndən,
Dənizlərim, çayım səndən.
Nəyim varsa səndən olmuş,
Nankorluqsa məndən olmuş.
Az etmişəm razü niyaz,
Düşünürəm belə olmaz.
Çox olmuşdur inandığım,
Həmişə ulu sandığım.
Sən olmusan, pərvərdigar,
Yer, göy səndən tutub qərar.
Haqsan hər bir nüzulunda,
Günahkaram hüzurunda,
Müqəssirəm qarşında mən,
Sən həm kərim, həm rəhimsən.
Qane oldum çox- azına,
Qol qoymadım namazına.
Könül verdim ədalətə,
Qol qoymadım ibadətə.



Könül verdim bu həyata,
Qol qoymadım münacata.
Olmamışdır mənə imkan,
Sən agahsan, ey yaradan!
Qənim olmuş mənə dövran,
Qənim olmuş zaman-zaman.
Gizli, aşkar inanmışam,
Ədalətlə davranmışam.
Sənin simurq quşunam mən,
Hey alışıb, hey yanmışam.
Xəyalımın qanadında,
Tur dağını dolanmışam.
Fərmanına inanmışam,
Quranına inanmışam.
İnanmışam gizli-aşkar,
Sənə tərəf gedən yollar,
Daim sağım, solum olmuş,
Mənim həyat yolum olmuş.
Gecələrin sükutunda,
Dincələndə dünya, cahan.
Xəlvət edib, ürək sənə,
Bircə sənə olur mehman.
Gizlinimiz sənə əyan,
Yol-rizimiz sənə əyan,
Bu bəndənə bir də inan.
İnanmışam Rəsuluna,
Dinin o beş üsuluna.
Ürəyimdə sənsən Vəli,
İnandığım olub Əli.
Hüseyninə beyət etdim,
Münacata cürət etdim.
Mən Allaha gəlib çatdım,
Haqq yolunda addım atdım,
Haqq adına haqq yaratdım...
Səndəndir qolum, qanadım,
Sənə bağlıdır həyatım,
Bu gündən doğrulur adım,
Qəbul olsun münacatım.

Üz tuturam sənə, Tanrım,
Yalvarıram yenə, Tanrım,
Özün qol qoy xeyrə-şərə,
Sən ağıl ver bu bəşərə,
Az eyləsin riyasını,
Hakimiyyət sevdasını,
Az döysün pul davasını.
Qoyma namərd zəhərləsin,
Dünyamızın havasını.
Öz başına uçurmasın,
Sən qurduğun yuvasını –
Gözəl-göyçək dünyasını.
Üz döndərsin hərislikdən,
Qoy çəkinsin xəbislikdən.
Bu dünyanın sağ günüyçün,
İnsanların ağ günüyçün
Könül versin büllurluğa,
Təmizliyə, ululuğa.
Könül versin ədalətə,
Qulluq etsin saf niyyətə,
Könül versin ibadətə.
Haqqın dönməz yollarında,
Körpü salsın həqiqətə.
Pərvərdigar!
Səndən bir istəyim də var:
Bərabər böl ömürləri,
Səadəti,
İztirabı, məhəbbəti.
Dönməz əzmin, iradənlə,
Bir behiştə dönsün cahan.
Əzablara tuş gəlməsin,
Bu dünyada birco insan.
Bir ürəkdə təmiz arzu,
İşıq istək boğulmasın,
Bir namərd də doğulmasın.

Ulu Tanrım,
Qəbul eylə bu şairdən,



Bir duanı, iltiması;
Gözəl olsun, işıq olsun,
İnsanların bu dünyası,
O dünyası!
Gözəl olsun həyatımız,
Bir insan da öz ömrünə
Qoy olmasın bir gün ası!

Barilaha,
Mənim məzlum, bu haqqsevər
Xalqımın da pənahı ol,
Nicatı ol!
Ağır gündə, bərk ayaqda,
Bir yol tapsın,
Nicata yol!

Dayağım ol, ey Yaradan!
Haqq yolunda zaman-zaman,
Köməyinlə atım addım.
Haqq adına haqq yaradım.
Üzüm olsun sənə sarı,
Qəbul olsun münacatım!

## ULU PEYĞƏMBƏRİM, RƏSULALLAHIM!

Hamı "Mən" deyəndə, Sən ümmət dedin,
Qardaşlıq, dəyanət, sədaqət dedin.
Dünyaya, bəşərə səadət dedin,
Ulu peyğəmbərim, Rəsulallahım!

Kükrəyib daşanda bir zülüm seli,
Yarandın ilahi bir haqdan, bəli,
Haqqı Sən qorudun nahaqdan, bəli,
Ulu peyğəmbərim, Rəsulallahım!

Bəşərə bağladın səadətini,
*Dünyaya bağladın məhəbbətini,*
Ürəkdə gizlədin yüz möhnətini,
Ulu peyğəmbərim, Rəsulallahım!

Kim deyir, qılıncla müsəlman oldum,
Bir haqq məşəlinə mən yanan oldum,
Sənin idrakına inanan oldum,
Ulu peyğəmbərim, Rəsulallahım!

Tapındım möhtəşəm "Quran"ına mən,
Qəlbimi titrədən azanına mən.
Əzablı ömrünün hər anına mən,
Ulu peyğəmbərim, Rəsulallahım!

Büllur danəsiydi gözlərində yaş,
Əzəl sözlərinlə başlardın savaş,
İnsana insandır, dedin, arxadaş,
Ulu peyğəmbərim, Rəsulallahım!

"Quran"ın aləmdə bir aləm açmış,
Şərqə də, Qərbə də nurunu saçmış,
Kafirin gözündən yuxusu qaçmış,
Ulu peyğəmbərim, Rəsulallahım!

"Quran"ın dolaşır dünya boyunca,
Orada insandır, göylərdən uca.
Nüzul et, nurundan zülmətlər qaça,
Ulu peyğəmbərim, Rəsulallahım!

Bir ömür qırılmaz qanadım oldun,
Ürəkdə dözümüm, səbatım oldun.
Çətin anlarımda nicatım oldun,
Ulu peyğəmbərim, Rəsulallahım!

Səninlə tanıdım Allahımı mən,
*O vahid, o dönməz pənahımı mən,*
Ona bağlamışam sabahımı mən,
Ulu peyğəmbərim, Rəsulallahım!



Ehtiyac duyuruq Sənə, ehtiyac,
Bir daha göylərə edəndə merac,
Nəzər sal dünyaya, özün qıl əlac,
Ulu peyğəmbərim, Rəsulallahım!

Bu yalan dünyada, yalan ömürdə,
Daim dayağım ol qalan ömürdə,
Qoy getsin yolunda, qalan ömür də,
Ulu peyğəmbərim, Rəsulallahım!

Daim dayağım ol, ulu sərvərim,
Yolunda çarpışım, hünər göstərim.
Yapış əllərimdən, ey peyğəmbərim!
Ulu peyğəmbərim, Rəsulallahım!

## RƏSULALLAH!

Qoy, ümmət olmasın sənsiz,
Dayağımsan Rəsulallah!
Zülmət gecəm uzandıqca,
Çırağımsan, Rəsulallah!

Yenə düşmən edir tüğyan,
Atəşlərə yanır cahan.
Dənizdir, hər tərəf tufan,
Mayağımsan, Rəsulallah!

Səni rədd eyləyir kafir,
Qılınc əldə kəsir, biçir.
Qəmlər karvan olub, keçir,
Sorağımsan, Rəsulallah!

Dağıtmışlar cəlalımı,
Artırmışlar məlalımı,
Haram almış halalımı,
Yarağımsan, Rəsulallah!

Müsəlman kafirə arxa,
Danır gözüm baxa-baxa,
Ona necə deyim əxa?[1]
Sınağımsan, Rəsulallah!

Solum, sağım Sən oldun, Sən!
Qibləgahım Sən oldun, Sən!
Xoş sabahım Sən oldun, Sən!
Tur dağımsan, Rəsulallah!

Yaşamayım qoy, Vətənsiz,
Bir an da olmayım sənsiz,
Yox kimsənəm səndən əziz,
Qonağımsan, Rəsulallah!

Tuşlamışdır məni hicran,
Yaxınlardan, uzaqlardan,
Səndən diləyirəm aman,
Dayağımsan, Rəsulallah!

Sənə daim səna qıldım,
Dərdə bunla dəva qıldım.
Mən əhdimə vəfa qıldım,
Ortağımsan, Rəsulallah!

Tanrı əzəl yaradanım,
Sən cahanda bir cahanım.
Eşqim, əqidəm, imanım,
Sınağımsan, Rəsulallah!

Yerin, göyün haqq səsiydin,
Bir ilahi nəfəsiydin.
Çarəsizlər çarəsiydin,
Növrağımsan, Rəsulallah!

[1] Qardaş



Günəş kimi oldun əyan,
Ehkamların elmi –bəyan,
Nə qədər var dünya, cahan,
Afaqımsan, Rəsulallah!

Daldım sözün mənasına,
Düşdüm eşqim sevdasına,
Qardaşlığın dünyasına,
Sorağımsan, Rəsulallah!

Baş əymişəm əhkamına,
Hər əmrinə, fərmanına,
O müqəddəs "Quran"ına!
Ortağımsan, Rəsulallah!

"Böyük səhra" diyarında,
Dəclə, Fərat kənarında,
Yanar çöllər baharında,
Bulağımsan, Rəsulallah!

Yüz illərdir təlaşdayıq,
Kafirlərlə savaşdayıq,
Bir baharda, yüz qışdayıq,
Yarağımsan, Rəsulallah!

Darda qalmış mənim elim,
Ayaq açıb, yerir zülüm,
Əkdiyimi biçir ölüm,
Fərağımsan, Rəsulallah!

Qanlar axır Qarabağda,
Babam yatır o torpaqda,
Nicatım ol bərk ayaqda,
Sınağımsan, Rəsulallah!

Susdur bu hərb bayquşunu,
Göyün, yerin qarğışını.
Yaza döndər qar-qışını,
Növrağımsan, Rəsulallah!

Hər yerdən qurğuşun yağır,
Bizi sən birliyə çağır,
Çarə sənsən əvvəl-axır,
Dayağımsan, Rəsulallah!

Göz açanda dünyaya mən,
İşıq almış gözüm səndən,
Kəsər tapmış sözüm səndən,
Yarağımsan, Rəsulallah!

Sözüm səndən çilə tapır,
Ruhum, qəlbim səfa tapır,
Dərdim sənlə şəfa tapır,
Ortağımsan, Rəsulallah!

Qürur tacım, peyğəmbərim,
Mənim işıqlı gövhərim,
Ayım, günümsən, əxtərim,
Şəfəqimsən, Rəsulallah!

Vüqarını öyən mənəm,
Hey qapını döyən mənəm,
Səndən özgə yox kimsənəm,
Qonağımsan, Rəsulallah!

Fəth eylədin göyü, yeri,
Kamillərin sən sərvəri!
Peyğəmbərlər peyğəmbəri!
Sorağımsan, Rəsulallah!
*Dayağımsan, Rəsulallah!*

## AZƏRBAYCAN

Azərbaycan!
Sənə bağlıdır ürəyim.
Diləyindir diləyim.
Yaxınkən oduna yandım.
Uzaqlarda səni andım.



Fəqət sənə könül bağladım,
Sən güləndə güldüm,
Sən ağlayanda ağladım.
Səninlə addımladım hər vaxt.
Sevincimi, kədərimi səninlə bölüşdüm.
Sən silah götürəndə götürdüm silah,
Vuruş deyəndə vuruşdum.
Əkdimsə də dərmədim barımı,
Xəzanına, qışına dözdümsə də
Görmədim baharımı...
Dost da, düşmən də bilir bunu
Şerim səndən aldı gücünü...
Sən əcdadımın məskəni,
Anamın anası,
Babamın yadigarısan.
Qoy eşidib bilsin düşmən
Sənin arzularından,
Ayrı olmamış diləyim.
Sənə vurduğu yaralardan
Yaralanmış ürəyim.
Sənsən doğma Vətənim,
Dostun dostumdur,
Düşmənin düşmənim.
Sözümdə bərqərarəm.
Əhdimə yenə vəfadaram.
Düşməninlə ölənəcən varam...
Sərvətli olsan da, olmasan da,
Xəzan küləklərindən solsan da, solmasan da,
Çaylarının məcrasını dəyişsə də yadlar,
Yaşıl meşələrini qırıb töksə də oğyar.
Çapıb talasalar da səni başdan-başa,
Yerində qara bir daş qalsa belə,
Pay ummaram özgəsindən.
Sən mənimkisən...
Qəlbimin qanı da sənsən,
Şerimin canı da.
Gəzsəm Şərqi və Qərbi,

Gəzsəm başdan-başa dünyanı da
Sənsiz susar şair,
Ölər şeir...
Səninlə döyünür qəlbim.
Səndən çalır mizrabım,
Səndən yazır qələmim...
Səni azad, xoşbəxt görmək
Yenə həmişəki tək
İlk arzum, son arzum olaraq qalır.
İnsan xalqı ilə ucalır,
Şair vətəni ilə.
Məni bir daha dinlə –
Desələr adın düşmüşdür dilimdən
İnanma böhtanlara sən...
Vətən yaşadıqca,
Vətəni ağ günlərə çıxarmaq
Arzusu da yaşayır dünyada...
Mən harda olsam da
Görüşünə tələsirəm həmişə.
Görüş mümkün olmasa da bu baharda
Gələn baharı gözlə!
Dönəcəyəm vətənə min şirin sözlə.
Qəlbimdə elin diləkləri,
Qucağımda təzə dağ çiçəkləri.

## AZƏRBAYCAN

Azərbaycan, Azərbaycan, şanlı yurdum, məskənim
Ey umudum, səadətim, təravətli, gülşənim!
De, oxşadım nəyə səni, ey sevimli Vətənim?
Qoy yolunda qurban getsin həyatımla bədənim.
Ey dilbərim, ey cananım, ey işıqlı məkanım!
Ey səfalı cənnət yurdum, sən, ey arxam, gümanım!
Ey pənahım, idealım, sən, ey sönməz şüarım!
Səndən çalır, səndən deyir mənim şerim, rübabım.
Sən işıq ver, ürəyimə qaranlıqlar ərisin,
Xoşbəxtliyin işıqları gözlərimi bürüsün.



Sən qurtardın əsarətdən məni, gözəl Azərim –
Təməddünə, tərəqqiyə sən olubsan rəhbərim.
Ey vətənim, nə gözəldir sənin qala dağların!
Səfalıdır, ana Vətən, dərələrin, bağların.
Tikilibdir, əziz ölkəm, ay qiyafən gözümə
Səadətin al şəfəqi səndən düşüb üzümə.
Camalını görən zaman cuşa gəlir ürəyim.
Sənlə, Vətən, hasil olmuş muradımla, diləyim.
Ey Vətənim, göstəribsən bizə mehri-şəfəqqət
Hümmətinlə yaranıbdır ürəklərdə məhəbbət.
Qeyrətlidir oğlanların, qəhrəmandır qızların,
Bil qarşında düşmən bükər acizanə dizlərin.
Arzum budur yetişəsən muradına hər zaman,
Yaşayasan görüm səni tarix boyu kamiran.
Sənsən bizə əzəl gündən Səttar xandan yadigar,
Çalışaram mən uğrunda nə qədər ki, canım var.

*Zəncan, 1946*

## AZƏRBAYCANIM

Haraya getsəm də gözüm səndədir,
Şerimin axarı, sözüm səndədir,
Gedəsi olarsam, izim səndədir.
Əzəli, əbədi yurdum, məkanım.
Behiştim, cənnətim Azərbaycanım!

Doğmadan doğmasan, ey ana yurdum,
Yolunda başımla, canımla durdum.
Sinəndə əbədi bir yuva qurdum,
Dolanım başına, bir də dolanım.
Mənim ömrüm. günüm Azərbaycanım!

Nə qədər dünya var, bu kainat var,
Nə qədər ömür var, gün var, həyat var,
Nə qədər uçmağa məndə qanad var,
Bil, sənsən ilk yuvam, axır məkanım,
Eşqindən məşəl tək alışım, yanım.

Səninlə bir canam, bir bədənəm mən,
Dənizsən, ümmansan, bir qətrənəm mən,
Günəşsən, ulduzsan, bir zərrənəm mən,
Məndən üz döndərmə, ey mehribanım,
Dolanım başına, hər gün dolanım.

Bütün məhəbbətlər uçsa qəlbimdən,
Yenə ömr edərəm xəyalınla mən.
Dünya düşmən olsa dostum ki sənsən,
Doğmadan doğmasan, arxam, gümanım,
Eşqindən səhər də, axşam da yanım.

Səndən yüz yazmışam, min yazsam da az,
Bir qolun Kürdürsə, bir qolun Araz.
Səninlə ömrümüz dönüb olub yaz,
Sənə, bircə sənə qaynayır qanım.
Ey ömrüm, hoyatım Azərbaycanım!

Ümidim, arxamsan el bilir bunu,
Yolunda qoy gəlsin ömrümün sonu,
Sazım da, sözüm də ömrüm uzunu,
Səndən söz açmışdır, ey mehribanım,
Dolanım başına, hər gün dolanım.

Bir quşam ilk yurdum, yuvam da sənsən,
Mehriban elim də, obam da sənsən,
Nənəm də, anam da, babam da sənsən,
Köksünə sığınım ata məkanım,
Ümidim, sevincim, Azərbaycanım!

Eşqindən kükrəyən dağ seliyəm mən,
Dünənim, bu günüm, sabahım da sən.
Yaşa əsrlərcə, yaşa ey Vətən!
Ey mənim cahanda dünyam, cahanım!
Ey ömrüm, həyatım, Azərbaycanım!



## ARAZ

Sən axdıqca axır yaşım,
Sevdalara düşdü başım.
Sən oldun könül sirdaşım,
Dinlə məni bir an, Araz!
İnsaf elə, dayan bir az!

Suyun min bir rəngə çaldı,
Sahilində gözüm qaldı,
Söylə, Araz, bu nə haldı
Su yanında aman, Araz!
Yandı qəlbim, dayan bir az!

Köhnə dostda vəfa olar,
Bizim eldə bir məsəl var:
Parçalar qəlbi intizar,
Doğma çayım, dayan bir az!
İnsaf elə, dayan Araz!

Salam apar o ellərə,
Vəfa dolu könüllərə,
Gəl salma məni dillərə,
Dinlə məni, bir an Araz!
İnsaf elə, dayan bir az!

Gəl keçmişi qoyaq kənar,
Yetişsin bağçamızda bar,
Sarsılmasın o tayda yar,
Dinlə məni, bir an Araz!
İnsaf elə, dayan bir az!

Köç buradan uzaqlara,
Susuz qalmış otlaqlara,
Çəkmə könülləri dara,
Dinlə məni bir an, Araz!
İnsaf elə, dayan bir az!

Zaman keçir, illər axır,
Sənin suyun yeksər axır,
Dəyiş bir seyrini axır,
Dinlə məni bir an, Araz!
İnsaf elə, dayan bir az!

Səndə vardır, bir ehtişam,
Ayrılıqdan yorulmuşam.
Hər bir səhər, hər bir axşam
Dinlə məni, bir an, Araz!
İnsaf elə, dayan bir az!

Şirin günlər xatirəsi,
İlk eşqimin son nəğməsi.
Gəncliyimin təranəsi
Səndə olmuş nəhan, Araz!
İnsaf elə, dayan bir az!

Ay işığı, sahil sakit,
Al könlümü, asudə get,
Bu halıma bir nəzər et,
Al bunu ərmağan, Araz!
İnsaf elə, dayan bir az!

Gələr o gün, gözlə dostu,
Görərsən şən üzlə dostu,
Dosta söylə: gözlə dostu!
Bitdi sözüm bu an, Araz!
Fəqət durub dayan bir az!

*1946*

## AZADLIQ YOLUNUN YOLÇUSUYAM MƏN

Azadlıq yolunun yolçusuyam mən,
Səninçün ağ günlər gəzirəm, Vətən
Dünyanı gəzsəm də mən qarış-qarış,
Yenə səninləyəm, səninlə, bilsən.



Ayağım altında sənin torpağın,
Başımın üstündə sənin göyün var.
Könlümdə, ruhumda sənin növrağın,
Qəlbimi tərk etməz tanış arzular.

Hər gündə sinənə bir yara dəyir,
Sıxır ürəyimi qəm dalğaları,
Qəlbimi qurd kimi əzablar yeyir,
Gəzirəm səninçün ölməz baharı.

Mən tufan, fırtına axtarıram, bax,
Ürəyim nə vaxtdır intizardadır.
Çağırır hər zaman məni o torpaq,
Qəlbimin gözləri o diyardadır!

Deyirlər ağ günlər çəkər insanı,
İnsan səadətin sorağındadır.
Hanı o torpaqda ağ günlər, hanı?
Əsarət vətənin torpağındadır.

Gecə də, gündüz də gözləyir ürək,
Yormuşdur qəlbimi tənhalıq artıq.
Mən tufan gəzirəm, o tufan ki, tək,
Versin ürəyimə mənim rahatlıq.

Mən elə bir tufan gəzirəm ondan,
Bir anda çaxnaşsın səmanın üzü.
Elə bir tufan ki, qurtarmasından,
Bulaq tək durulsun qəlbimin gözü...

Ey gözəl torpağım, ey gözəl Vətən!
Azadlıq dünyası quracağam mən
Sənin torpağında öz əllərimlə,
Sənə həyat verən əməllərimlə.

*1957*

## TƏBRİZ

Qollarım dolanar boynuna bir gün,
Yenə baş qoyaram dizinə, Təbriz.
Həsrətdən, hicrandan cana doymuşam,
Doyunca baxaram gözünə, Təbriz.

Bulanlıq suların axsın, durulsun,
Təzə günlərindən büsat qurulsun.
Səhənd camalına bir də vurulsun,
Bir qubar qonmasın üzünə, Təbriz.

Həsrətin yandırar, pörşüdər məni,
Zərif çiçək kimi üşüdər məni.
Sosləsəm Savalan eşidər məni,
Qızınnam oduna, közünə, Təbriz.

Gülüstan bağının seyrinə gəlim,
Lalə yamacında bir də dincəlim,
Ötən günlərimə yetişməz əlim,
Düşüm heç olmasa izinə, Təbriz.

Ana təbəssümün ay işığıdır,
Qolum qamətinin sarmaşığıdır.
Şerin bu dünyanın yaraşığıdır,
İncisi tükənməz xəzinə, Təbriz.

Sən şair ömrümə vüqar vermisən,
Solub-saralmayan gülzar vermisən.
Etibar vermisən, ilqar vermisən,
Hər igid oğluna, qızına, Təbriz.

Səttarxan bayrağın göylərə ucalt!
Qara buludları od ağzına at.
Şair qızının da sözlərini qat
Şirin söhbətinə, sözünə, Təbriz.



## MƏNƏM

Meşələr payızda saralıb-solar,
Baharda yarpağı tökülən mənəm.
Vətənin həsrəti ömrə yük olar,
Bu qəmdən qaməti bükülən mənəm.

Bu hicran, bu nisgil olmayaydı kaş,
Həsrət qalmayaydı qardaşa qardaş,
Bir ömür intizar, bir ömür təlaş,
Gözləri yollara dikilən mənəm.

Məğrur bir palıddım göyə baş qoyan,
Mənə baş əyərdi qızıl kəhkəşan.
De, necə olmayım necə pərişan,
Kökləri yüz yerdən sökülən mənəm.

Dərdim vətən adlı ülvü səadət,
Mən ona həsrətəm, o mənə həsrət.
Yorulub yollarda qalmaram fəqət,
Adı intizarla çəkilən mənəm.

Ağ günü ovcumda görməsəm də mən,
Əminəm qardaşım, sən görəcəksən.
Məni qınasalar hay-haray çəksən,
Atəşi külünə bükülən mənəm.

Yüz yol bələnsəm də səngərdə qana,
Qoy düşmən düşməsin başqa gümana,
Toxumum səpilib cümlə cahana,
Ümid sərvləri əkilən mənəm.

Yaşadım, yaşaram nəğmələr kimi,
Qol-qanad açaram xoş xəbər kimi,
Uçaram yanına al səhər kimi,
Köksündə dan yeri sökülən mənəm.

## BU, HAMAN QILINCDIR?

*"Azərbaycan xalqı parçalanmış xalqdır"*
***İqor Belyayev***

İQOR BELYAYEVƏ
AÇIQ MƏKTUB

Doğrudur Belyayev, doğrudur tamam,
"Gülüstan" kəndində bir qərib axşam,
Özgə bilməsə də, sən ki, bilirsən
Kimlərin əliylə, hansı qılıncla,
Özüm istəmədən, özüm bilmədən,
İkiyə bölünüb parçalanmışam.
İndi illər keçir, o qara gündən,
İkiyə bölünüb, yaşayıram mən...
Xalqdan soruşmadan, saya salmadan
Böldülər bir xalqı, eli, torpağı...
İkiyə böldülər yanan ocağı.
Kimsə yetişmədi dada,fəryada,
(Ayrılıq həyatın qanunusa da),
Qoy kimsə düşməsin biz düşən oda...
İki əsr ayrılıq,
Dəhşətə bir bax!
Bu dərdə dözməzdi dünyada bir dağ.
Bir xalqı böldülər, sərhəd qoydular,
İkiyə bölünən Araz ağladı.
Sərhəd yaraladı ana torpağı,
Bir elin, bir xalqın müsibətinə
Min kaman inlədi, min saz ağladı.
Sən bir təsəvvürə gətir bircə an,
Zorla ayrılmışdır qardaş bacıdan.
Doğmanın birisi bu tayda qalmış,
Digəri o tayda,
Ortada hicran.
Baladan ayrılan ana qəlbində
Min fəqan qoparır, fəqan ayrılıq.



Şair fəryad edir, aşıq əl-aman,
Ah "aman ayrılıq, aman ayrılıq!"
Dünyaya göz açan uşaqlar belə,
Əmir bu həsrəti ana südüylə.
Ayrılıq dərdini elə beşikdən
Duyur körpələr də istər-istəməz.
Bu dərdin çəkisi bütün dünyada
Heç bir tərəzidə çəkiyə gəlməz.
Dünyada nə belə bir ayrılıq var,
Nə də ki, yüz illər ayrılığının
Fil çəkməz yükünə dözən canlılar...
Yəqin eşitmisən,
Deyirlər axı,
İntizar ölümü qoymayır yaxın.
Həsrət bir ürəkdə dözümə baxın,
Əlli il gözləmiş ana oğlunu,
Sən dözüm görmüsən belə bir kəsdə?
Görüşmək istəmiş o son nəfəsdə,
Son istək torpağa qovuşmuş ancaq,
Nə yaxşı alışıb, yanmamış torpaq.
Bu dərdin hamısı deyildir hələ,
Hələ də yoldadır oğul gözləri,
Ürəyi intizar, qulağı səsdə,
Gözləri yol çəkən həsrət ananın
Gedə bilməmişdir məzarı üstə.
Ağalar icazə verməmiş ona.
Eldən ayrı düşmüş elin oğluna.
Buna gör dözərmi bir növi-bəşər?
Gərək daş olasan, sən gözlü bir daş,
Yüz illər dözəsən bu müsibətə,
Buna gör dözərmi bircə vətəndaş?..
Sən doğru deyirsən,
Bu boyda dərdi
Nə bir dövlət görür, nə də məmləkət.
Görmürlər bir elin müsibətini,
Bir xalqı susdurmaq çətindir fəqət.
Xalqım səbrlidir. Kənan səbrli,
Bu boyda dərdini gətirməz dilə.

Fəqət dünya bilir, sən də bilirsən,
Yaram sağalmamış bircə gün belə.
Dərdlər var dünyada, çarələr də var,
Fəqət sağalmayan yaralar da var.
Mənimdir bu çarpaz, sağalmaz yara,
Nə qədər göz dikim mən bu yollara?
Ömür ayrılığı,
nə çox, nə də az.
Biri soruşmayır, biri demir ki,
Zülüm haqsızlıq da bu qədər olmaz...
Bir xalqın evinə sərhəd qoyublar,
Bir xalqın ömrünə sərhəd qoyublar,
Zorla ayırıblar,
Görüşlər yasaq.
Bir xalqın taleyi iki ağanın
Əlində dönərək olmuş oyuncaq.
Sən gəl sağalmayan yaramı açma,
Bir elin tükənməz müsibətini –
Zülmü, haqsızlığı bir qaxanc edib,
Min bəlalar çəkmiş başıma qaxma!
O köhnə qılıncı alıb əlinə,
Yüz illər qövr edən yarama taxma!..
O köhnə qılıncdan illərdir, illər,
Qəlbimin başında ağrılar gəzir,
O qılınc illərlə köhnə qınında
Gizlənib, dayandı əmrə müntəzir.
Qırx beş-qırx altıda çıxdı meydana,
Bəli, o günlərdə gözlənilmədən
Çıxdı qılafından, çıxdı qınından,
Şeytan o şeytandı, meydan o meydan.
O qılınc bir anda göründü, lakin
Arxamda durmadı, yenə o zaman.
Düşmənlə tək qoyub meydanda məni,
Sivrilib toz kimi çıxdı ortadan.
Köməyə gəlmədi qardaş-qardaşa,
"Öldü var, döndü yox" polad vədlər
Şişəyə çevrilib, toxundu daşa...



Zəfər tuş gələndə məğlubiyyətə,
Boğazdan asıldı min-min nəfərim.
Gülləbaran oldu igid ərlərim.
Mən unutmamışam, heç vaxt unutmam,
Çalış yadına sal o günləri sən,
(Nələr çəkməmişəm o günlərdə mən).
Doğmalar o tayda, qan gölü Təbriz,
Qan gölü Marağa, Ərdəbil, Zəncan.
Od qalxır bu tayda, od varlığımdan...
Üzü də qaradır, qəlbi də qara,
Qəribə ruhu var mühacirətin,
Vətəndən uzaqda, baş saxlamaq da
Dünyada hər dərddən çətindir, çətin.
Bəzən düşünürəm haman o qılınc,
Bir qara səhərdə, bir şum səhərdə,
Bir ala toranda, Yevlax yolunda
Haqladı Mircəfər Pişəvərini,
O Azər elinin dönməz oğlunu,
O Azər yurdunun igid ərini...
Ayrı düşən elin zərrəsiyəm mən.
Cavabsız sualın cavabı səndən,
Söylə: Vətənsizəm, yoxsa vətəndaş?
Ömür başa çatır, dözüm də qardaş!
Öz doğma yurdumda, öz torpağımda,
Qırx ildir qonağam,
Qonağa bir bax!
Süfrəyə bir ölüm uzanır ancaq...
Hələ bu harası, bu harasıdır,
Bir insan ömrünün qəribəliyi,
Bir şair ömrünün məcarasıdır;
Sicildə təvəllüd yerim o taydır,
Pasportdasa bu tay,
Sən dərdə bir bax,
Kim nəyi istəsə, yazıb qol çəkir,
Nəyi istəməsə, alıb pozacaq.
Bu elə dolaşıq bir kələfdi ki,
Əlinə götürsən əli yandırar,
Dilinə gətirsən dili yandırar...

Sən yaxşı bilirsən İqor Belyayev,
Bir xalqın dağ boyda müsibətini
Nə duyan, nə anan, nə də qanan var,
Bir şey sənə məlum, mənə də aşkar;
Xırda millətlərin dözümü çoxdur,
"Parçala, hökm elə" demiş böyüklər,
"Parçala, hökm elə" demiş ağalar...
Yaramdan qan sızır hər səhər-axşam,
Hələ göynəyəcək ayrılıq yaram.
Sənin dediyintək istər, istəməz,
Dinib danışsam da, danışmasam da,
Fəqət taleyimlə barışmamışam.
Bu dünya selində yerim var mənim,
Axına qoşulub qarışmamışam.
Mənim öz varlığım, öz qüdrətim var,
Məni dönə-dönə sınamış zaman,
Əyə bilməmişdir sonsuz sınaqlar.
Tufan yıxmaz məni!
Su boğmaz məni!
Ümmanlar batırmaz,
Külək yatırmaz.
Atsalar odlara, alova məni,
Yenə də yanmaram,
Çünki əzəldən
Oddan yaranmışdır öz ulu dunyam.
Torpağım qızıldır, varlıyam mən də,
Hatəmi Taiyəm yeri gələndə.
Özgə torpağında zərrə gözüm yox,
Özgələr malında zərrə gözüm yox,
Haram yeməmişəm, yemərəm haram,
Belə yaşayaram nə qədər varam.
Fəqət torpağımın bir zərrəsini –
Bircə qarışını vermərəm yada.
Elini atanın, yurdun satanın,
Suçu bağışlanmaz bizim dünyada.
Mənim öz mənliyim, öz vüqarım var,



Nə qulam satılam,
Nə də ki, ağa
Kökümlə bağlıyam doğma torpağa!
Odlar məkanıdır mənim Vətənim,
Bu odlar diyarı, odlar məkanı
Məni sehirləmiş elə beşikdən,
Yenidən bölsələr bütün dünyanı,
Ürəkdən deyirəm, ürəkdən inan,
Bütün bəlaları, müsibətilə
Yenə də götürrəm Azərbaycanı!

## QARABAĞIM

Qarabağım,
Qara sözün kim yazmışdır taleyinə?
Ana yurdum,
Gül oylağım!
Bu dünyanın zümrüd tacı,
Niyə oldun sinəmdəki
Çarpaz dağım?
Qara bağım!
Vaqiflərin, Natəvanın,
Üzeyirin, Ulu Xanın
Ana yurdu
Yad tapdağı olacaqsa,
Bülbüllərin, turacların
Məskənində
Bayquşlar yurd salacaqsa,
Sarı bülbül, xarı bülbül
Düşmənlərin olacaqsa,
Mən olmayım!
Qoy kökündən heç olmasın
Bu yurd, yuva!
Qoy olmasın bu el –oba!

## İGİDLƏRİM, SIRA-SIRA SƏF BAĞLAYIN!

Nə yaman dərdliyəm, Allah,
Zülümlər baş alıb gedir.
Namərd qonşu hiyləsindən,
Qəfil namərd gülləsindən
Ölümlər baş alıb gedir,
Zülümlər baş alıb gedir.
Alazanlar, katyuşalar,
BTR-lər
Meydan oxur,
Od püskürür Qarabağda.
Üzeyirin ilk nəğməsi,
Xanın titrək zənguləsi,
"Sarı bülbül",
"Xarı bülbül".
Yurd saldığı
O diyarda
Bayquşlar yurd salmaq istər.
Dünya sevər, bəşər sevər
Mənim xalqım,
Zülümlərə zülüm gərək!
Ölümlərə ölüm gərək!
İgidlərim sıra-sıra
Səf bağlayın!
Qalxın görək!
Ürəyim od tutub yanır,
Qürurumuz tapdalanır.
Nəsil-nəsil, əsr-əsr,
Lənətləyib qarğıyacaq
Ana torpaq.
Qınayacaq söndürülən o od-ocaq.
Sülh məramlı, sülh diləkli,
Mənim xalqım,
Torpağına göz dikənlər
Dağıtdılar cəlalını,
Artırdılar məlalını.



Yandırılan torpağındır,
Dağıdılan növrağındır.
Zaman gəlib çatmış artıq,
Yumruq kimi birləşməli!
Topun yoxsa, tankın yoxsa,
Mərmiyə dön,
Topa döndər ürəyini.
Bayraq elə öz arzunu,
Güllə eylə diləyini!
Çarə sənin özündədir,
Bir kimsədən çarə umma.
Atəşlərə qalansa da min-min nəfər,
Min-min ocaq.
Səninkidir son qələbə,
O son zəfər!
Səninkidir ana torpaq!
Yağıların atəşinə alışsa da,
Ağdam, Şuşa,
Düşmənlərin oxu dəymiş,
Dəyəcəkdir yenə daşa!
Torpaqların alınsa da,
Qızıl kimi yerin qalır.
Birin ölsə, yüzün qalır.
Birin dönüb yüz olacaq,
Min olacaq.
Qandan qaça bilməyəcək
Namərd, alçaq.
Tarixləri
Yadına sal,
Vuruş kənd-kənd,
Şəhər-şəhər,
Oba-oba, mahal-mahal.
Xəbər çatdır
Quşçuların uçub getmiş quşlarına,
Görən gözlər, vuran əllər
Qalır hələ!
Dünya belə qalmamışdır,
Qalmaz belə!

Sən yadlardan əlini üz,
Bir az da döz!
Haqq yerini alacaqdır!
Halal torpaq,
Qarabağda söndürülmüş
O od-ocaq
Səninkidir,
Yenə sənin olacaqdır!

## QƏLƏMİM SÜNGÜYƏ DÖN!

Qələmim süngüyə çevril, süngüyə,
Sancıl Qarabağda düşmən başına!
Zəfər bayrağına dönüb bir səhər,
Sancıl torpağına, sancıl daşına!

Bilirəm kövrəksən, elsevər, mətin,
Sənə qisas almaq çətindir, çətin,
Qeyrəti tapdanır ulu millətin,
Tarixlər şahiddir qoca yaşına.

Yad eldə qalmışdır aranım, dağım,
Yadlar tapdağıdır halal torpağım,
Qələmim, səniydin, sən ol yarağım,
Sınaqlar görmüşü bir daha sına!

Şuşam, Kəlbəcərim yad əldə qalmış,
Əl-aman səsləri göyə ucalmış,
Dağlarım düşməndən min-min bac almış,
Verməz can sirrini, can sirdaşına.

Sərgərdan quzular yad eldə mələr,
Nə çəkir yadlardan analar, nələr.
Könül fəryadıdır qaçqın körpələr,
Dağ istər, dözə bu həsrət yaşına.



Erməni nədir ki, ey ulu tanrım,
Ona qismət ola sərvətim, varım,
Bəlkə üz tutaraq, sənə yalvarım,
Soyuq su qatasan isti aşına.

Bizə çəkdirəni qəsbkar çəkə,
Qala boğazında bu yağlı tikə.
Bəlkə sahibsizmiş bu böyük ölkə?
Tarixlər hopmuşdur qan yaddaşına.

Dünyaya qalacaq dünyanın varı,
Sən özün cilovla qudurğanları.
Qov min-min sinədən boranı, qarı,
Sən özün zəfər qat, zəfər marşına.

Düşmən arzusuna çatmazdan qabaq,
Doydursun gözünü bu qara torpaq.
Alışsın Şuşada sönmüş od-ocaq,
Toplaşsın doğmalar ocaq başına.

Qələmim süngüyə, çevril süngüyə,
Sancıl Qarabağda düşmən başına!
Zəfər bayrağına dönüb, bir səhər,
Sancıl torpağına, sancıl daşına!

## O ÇİNAR BOYLULAR...

Ölüm, yaxın düşmə igidlərimə,
O çinar boylular balamdır mənim.
Yetimlər gözümün, könlümün dağı,
O tənha sonalar, sonamdır mənim.

Ölüm, yaxın düşmə igidlərimə,
Öz halal yurdunu qoruyur onlar.
Namərdə, nahaqqa, gəl vermə aman,
Haqqın yolçusudur çinar boylular.

Ölüm, yaxın düşmə igidlərimə,
Obalar, babalar istəyir bunu.
Doğma Qarabağda, öz torpağında,
Çəkmə sınaqlara Vətən oğlunu.

Beşmidir, onmudur, yüzmüdür düşmən?
Yaxınlar, uzaqlar, siz danışın, siz!
Neçə yad qoşunla vuruşur Vətən?
A düzlər, a dağlar, siz danışın, siz!

Ölüm, yaxın düşmə igidlərimə,
Tökülən qanlardan torpaq yorulmuş,
Halal torpağımda duşmən əlilə,
Ölümdən, zülümdən büsat qurulmuş.

Altı il odlara alışıb, yanan,
Mənim torpağımdır, mənim Vətənim,
Tanklardan, toplardan min yara alan,
Qanla suvarılan, çölüm, çəmənim.

Ölüm, yaxın düşmə igidlərimə,
Vaxtsız ölümlərə dözmə, a Tanrım!
İşığa, nura dön, başları üstdə,
O çinar boylular sərvətim, varım.

Ölüm, yaxın düşmə igidlərimə,
Səndən bunu istər sönən od-ocaq,
Gözü yolda qalan min-min ananın,
Arxa, güman yeri onlardır ancaq.

Ölüm, yaxın düşmə igidlərimə,
O çinar boylular balamdır mənim.
Yetimlər gözümün, könlümün dağı,
O tənha sonalar sonamdır mənim.
O çinar boylular balamdır mənim.



## NƏ GÖZƏLDİR UŞAQLIQ

Uşaqları qırdılar,
Uşaqlığı qırdılar,
Qırdılar Qarabağda...
Nə gözəldi cavanlıq,
Niyə oldu bir anlıq,
Bir anlıq Qarabağda?
Nə gözəldir təbiət,
Nə gözəldir bu həyat.
Nə gözəldir sülh-səfa,
Nə gözəldir abadlıq.
Kimin əliylə oldu,
Kimin əmriylə artdı,
Viranlıq Qarabağda?
Nə gözəl günlər idi,
Ata-analı günlər.
Niyə oldu anasız,
Niyə oldu atasız,
Körpələr Qarabağda?
Nələr oldu, gör nələr,
Gör nələr, Qarabağda.
Niyə qan dənizinə,
Döndü yaşıl tarlalar?
Niyə qan zəmisinə
Döndü zümrüd tarlalar –
Talalar Qarabağda?
Niyə yoldu saçını
Gəlinlər Qarabağda?
Analar Qarabağda?
Susduruldu sonalar,
Əsir düşdü analar
Analar Qarabağda.
Mənim qəm piyaləmə,
Doldu acı göz yaşı
Saçlarını gəlinlər,
Yolanda Qarabağda...

Çiçək kimi körpələr
Solanda Qarabağda.
Nə gözəldi o günlər –
Qarabağlı günlərim.
O işıqlı günlərim,
Üzü ağlı günlərim.
Qarabağlı günlərim.
Şirin-şərbət ağuya,
Döndü bir səhər çağı...
Bir də azad görəydim,
Bir də abad görəydim
O yamacı, o dağı.
O gülşəni, o bağı.
Vətənin zirvəsində,
Dünyanın zirvəsində,
Ömrümün zirvəsində,
Laciverdi tac kimi,
Alışan Qarabağı.
Ulduzlar karvanında,
Sayrışan Qarabağı!
Alışan Qarabağı!

## MƏNİM ÜRƏYİM

Durna qatarından üzülüb düşən,
Yaralı durnadır mənim ürəyim.
Dünyaya həmişə səadət gəzən,
Dağılmış dünyadır mənim ürəyim.

Hər payız Arazda qanad çalar o,
O tayı bu taya gizli çapar o.
Yuxusuz taleyə ortaq olar o,
Pozulmuş röyadır mənim ürəyim.

Təbrizdə Bakını gözündə saxlar,
Bakıda Təbrizi gəzər, soraqlar.
Bir gözü güləndə, bir gözü ağlar,
Bir nakam Leyladır mənim ürəyim.



Dünəni xatirə, bu günü hicran,
Zili də, bəmi də ürək dağlayan.
Ayı soraqlayan, günü haqlayan,
Bir sonsuz səhradır mənim ürəyim.

Bir qərib axşamdır, bir sonsuz gecə,
Arzusu zərifdir, istəyi incə.
Zülmət qurtarınca, günəş gəlincə,
Tufanlı dəryadır mənim ürəyim.

Qırx il ayrılığa dözər, yorulmaz,
Hicrandan, həsrətdən bezər, yorulmaz,
Ümid göllərində üzər, yorulmaz,
Nisgilli sonadır mənim ürəyim.

Hər kiçik qayğını bir dünya sanan,
İllərlə Vətənin oduna yanan,
Hər bir zərrəsindən Təbriz boylanan,
Qırılmış aynadır mənim ürəyim.

Qərib dərbədərdir doğma elində,
Bir Vətən sözü var gəzir dilində,
Çarmıxa çəkilən yadlar əlində,
Ulu məsihadır mənim ürəyim.

Durna qatarından üzülüb düşən,
Yaralı dünyadır mənim ürəyim.
Hər payız Arazdan gizli ötüşən,
Aralı durnadır mənim ürəyim.
Yaralı durnadır mənim ürəyim.

## YAŞIL DÜNYAM

Dağlar da, düzlər də qızılı donda,
Mənim gözlərimə yaşıl görünür.
Bir yaşıl dünyam var, yaşıl çalmada,
Hər yerdə arxamca gəlib sürünür.

Yaşıldır gözümdə, bulaqlar yaşıl,
Ağaclar, budaqlar, yarpaqlar, yaşıl.
Hər yana boylansam payızda, qışda,
Yaşıldır yaxınlar, uzaqlar yaşıl.

Dərəyə baxıram zümrüd don geyib,
Düşmənə baş əyməz bu dağlar yaşıl.
Hər yaşıl səhərdə, yaşıl axşamda,
Qarşımda dil açan irmaqlar yaşıl.

Bu yaşıl dünyaya, söyləmiş anam,
Bir yaşıl səhərdə göz açmışam mən.
Yaşıllıq arayıb, axtardım müdam,
Dünyaya bir yaşıl iz açmışam mən.

Bir də dönəcəyəm, gələcəyəm mən,
Bu yaşıl dünyaya bir səhər çağı.
Hər insan qayıdır, gəlir yenidən,
Yaşayır, yaşadır ana torpağı.

Yaşıllıq, yaşıl rəng bahar rəmzidir,
Mən bahar gəzirəm elimə hər an.
Qoy, elin gözünə yaşıl görünsün,
Min rəngə, çalara düşən bu cahan.

Başımdan aşanda yaşıl dalğalar,
Qoy məni gizlətsin bir yaşıl dəniz.
Görsəm, görməsəm də yaşıl səhərdə,
Yaşıl don geyinsin Bakıyla Təbriz.

Bir ömür hicranla durdum üz-üzə,
İlim də, ayım da, günüm də yaşıl.
Həsrət saraltsa da gözümün kökün,
Fəryadım, səsim də, ünüm də yaşıl.

Qoy dünya bürünsün yaşıl rənginə,
Yaşıla səsləsin məni yüz bahar.
Baharda, payızda, yayda, qışda da,
Qəlbimdə dil açsın yaşıl arzular.



## GÖNDƏRİN MƏNİ...

Daha ayrılığa dözə bilmirəm,
Vətəndən əlimi üzə bilmirəm,
Yenə fədaiyə döndərin məni,
Göndərin Vətənə, göndərin məni!

Gedim, o ellərə verim borcumu,
Düşmən bir də duysun sonsuz gücümü.
Həyatda bu olmuş diləyim, yalnız,
Çıxmayın ellərə bir də vəfasız,
Tufana, küləyə döndərin məni,
Göndərin Vətənə, göndərin məni!

Sinəmə ağır bir yükdür ayrılıq,
Belimi yay kimi bükdü ayrılıq.
Həyat gözlərimdə sönməzdən qabaq,
Sizdən bir diləyim olacaq, ancaq,
Tufana, küləyə döndərin məni,
Göndərin Vətənə, göndərin məni!

Mən günəşdən əvvəl qalxdım, oyandım,
Səhərin eşqiylə alışıb, yandım,
Fəqət, bilmədim ki, bu acı hicran,
Bilmədim nə zaman girdi qapımdan.
Yenə fədaiyə döndərin məni,
Göndərin Vətənə, göndərin məni!

Mən vüsal gəzirəm, qəlbimdə dağlar,
Dağların özündə ləpirlərim var.
Mən külüng vururam iyirmi il tamam,
Mən yanan məşələm, yandıran odam,
Sizsə bir küləyə döndərin məni,
Göndərin Vətənə, göndərin məni!

Bəsdir köhnə hava yazıb, çaldığım,
Hər daşın dibində qonaq qaldığım.

Mən bahar aparım, ölkəmə bahar,
Mənim o yerlərdə öz dostlarım var,
Tufana, küləyə döndərin məni,
Göndərin Vətənə, göndərin məni!

Aç, vüsal çiçəyim, aç, bir anlığa,
Son qoy ayrılığa, peşimanlığa.
Vətən başdan-başa olsun laləzar,
Mənim dəyişməyən arzularım var.
Tufana, küləyə döndərin məni,
Göndərin Vətənə, göndərin məni!

*1966*

## YARALI ÇİNAR

Təbriz,
Ərk qalası,
Tənha bir çinar.
Yaralı gövdəsi cadar-cadardır.
Susar, için-için kövrəlib, ağlar.
Onun da nisgili, həsrəti vardır.

Boylanar yollara hər axşam, səhər,
Fikri pərişandır, saçı pərişan,
Nədir varlığını çulğalayan kədər
Onun da, mənim tək ürəyi şan-şan.

Övlad həsrəti var, qoca çinarın,
O uzaq yollara dalğın baxsa da,
Əyilməz qaməti uca çinarın,
Başının üstündə şimşək çaxsa da.

Yüz yerdən ürəyi paralansa da,
Arzular onu da yaşadır hələ.
Budaqlar güllədən yaralansa da,
Bircə dərdini də gətirmir dilə.



Hanı kölgəsində oynayan o qız?
Nənəmdir, anamdır yaralı çinar.
Bir görüş diləyər dünyada yalnız,
Öz şair qızından aralı çinar.

Min dastan söyləyir pərişanlığı,
Dağlar bərabəri ucalmış başı.
Tufanlı keçmişdir gur cavanlığı,
Axmışdır qəlbinə acı göz yaşı.

Təbriz, Ərk qalası, tənha bir çinar,
Gələni qarşılar, gedəni izlər.
Qəlbində, köksündə sonsuz intizar,
Boylanar yollara yolumu gözlər.

## HARALISAN?

*Haralısan soruşanlara*

Qırx ildir vətəndən aralıyam mən,
Özüm də bilmirəm haralıyam mən.
Bir bunu bilirəm yaralıyam mən,
Yaralı hicrandan, yaralı könlüm,
Söylə haralısan, haralı, könlüm?

Yadlar soruşmadan ayırmış bizi,
Ayırmış Bakıdan ana Təbrizi.
Ayırmış qılıncla, itirmiş izi,
Düşmüş ocağından aralı könlüm,
Söylə haralısan, haralı, könlüm?

Sazın nəğməsində dil açır bu dərd,
Arazın səsində dil açır bu dərd.
Ana nəfəsində dil açır bu dərd,
Bu dərddən kül olub, qaralı könlüm,
Söylə haralısan, haralı, könlüm?

Vətəndə vətənə, anaya həsrət,
Sevənlər sevdiyi sonaya həsrət,
Düşdü ayaqlara ilkin məhəbbət,
Xəzan yarpağıtək saralı könlüm,
Söylə haralısan, haralı, könlüm?

Bəlkə sahibsizmiş bu böyük ölkə,
Qoy yadlar salmasın üstünə kölgə.
Bəlkə bakılıyam, təbrizli bəlkə,
Danış, oralısan, buralı, könlüm,
Söylə haralısan, haralı, könlüm?

Qoy kimsə düşməsin biz düşən oda,
Xalqım baş əyməmiş namərdə, yada,
Babəkim, Koroğlum qalır dünyada,
Düşmə öz kökündən aralı, könlüm,
Söylə haralısan, haralı, könlüm.

## DOSTLAR

Dostlar, sizdən ayrılanda
Mən özümdən ayrılıram.
Həm sazımdan, həm sözümdən
Həm dözümdən ayrılıram.
Öz-özümdən ayrılıram.

Günlər keçir, elə bil ki,
Yuxularda ömr edirəm;
Yaşayıram bir daş kimi,
Mavi, əngin boşluqlara,
Ən yaxın bir sirdaş kimi,
İlhamımdan, qələmimdən
Sevincimdən ayrılıram.
Ələmimdən ayrılıram.

İlham məni tərk edərək
Çıxıb gedir.



Könül verib, oxşadığım
Məcnun söyüd,
Uzaqlardan əl eyləyir,
Uzaqlardan baxıb, gedir.
Təbiətdən,
Təbiətə işıq saçan məhəbbətdən
Ayrılıram,
Səadətdən ayrılıram.

Bu dünyada
Qoy kökündən, budağından
Ayrılmasın bir nəfər də.
Həyat adlı bu səngərdə
Bir an sizsiz dolaşmayım.
Bağlı qapıları açmayım
Sizsiz dostlar,
Doğmalarım, ömrüm, günüm,
Səsim, ünüm,
Ulu tanrım sizsiz, dostlar
Məhəbbətsiz, qayğınızla
Tufanım da, boranım da,
Xəzanım da olur bahar.

Bu dünyada nə sərvətin,
Nə şöhrətin acıyam mən.
Yaxşı dostun, düz ilqarın,
Sədaqətin,
Məhəbbətin acıyam mən.

## BU YOLDA

Ölümün gözünün içinə baxıb,
Sonra bir şam kimi sönəcəyəm mən.
Qartaltək zirvəyə qalxdıqca qalxıb,
Sonra bu dünyaya dönəcəyəm mən.

Mənə acımayın, amandı, dostlar!
Vətən həsrətilə özüm ağlaram.
Vətənə, anamdan mənə yadigar,
Ölməz məhəbbəti girov saxlaram.

Azadlıq həsrəti olar çırağım,
Deməyin bu yolda bənizim solar
Dillərdən-dillərə düşər sorağım,
Məzarım günəşlə, günəşlə dolar.
Ölümdən qorxmuram, ölüm nədir ki,
Qəlbim darılacaq siz darıxanda.
Sizin qarşınızda zülüm nədir ki,
Çör-çöp neyləyəcək sellər axanda.

Yenidən doğacaq məni bir bahar,
Fəqət dağ insanı qəm, həsrət əyər,
Azadlıq eşqilə irəli, dostlar!
İrəli!
Bu yolda ölməyə dəyər.

## BİR ÇİNAR GÖZLƏYİR MƏNİ

Quşa sərhəd yoxdur, kaş quş olaydım,
Arazı uçaraq keçmiş olaydım.
Arzular illərdir izləyir məni,
Sərhəddə bir çinar gözləyir məni.
Orda xan çinara qonaydım bir an,
Min qüvvət alaydım budaqlarından.
Ata ocağımız, həyətimizdə
Uşaqlıq qoynunu açaydı mənə,
Geriyə dönəydi cavanlıq yenə.
Anam gözlərində sevinc, həyəcan,
Qarşıma çıxaydı bir anlıq fəqət,
Məni tərk edəydi bir gün bu həsrət.
İllərdir arzular izləyir məni,
Sərhəddə bir çinar gözləyir məni.



## AYRILIQ

Sinəmi yandırır yenə ayrılıq,
Nələr çəkdirməmiş mənə ayrılıq.
Gəlsənə insafa, dinə ayrılıq,
Məni güldürən də, ağladan da sən.
Kədərlə dost edən hər zaman da sən.

Sən bizim ellərə bir sirdaş oldun,
Duyan könüllərə bir yoldaş oldun.
Ölkəmdə qanunsuz vətəndaş oldun.
Sən elin qəlbinə bir dağ olmusan,
Dillərdən dillərə soraq olmusan.

Məndən soruşsalar bu dünyada ki,
Nədir qövr eyləyən ürəyindəki?
Deyərdim: yurdumu kim bölmüş iki?
Mən onun özünü bölərdim, inan,
Nələr çəkməmişdir el ayrılıqdan?

Ayrılıq, ayrılıq, aman ayrılıq.
Sinəmi yandırır yaman ayrılıq.
Artıq gəlib çatmış zaman, ayrılıq,
Bizim obaları, elləri tərk et.
Keç, bizim diyardan uzaqlara get!

Bu bir xəyal deyil, bir gələcəkdir,
Ayrılan ürəklər birləşəcəkdir.
İntizar könlüm də dincələcəkdir.
Həyat öz hökmünü vermişdir artıq,
Ölümə məhkumdur hicran, ayrılıq.

*1959*

## MƏNİM GÜNDƏLİYİM

Mənim gündəliyim şeirlərimdir,
Mənim şeirlərim bugünkü həyat,
Döyüş, mübarizə, ayrılıq, ümid.
Sabahkı qurtuluş, sabahkı nicat.

Asta çal, asta çal, döyüş marşımız
Narahat etməsin qoy yatanları.
Parlaq ulduz kimi göylərimizdə,
Tez çıxıb, alışıb, tez batanları.

Vətəndən ayrılan illərdə dostlar,
Ürəkdə var idi zülüm qorxusu.
Arzular yaşardı ürəyimizdə,
Ortada yox idi ölüm qorxusu.

Cavanlıq qürbətdə çapdı atını,
Otuzu, əllini tez vurduq başa.
Bir vursun yenə də ürəklərimiz,
Bizim həsrətimiz, dərdimiz qoşa.

Hamını itirib, sizləri tapdım,
Qəribə ruhu var mühacirətin.
Həmdəmi olmuşuq eyni arzunun,
Qonağı olmuşuq eyni həsrətin.

Bu gün də birini silahdaşların,
Aparıb tapşırdıq yeni mənzilə.
Sabah növbə kimin olacaq, aman,
Həyat belə getdi, ömür də belə.

Bilsəniz ölümü, doğmalar kimi,
Necə də ağırdır dostun, yoldaşın.
Ey dostlar, yaşayaq ilk bahar kimi,
Xəzanı olmasın bir vətəndaşın.



Bizi tərk etməsin gənclik, arzular,
Bizim kədərimiz, möhnətimiz bir.
Gözü yolda qalan vətənimiz var,
Vətən ayrılığı, həsrətimiz bir.

## MƏN DƏ

Mən də bir şairəm sinəsi dağlı,
Ayrılıq nəfəsli, hicran soraqlı.
Vətənin qapısı üzümə bağlı,
Hər axşam bu dərddən alışır sinəm,
Vətən həsrətliyəm, el həsrətliyəm.

Həyatın öz səsi, gur səsiyəm mən,
Varlığın bir səhər nəfəsiyəm mən.
Haçandır azadlıq təşnəsiyəm mən,
Qəlbimdə məhəbbət bulağı çağlar,
Bir gözüm güləndə, bir gözüm ağlar.

Səhər oyanmamış, günəş gəlməmiş,
Arzular üfüqün özütək geniş.
Torpağa, insana, günəşə alqış.
İnsan arzuları günəşdən uca,
Baxdım dan yerinə, baxdım doyunca.

Dəniz ovsunlayıb ayı da alır,
Çəkir sinəsinə, sular qaralır,
Qızılı bir şəfəq sularda qalır,
Açır gözlərini oyanır səhər,
Başlayır uğurlu bir aydın səhər.

Budur, nəfəs alır küçə, xiyaban,
Dəniz lap birinci qalxır yuxudan.
Həyatın zinəti ey ulu insan,
Dənizə, günəşə, sənə vurğunam,
Vurğunam, vurğunam, yenə vurğunam.

Məşəltək alışan bir ürəyəm mən,
Səhərə nur verən bir diləyəm mən.
Bir ölməz arzuyam, bir istəyəm mən.
Dağlardan möhkəməm, zirvədən uca,
Qalsın arzularım dünya durunca.

O tayda, bu tayda məşəl yandıran,
Səhərin yolunu işıqlandıran,
Göylərdə günəşdir, həyatda insan,
İnsan arzuları, günəşdən uca,
Baxım dan yerinə ömrüm boyunca.

## TALE

Tale vardır, buna inan,
Bir gün acı taleyimdən
Mənə düşdü acı hicran.
Tale məni dara saldı,
Gör haradan hara saldı.
Yeddi övlad anasıydı
Mənim anam,
Beşi qaldı.
Tale məni
Öz tərkinə bir gün aldı,
Hamısından ayrı saldı.
Ayrılıqdan yanıb söndüm,
Suya döndüm, oda döndüm.
Bəzən dağa,
Bəzən daşa,
Bir ovuc torpağa döndüm.
Bəzən yanan bir məşələ,
Bəzən lal heykələ döndüm.
Gün oldu ki, qanadlandım,
Yanlarına uçum deyə,
Torpağımı qucum deyə...
Qəlbindən ağrılar çəkmiş,



Otuz il intizar çəkmiş,
Qəm soraqlı anamı da,
Ağır sürgün yollarında,
Boz fədai şinelində,
Dərd yaraqlı atamı da,
Qurtarmaqçün ehtiyacdan,
Ağrılardan,
İntizardan
Gün olub ki, taleyimlə vuruşmuşam,
Vuruşaraq barışmışam,
Gün oldu ki, dilsiz oldum,
Səma kimi, torpaq kimi.
Gün oldu ki, nəğmə dedim
Ayrılıqdan
Həzin-həzin bulaq kimi.
Gün olub ki, ümid məni yola salmış,
Hər gün səhər.
Yollarıma işıq saçmış,
Qarşılamış hər gün axşam.
Nə gizlədim,
Gün olub ki, ümidsizlik alovunda
Bir şam kimi alışmışam.
Gün olub ki, doğmaların həsrətində
Göz yaşına dönüb tamam.
Buludlara çönüb tamam,
Dənizlərə, gur çaylara,
Ümmanlara qarışmışam.
Fəqət ümid qalib gəlmiş.
Ümidsizlik təslim olmuş
Düşüncəmə, iradəmə,
Ürəyimə.
Heç bir həsrət,
heç bir möhnət,
heç bir kədər,
heç bir zillət
batmamışdır.
Ölməz arzu, diləyimə.

Baldan şirin həyatını
El yolunda
Verənləri görmüşəm mən.
Səngərlərdə cəsarətlə,
Dar ayaqda şəhamətlə
Ölənləri görmüşəm mən.
Atam "öldü" qırx altıda,
sürgünlərdə.
Anam "öldü" o günlərdə.
Düşdü həsrət yatağına,
Yad torpaqda,
Yad mənzildə, yad otaqda.
Bir şam kimi yanıb söndü.
Qəfil əsən bir küləkdən
Sınan bir çinara döndü.
O nə dindi, nə danışdı,
Talesiz atamı gəzdi.
Həsrət onun ürəyini,
Vurub əzdi.
Yeddi il öz yatağında,
Bir şam kimi söndü anam,
Yavaş-yavaş,
Onun həsrət ürəyinə
Kədər sirdaş,
Ümid sirdaş,
Şübhə sirdaş.
Nə bilim ki, nələr oldu,
Bəlkə qara gözü doldu
Səhər-axşam.
Bir şam kimi,
Əriyərək gilə-gilə,
Yoxa çıxdı bir gün tamam.
Bu dərdə dözmədi bacım,
Mən istəkli bacısıydım,
Məndən əl üzmədi bacım.
Hey gözlədi, hey ağladı,
Atama da, anama da yas saxladı.



Gələr dedi bacım bir gün,
Yaralara məlhəm qoyar,
Həsrət gözüm bir gün doyar,
Barı bacı vüsalından.
Zaman
Bizə qənim oldu,
Bacımın da ömür günü vaxtsız soldu,
Pər-pər oldu.
Külək qovub apardı da.
Ürəyimi qopardı da.
Gənc yaşında,
Dərd əlindən öldü bacım.
Əsdi xəzan külələri,
Düşdü heyhat
Başımdakı ümid tacım.
Bizə düşmən oldu həyat.
Ürəyimdən ümid, vüsal
Elə bil ki,
Uçub getmiş.
Otuz illik ayrılıqdan
Elə bil ki,
Arzular da qaçıb getmiş.
Tutaq döndü arzularım,
Tutaq getdim,
Kim qarşılar orda məni,
Sən ki, yoxsan.
Axı sən ki, cavan idin,
Niyə belə tər-tələsik,
Köçdün bu qoca dünyadan.
Sən həyata vurğun idin,
Təbiətə heyran idin,
Axı sən ki, cavan idin.
Tələsdiyin nəyə gərək.
Tənha qoydun məni niyə?
Sinəndəki böyük ürək,
Yaşatmadı səni niyə?
Gözləmədin məni niyə?

Taleyimi izləmədin,
Niyə məni gözləmədin,
Niyə məni gözləmədin?..
Tale vardır buna inan,
Mən taledən yaralıyam
Səhər, axşam.
Tale məni dara saldı,
Gör haradan hara saldı.
Sən ki, görüş vəd etmişdin,
Görüş vədən harda qaldı?
Harda qaldı?

## APAR MƏNİ O YERLƏRƏ

Apar məni o yerlərə,
O yerə ki, sevinc, gülüş
Göz yaşına qalib gəlmiş.
O yerə ki, haqq, ədalət
Haqsızlığa zəfər çalmış.
Apar məni o yerlərə.

Apar məni o yerlərə,
O yerə ki,
Ağ çalmalı şəlalər,
Yaşıl donlu qayalara
Mahnı qoşar,
Nəğmə deyər.
Apar məni o yerlərə.

Apar məni o yerlərə,
O yerə ki,
Dərələrdə
Quşlar qanad salmamışdır.
O yerə ki,
İnsanların ürəyində,
Arzu- kamı qalmamışdır.
Apar məni o yerlərə.



Apar məni o yerlərə,
Ümidlərin, arzuların vətəninə.
Xəyalımın, ümidimin
Ən səfalı məskəninə,
Apar məni o yerlərə.

O yerə ki, sənə ürək –
Sənə könül verər cahan.
Cahanda zərrəyəm, inan,
Apar məni o yerlərə.

Apar məni uzaqlara,
Apar səfalı bağlara,
O yerə ki,
Ürəyimə bir təbəssüm,
Bircə gülüş
Çilər günəş.
O yerə ki,
Ürəklərdə hərarət var,
Məhəbbət var,
Bir də atəş.
Apar məni o yerlərə,
Apar məni o yerlərə.

## HARDASA

Hardasa göy gurladı,
Hardasa çaxdı şimşək.
Düşündüm ki, bizimdir
O işıqlı gələcək.

Hardasa əsdi külək,
Hardasa qopdu tufan.
Düşündüm ki, zülm evi
Dağılacaq binadan.

Göz qoydum buludlara,
Məğrur uçurdu qartal.
Düşündüm ki, bizimdir
Bu yüksəliş həsbi-hal.

Dəniz də şahə qalxdı,
Şahə qalxdı dalğalar.
Düşündüm ki, hardasa
Tufan var, qasırğa var.

Ayrılıq həsrətimi,
Bubbu səsində gördüm.
Öz gənclik həvəsimi,
El nəfəsində gördüm.

Hardasa dalğalandı,
Ayna üzlü bir dəniz.
Gördüm ki, döyüşlərə
Yenə də hazırıq biz.

Hardasa yağdı yağış,
Ürəyimdə açdı yaz.
Dilə gəldi nəğməmiz,
Dilə gəldi telli saz.

Yaz kimi arzularım,
Bəzədi çölü-düzü.
Gecə özü səslədi
İşıq saçan gündüzü.

## CAVAB

Əgər soruşsalar bir dəfə məndən:
Ən ağır, ən acı nədir dünyada?
O zaman hicranın tutub əlindən
Deyərdim, lənətlər deyin bu ada.



Söylə, ey ayrılıq, özün söylə, gəl,
Hansı bir ürəyə ləkə salmadın?
İnsan arzusuna etmədin əməl,
Odur ki, cəfəkar tanınır adın.
Söylə, ey ayrılıq, hansı aşiqin
Ayrılıq adıyla rəngi solmadı?
Həmdəmi olduğun hansı insanın
Ürəyi əlində dağlı olmadı?
Söylə, ey ayrılıq, ana qəlbinə
Səndən ağır olan bir yara varmı?
Başqa planetə uçub getsənə
Bu geniş səmalar başına darmı?
Körpəmin gözündə, yanağında yaş,
İlk dəfə bil səndən törənmiş fəqət.
Ələm yol tapdısa onun qəlbinə
Bu da səndən oldu bir gün nəhayət.
Xalqımın, elimin qəlbində daim
Qəmlərə, kədərə sənsən səbəbkar.
Köçsənə əbədi bütün dünyadan!
Böyüklər, kiçiklər bunu arzular.
Ürəyim yaralı hicran əlindən,
Diləyim yaralı hicran əlindən,
Başımın üstündə hərlənəndə, ah,
Gözlərim qaralır hicran əlindən.
Üzünə bağlanan qapılar olsun,
Bizə çağrılmamış qonaq kimisən.
Ürəklər vüsalla boşalıb dolsun,
Elim üz döndərmiş biganələrdən.
Ayrılıq, dünyada ölüm də sənsən.
Qəlbimə zülm edən zülüm də sənsən.
Səni məğlub edən polad qanadlı,
Vüsal müjdəçisi olacağam mən.

*1959*

## ELƏ GƏLSİN

Dərdlərimi daglara qoy deyim, dilə gəlsin,
Qoy sesləyim, şikayət səsim bu elə gəlsin.
Elim, yurdum, vətənim dərd əlində giriftar,
İnildəsin *kamanım bir daha zilə gəlsin.*
Azadlıq həsrətində alışım nə vaxtacan,
Ümid dolu ürəyim nə zaman dilə gəlsin?
Şəmsiz, yazıq pərvanə, necə yaşasın, necə,
Söylə, aşiftə bülbül, nə zaman gülə gəlsin?
Mən vətən aşiqiyəm, onun həsrətində, ah,
Qoy səsləyim, şikayət səsim bu elə gəlsin.

*1958*

## MƏNİM ANAM

Getdin bu dünyadan həsrət, nigaran,
Getdin ürəyində ayrılıq dağı.
Heç bir il keçməmiş köçdü dünyadan,
Tərk etdi bacım da, doğma torpağı.

O, sənsiz bir il də qala bilmədi,
Mən sizsiz dözmüşəm otuz il tamam.
Bir məni yadına sala bilmədi,
Yumdu gözlərini qarlı bir axşam.

Dözərəm dağ kimi, ürəyimdə dağ,
İllərdir gözlərim yollarda qalar.
Ey vüsal, bir kərə ol bizə ortaq,
Bu həsrət könlümü odlara qalar.

Ayrılıq, illərlə sınadın bizi,
İstəsən gücünü yenə də göstər.
Sınadın min dəfə qoca Təbrizi,
Borclular borclunun sağlığın istər.



İstini, soyuğu yola salmışam,
Mənə hər üzünü göstərmiş həyat.
Sənə ki, deməzsən borclu qalmışam,
Sındıra bilmədim səni də heyhat.

Çalxanar ürəyim dənizlər kimi,
Tutular, açılar gündə yüz kərə.
Mən ki, azadlığa verdim qəlbimi
Mən görüş vədəsi verdim ellərə.

Ana, ayrılığın həsrətində mən,
İnan dözümlüydüm bu dağlar kimi.
Yadıma düşəndə bəzən bacım, sən,
Düşürdüm tufana budaqlar kimi.

Bu bir an olurdu, ancaq bircə an,
Dayanıb dururdum yenə də mətin.
Gözümə gülürdü həsrətli hicran,
Fəqət ölümünə dözmək çox çətin.

Məni tənha qoydun, qoydun özünsüz,
Hələ bacımı da çəkib apardın.
Dözümsüz olmuşam, ana, dözümsüz,
Köksümdən qəlbimi niyə qopardın?

Uzun ayrılığa dözdüm, ey ana!
Ümidli illərim de harda qaldı?
Qarğıyım hicrana, yoxsa dövrana,
Bizim hamımızı tufana saldı.

Necə yaman imiş ölüm xəbəri,
Böyük bayram imiş burda ayrılıq.
Necə başa vurum qalan illəri,
İnan yorulmuşam, bezmişəm artıq.

Özün qeydimə qal, özün, ey ana,
Payızam, xəzantək saralmışam mən.
Gəl özün həyan ol doğma balana,
Sanki tənhalıqdan qaralmışam mən.

Məni qınamasın dost da, tanış da,
Qaldım ayrılığın həsrətində tək.
Dözərdim payız da, bahar da, qış da,
Bu dərdə sinəmdə dözməyir ürək.

## MƏN ÖLMƏRƏM

*Təbrizdə şayiə yaymışlar ki, mən ölmüşəm*

Çaylar kimi bulanma sən,
Atəşlərə qalanma sən,
Yad sözünə inanma sən,
Mən ölmərəm sizdən ayrı,
Anamız Təbrizdən ayrı.

Ürək vurğun vətəninə,
Sınanmışam dönə-dönə,
İnanmışam böyük günə.
Gedən karvan qayıdacaq,
Dərdi-qəmi uyudacaq.

Diləklidir dilim mənim,
Yol gözləyir elim mənim,
Yetər sizə əlim mənim,
Yurdu viran qoyan ölsün,
Yaman xəbər yayan ölsün.

Yollarımda tufan olsa,
Çəkinmərəm boran olsa,
Ömrüm bir gün yalan olsa,
Başı duman alar dağlar,
"Göy kişnəyər, bulud aglar".

Bir məsləkə sarınmışam,
Arzularla barınmışam,
Ölümdən də qorunmuşam,
Gəlib görəm Zəncanımı,
Elə verəm mən canımı.



Dayağımdır Tehran, Təbriz,
O möhnəti, dərdi ləbriz.
Niyə belə yad olduq biz?
Ömür gedər izi qalar,
Şair gedər sözü qalar.

Araz kimi çağlar könül,
Bir saz kimi ağlar könül,
Sizə ümid bağlar könül,
Vüsala yol açasınız,
Qardaş boynu qucasınız.

İran indi İran olmuş,
Qurd yuvası viran olmuş,
Dünya sizə heyran olmuş,
Mübarəkdir hünəriniz,
Sizin böyük zəfəriniz.

Sona yetsə ömür bir gün,
Bahar gələr gözü dolğun.
Yarpaqları, rəngi solğun,
Yaş axıdar büllur bulaq.
Qəribsəyər bizim ocaq.

Mən ölsəm də sözüm qalar,
Adım qalar, izim qalar,
Qaralmayan gözüm qalar,
Yurdumuzun ocağında,
Hər səfalı bucağında.

Gözü yolda qalıb Zəncan,
Mən ölümə vermərəm can.
Bir ürəkdir Azərbaycan.
Mən körpülər salam gərək,
Elin könlün alam gərək.

Mən ki, bir dan ulduzuyam,
Vətən qızı, el qızıyam,
Hamınıza tamarzıyam.

Qardaş, bacı yada düşər,
Şair qəlbi oda düşər.

Başa yetər bu yoxuşlar,
Yaza dönər qara qışlar,
Savalandan uçan quşlar,
Savalana dönər bir gün.
Orda yanıb-sönər bir gün.

Qardaş, mən də gələcəyəm,
Siznən deyib güləcəyəm.
Yanınızda öləcəyəm.
Məzarımı qazasınız,
Başdaşıma yazasınız:

Billuridir burda yatan,
Şərbətinə ağı qatan,
Qəbri qızılgülə batan,
Son nəfəsdə kama çatan
Bir azadlıq qurbanıdır,
Ölməz sənət tərlanıdır.

*Noyabr-Yanvar, 1980*

## ANA

Baxıram surətinə, solğundur,
Baxışın qəmli, gözün dolğundur.
Görürəm, axtarırsan çox nigaran,
Oxuram, sirrini qəlbində inan!
Deməsən də bilirəm həsrətini,
Düşmənin pəncəsi çox sıxdı səni.
Bilirəm, möhnətin artıqdır sənin,
Bir səhər şamına oxşar bədənin.
Görürəm çöhrəni gültək saralıb –
Günəşin üstə bulud kölgə salıb.
Bilirəm, çılpaq olub körpələrin,
Nə açan var qapını, nə gələnin.



Bilirəm, xəstədir ruhunu sarmış üsyan,
Tapdayıb haqqını xain düşmən.
Gələrəm, tez gələrəm, bir də inan,
Alaram mən yağılardan qana qan!
Yenə verrəm sənə ilk qüdrətini –
Edərəm sərv, əyilən qamətini.
Qolunun zəncirini mən açaram,
Qaralan qəlbinə nurlar saçaram.
Açaram bağlı qalan qapıları mən,
Elərəm hər tərəfi gül, gülşən
Açılar gül kimi çöhrəndə düyün,
Dəyişər yer də, səmalar da o gün.
Çəkilər qəmli, nəhan xatirələr,
Dəyişər sübhə qaranlıq gecələr.
Qızarar gül kimi solğun dodağın,
Gül açar, meyvə verər bağça-bağın.
Ağlama, sızlama, bil, sən gələcək
Haqqı, nahaqqı açıq göstərəcək!
Bu deyil vədə, həqiqətdir, inan!
Çox yaxın bir gələcəkdir, o zaman.

## VƏTƏN

Halını soruram dağlar dalından,
Ürəyim alışır bu əhvalından.
Mən ilham alardım gül camalından,
Sən bu gün sevgilim, cananım, Vətən!

Durnanın qatarı keçəndə bir-bir
Soruram – yurdumun halı necədir?
Fəraqında mənə gündüz gecədir,
Yolunda qurbandır bu canım, Vətən!

Mənə bir anamdan xəbər söylə sən,
O nələr çəkmədi, nələr, söylə sən!
Qan içən düşmənə "Yetər!", söylə sən,
Ürəkdə qalmasın fəğanım, Vətən!

Düşmenlər əlində yamandır halın,
Qanlara batsa da şəhrin, mahalın
Bil ki, ölməyəcək böyük amalın,
Tarixə ziynətdir bu şanın, Vətən!

İnan, qüvvət gələr yenə dizimə
Müqəddəs torpağın dəysə gözümə.
Əzəldən sən oldun bəzək sözümə,
Sənsən mənim şerim, dastanım, Vətən!

Vüsalın qəlbimə qüvvətdir inan,
Ürəyim hicrinlə olar pərişan,
Sənsiz yaşamaram dünyada bir an,
Dolanmaz damarda bu qanım, Vətən!

Gözəldir vətənim, torpağım, yerim,
Hüsnündən doymayıb hələ gözlərim.
Adına bağlıdır ürək sözlərim,
Dolanım başına, dolanım, Vətən!

Hüsnün aşiqiyəm, bilir hər diyar,
Səndədir məhəbbət, sonsuz etibar.
Könlüm məndən sənə qalmış yadigar,
Gəlmir özgə şeyə gümanım, Vətən!

*1947*

## SÜRGÜN

Yenə dalğalanır ürəyimdə kin,
Ah, dostlar duysaydı ürəyimdəkin...
Mənim də hissim var, duyğularım var,
Mənim vətənimdir o yanan diyar,
Mənim qardaşımdır çəkilmiş dara;
Onun saf könlünə vurulan yara
Mənim də qəlbimi parçalayaraq
İntiqam hissini artırır ancaq.



Mənimdir o yanan dudiman, görün!..
Mənimdir dağılan xaniman, görün!
Mənimdir o torpaq, mənimdir o daş.
Əzəldən mən idim onlara sirdaş.
Mənimdir qartallar qopan qayalar,
Mənimdir dərələr, çaylar, obalar.
Mənim öz bacımdır o qəhrəman qız,
"Cinayət" adıyla onu asdınız.
Haqq deyən çürüyür zindanınızda,
Vətənini sevən boranda, buzda
Can verir acından, soyuqdan yenə.
Nələr etmədiniz əziz vətənə?..
Bir zaman quldurlar yatağı olan
Cəhənnəm timsalı Buşehr, Abadan[1]
Bu gün məskən olub qəhrəmanlara,
Vətəndən sürülən mərd insanlara.

Gül üzlü körpələr Qişmdə[2] hər an
Acından, zülümdən istəyir aman.
O fəryad səsini eşidirəm mən,
Canlanır gözümdə hər an el, Vətən.
Deyirəm sözümü budur, aşikar,
Eşitsin səsimi mənim hər diyar.
Nə qədər qan gəzir damarlarımda
Biganə[3] qoymaram öz diyarımda,
Kəsərəm yurduma uzanan əli –
Budur ürəklərin arzu, əməli.
Bunu tələb edir oturan yalqız
Qəmlər otağında analarımız.
Vətənin eşqilə yaşayıram mən,
Ölsəm də verməram onu əlimdən!
Qoymaram zərbələr dəysin elimə,
Gərək sahib olum ana dilimə.

---

[1] İran şəhərlərindəndir.
[2] Cəzirə adıdır.
[3] Yad mənasında.

Əlimlə uçurub qara zindanı
Gərək azad edim Azərbaycanı!
Ölkəmdə qalmasın zülmdən nişan,
Gərək tez dəyişsin bu köhnə dövran,
Gömülsün torpağa kədər, qüssə, qəm,
Elin çöhrəsində görməyim ələm.

*1947*

## O GÜNÜN ARZUSUYLA

Saçlarıma dən düşür,
Deyəsən erkən düşür.
Ömrümün zirvəsinə,
Duman enir, çən düşür...
Məni vaxtsız qocaldır
Vətənimin həsrəti.
Çöhrəmdən uçub gedir
Gəncliyin təravəti.
Lakin qəlbimdə ilham
Coşur yenə dəniz tək.
Nə qədər ki, mən sağam
O ilham sönməyəcək!
Qoy düşmən sevinməsin
Ürəyim susmuş deyə.
Yox, mən öz varlığımı
Vətənimə hədiyyə,
Xalqa qurban demişəm!
Mən hər zaman demişəm:
Qəlbim kül altındakı
Yanar odu yandırar;
Bir gün şölələnərək,
O od yaxıb, yandırar.
Bizim də obalara
Ağ günlər gəlsin gərək,
O günün arzusuyla
Yazıb-yaradır ürək.

*Dekabr, 1956*



## ŞƏRQ QADINI

Mən az görməmişəm ağlayanda sən,
Başına qaralar bağlayanda sən,
Ahınla hər qəlbi dağlayanda sən,
Artdı gündən-günə zillətin sənin.

Alnında, üzündə dərin cizgilər,
Həmişə pərişan, hər an mükəddər,
Mən öz həyatımı verərdim əgər,
Bilsəydim qurtarar möhnətin sənin.

Bir parça çörəyə satdılar səni,
Qul tək qabaqlara qatdılar səni,
Alıb zindanlara atdılar səni,
Nədən ucuz oldu qiymətin sənin?

Sən günəşdən əvvəl qalxdın hər səhər,
Döyüldün, söyüldün, saysız, mükərrər.
Qoynunda boy atdı nərlər, igidlər,
Fəqət ucuz oldu zəhmətin sənin.

Saçına dən düşdü gənclik yaşında,
Hər dağın dibində, bulaq başında,
Ana təbiətin hər bir daşında
Yer saldı göz yaşın, həsrətin sənin.

Soldu gözlərində gül üzlü bahar,
Yurdunda at çapdı soyğunçu yadlar;
Çapıldı, talandı hər nəyin ki, var
Dağıldı əllərdə sərvətin sənin.

Zaman od qaladı sinənin üstə,
Ürəyin intizar, qulağın səsdə,
Danışdın ahəstə, dindin ahəstə,
Həyata olmadı rəğbətin sənin.

Göz yaşın çaylarla axdı yanaşı,
Kədərdən od tutdu qəlbinin başı;
Həmdəmin intizar, bir də göz yaşı,
Nə qədər ağırdı möhnətin sənin.

Camalın saralıb soldu qönçə tək,
Boğuldu sinəndə çox arzu, istək,
Bir gecə partladı köksündə ürək,
Dedilər "bu imiş qismətin sənin".

Sən ey Vətən qızı! Çatmışdır zaman,
Sən nakam anadan bir yadigarsan.
Üsyan əsarətə, qulluğa üsyan!
Döyüşə çatmışdır növbətin sənin.

*Mart, 1950*

## NECƏ GÜLÜM?

Dostum, deyirsən ki, gül, həmişə gül!
Səni sağaltsa da gülüş sağaldar.
Söylə, necə gülüm, necə gülüm bəs?!
Sinəmdə düşmənin yaraları var.
Qəlbimin səması necə durulsun,
Vətənin göyləri tutqunsa əgər?!
Rahatlıq üzünə həsrətsə elim,
Söylə, bəs ürəyim necə dincələr?!
Dostum, necə gülüm, necə gülüm mən,
Əgər gülməyirsə elim, vətənim?!
Qəlbimin səması necə durulsun
Əgər dumanlısa çölüm, çəmənim?!
Necə ki, Təbrizin üstü dumandır.
Dumanı qəlbimdən silərmi zaman?!
Deyirsən, həmişə gülüm, o vaxt ki,
Ağzım bir gülüşə açılmaz, inan!
Qəlbimin səması necə durulsun
Əgər dumanlısa çölüm, çəmənim?!
Dostum, necə gülüm, necə gülüm mən,
Əgər gülməyirsə elim, vətənim?!

*1959*



## MƏNİM ÇİÇƏYİM

Mən əməl bağında bir gül əkmişəm,
Onun zəhmətini özüm çəkmişəm.
Elimin həyatı keçsə də ağır,
O gülə nə qədər gözlərim baxır,
Özümü həyatda xoşbəxt sanıram.
Gələcək eşqiylə qanadlanıram.
Dözərəm hər dərdə, məhrumiyyətə,
Dözərəm dünyada hər bir möhnətə.
Bilirəm əkdiyim o gül açacaq,
Vətən göylərinə ətir saçacaq.
Arzular su vermiş, onu bəsləmiş,
O gül gələcəyə məni səsləmiş.
Bir gün qovuşacaq el səadətə,
Mənim ki, ümidim elə bəllidir.
Çiçək açmasa da arzum hələlik,
O gül həyatıma bir təsəllidir.

*1959*

## MƏKTUB

*Qafar Kəndliyə*

Səfər bir ay olar, beş ay, bir il, bəs
Səfərin nə uzun çəkdi, a qardaş?
Sinəmdə elə bil daralır nəfəs,
Gəlsənə, bacına olasan sirdaş.

Səfərə gedənlər, adətdi bizdə,
Məktubu məktuba calayar, axı
Gözləyir anam da, el də, Təbriz də,
Boylanır yollara Savalan dağı.

Yamandır ayrılıq, intizar yaman,
Yolunu gözləmək ölümdən betər.
Taqətim, səbrim də tükənmiş, inan,
Otuz il ayrılıq, qardaşım, yetər.

İllər gəlib keçir, bir varaq kağız
Köçəri quş olmuş, tuta bilmirəm.
Sənin həsrətini, sənin dərdini
Ürəkdən çıxarıb, ata bilmirəm.

Elə bil heç sənsiz olmamışam mən,
Surətin könlümdə, gözümdə qalmış.
Yadına salmırsan bəs məni nədən?
Mİn şübhə, min xəyal qəlbimi almış...

Qardaş bacısına yazanda cavab,
Bircə sətir yazdı, ancaq bir sətir,
Bu sətir bir kitab, qalın bir kitab,
Orda könül açan min hörmət, xətir.

– Divardan asdığım sazıma dəymə!
Mən onu bir səhər dindirəcəyəm.
Mən sənə nisgilli məktublar deyil,
Görüş müjdəsini göndərəcəyəm.

## BAKI

Bakı, doğma vətənimsən,
Qızılgüllü çəmənimsən.
Üzüm gülməz səndən ayrı,
Gəl heç düşmə məndən ayrı.
Canım Bakı, gözüm Bakı,
Mənim şerim, sözüm Bakı.

İlk bahardır sənin qışın.
Həm boranın, həm yağışın,
Həm küləyin xoşdur, inan.
Sən qardaşlıq dünyasısan.
Canım Bakı, gözüm Bakı,
Mənim şerim, sözüm Bakı.



Neapola bənzədirlər
Səni, Bakı, gözəl diyar.
Baharınsa Vyananın
Baharını xatırladar.
Mənsə səni bir dünyaya
Dəyişmərəm inan, Bakı
Sevimli, mehriban Bakı!

Səninlə ilk görüşümdə
Kədər saçan gözüm güldü.
İllər boyu şikayətli
Olan şerim, sözüm güldü,
Sevimli, mehriban Bakı,
Gözəlləş hər zaman, Bakı.

Tükənməz bir məhəbbətlə
Sevdim hər bir bucağını.
Təbriz, Zəncan sandım hər an
Doğma ana qucağını.
Canım Bakı, gözüm Bakı,
Mənim şerim sözüm Bakı.

*Gecələrin zinətidir*
Ehtişamlı axşamların.
Bir dünyanın şöhrətidir,
Göyündəki ağ şamların.
Canım Bakı, gözüm Bakı,
Mənim şirin sözüm Bakı.

Bu ellərə həyat verən,
İlhamıma qanad verən
Bircə sənsən, bir də Xəzər,
Sularında axşam, səhər
Əks eyləyən gözüm gülür,
Qəlbim gülür, üzüm gülür.
Canım Bakı, gözüm Bakı,
Mənim şirin sözüm Bakı.

## MƏNİM XALQIM

Xalqımı çox sevirəm, çox.
Ona mənsub olduğum üçün yox,
Əməksevərdir –
ona görə,
Qonaqpərvərdir
ona görə.
Hər şeyi
Ürəyinə salandır,
Özgə dərdinə qalandır.
İncəlikləri duyar
Mənim xalqım.
Haqqın keşiyində durar
mənim xalqım.
Qəlbində qürur, alnında vüqar –
Mənim xalqım...
Torpağa bağlıdır əzəldən.
Mətanətli, dözümlüdür,
Sınamışam mən.
Təmkini dağ kimidir,
Fitri istedadı – bulaq kimi.
Səbri Kənan səbrinə bənzər,
Adı, şöhrəti uzaqlarda gəzər.
Gənclərini çox sevirəm,
Vəfalıdır, ona görə.
Qocalarını çox sevirəm,
Hər sözü mənalıdır, ona görə.
Anaların kəsərlidir sözü,
Uzaqgörəndir gözü.
Gözəl adətləri vardır xalqımın,
Ürəyi işıqdır, nurdur xalqımın.
Uşaqlıqdan bir adətdir
Bizdə böyüyə hörmət.
Alınıb-satılmaz məhəbbət.
Toxunulmazdır əmək,
Müqəddəsdir zəhmət.



## GÖRÜŞLƏ BİTMƏDİ BU HİCRAN NİYƏ

"Ayrılıq görüşlə bitir... tez olur".
Görüşlə bitmədi bu hicran niyə?
Yenə piyaləmə ayrılıq dolur,
Bu son ayrılıqdır, son hicran – deyə.

İllər gəlib keçir hey birər-birər,
Bir arzu, bir nisgil yaşayır ancaq.
İllərin üstünə qalanan illər,
Nə qədər yaxındır nə qədər uzaq.

Bir il də üstünə gəldi illərin,
Yetər, bir ömürdür ayrılmışıq biz.
Səbri nə böyükmüş bizim ellərin,
Gözləri yoldadır yaralı Təbriz.

Hanı bu ayrılıq, bitmədi qardaş,
Görüşlə bitmədi sən deyən kimi.
Hicran da yığışıb, getmədi, qardaş,
Gəl, sözlə ovutma sən də qəlbimi.

Saraldı könlümün, gözümün kökü,
Bəs sona yetmədi niyə bu hicran?
Hər ömür yolunun vardır öz yükü,
Fəqət hicran yükün fil çəkməz inan.

"Görüş qışdan sonra bahar"sa əgər,
Bəs hanı, bu qışın hanı baharı?
Bir ömür ayrılıq az imiş məgər,
Hələ də bağlıdır vətən yolları.

Yaz gəldi, xəzan da, qış da dolandı,
Bu gündən sabaha qaldı görüşlər.
Gözlərdə bir ümid çırağı yandı,
Meylini yadlara saldı görüşlər.

Vüsalsız hicranın söylə adını,
Bir ömür ayrılıq hicranmı məgər?
Demə ki, unutdu ellər andını,
Bilirsən, bu yolda çəkmişəm nələr.

Gör neçə nəsildir, neçə zamandır,
Nəvələr böyüyür babadan ayrı.
Sən yaxşı bilirsən necə yamandır,
Bir ömür yaşamaq obadan ayrı.

Susar intizarla, gözlər inadla,
İstiyə, soyuğa davamlı könlüm.
İlləri, ayları izlər inadla,
Arzulu, nisgilli, hicranlı könlüm.

Dostlar görüşəndə dinər arzular,
– Bu bayram hicranlı son bayramımız.
Hamının qəlbində bircə arzu var:
– Gələn il o tayda bayram edək biz.

Gün dönər, ay dönər, illər dolanar,
İnan ki, qardaşım, toyda, düyündə
Bu həsrət gözlərdə alışıb yanar.
Dil açıb danışar toy da, düyün də.

Bayramlar, illər tək düşər ömürdən,
Fəqət bu bir arzu getməz heç yana.
Hər səhər, hər axşam qarğıyıram mən
Vüsalsız hicrana, sonsuz hicrana.

Nolaydı ey həyat, nolaydı ey kaş,
Gülü budağından qoparmayaydın.
Vüsal badəmizə dolaydı ey kaş,
Həsrətli ömürdən bir yarpaq belə
Qoparıb uzağa aparmayaydın.



## AÇIL, ÜRƏYİM, AÇIL!

*Cənublu qardaşlarıma*

Qara geymisən məgər?
Açıl, ürəyim, açıl!
Günəşin yollarında,
Səhərin qollarında,
Al geyinmiş üfüqlər,
Açıl, ürəyim, açıl!

Bu dünya, bu kainat,
Sonsuz sandığın həyat,
Könül verdiyin cahan
Əzəl başlanğıcından
Sanki bir əfsanədir.
Dünya mehmanxanədir,
Qara geymisən nədir?
Açıl, ürəyim, açıl!

Günəş, Ay, torpaq, səma
Sənə meylini salmış.
Yollarda bənövşələr
Boynubükülü qalmış.
Səni gözlər dan yeri,
Köksü sökülü qalmış.
Səhərin yollarında
Nilufər ol, nilufər,
Qara geymisən məgər?
Açıl, ürəyim, açıl!

Həyat gözəldir, könül,
Sən iç piyalə kimi.
Ayın soyuq üzünü
Bəzəmə halə kimi.

Günəş ol bu dünyada,
Hərarət payla yurda.
Hədərə vermə ömrü,
Hədərə orda, burda.
Ömür elə düşməyən
Tapılmaz dürdanədir.
Qara geymisən nədir?
Açıl, ürəyim, açıl!

Səadətdir yaşamaq,
Qədirbilən ol barı.
Çiçəkli, barlı olsun
Ömür-həyat yolları.
Yoldadır gəlir inan,
Azadlığın baharı.
Azadlıq həsrətində
Nələr səkmisən, nələr,
Qara geymisən məgər?
Açıl, ürəyim, açıl!

Mərdə namərd, namərdə
Mərd olan qoca dünya.
Ürəkliyə ürəksiz,
Diləkliyə diləksiz
Gəl olma bunca, dünya!
Sevincim harda qaldı,
Pərdədi, pərdə, dünya.
Loğmantək saldın niyə,
Şairi dərdə, dünya.
Həyatı nəşə sanmaq
Qəlbimə biganədir.
Dünya bir əfsanədir.
Qara geymisən nədir?
Açıl, ürəyim, açıl!
Açıl, ürəyim, açıl!



## AZADLIQ BAHARI

Bahar gəlir, nə qədər sevimlidir bu bahar,
Azadlıq, bu baharda sənə ümidimiz var!
Gəl, azadlıq baharı, gəz, dolan, ölkəmi sən,
Gör, sənin həsrətində nələr çəkməmiş Vətən.
Gəl, azadlıq baharı, bax bu şəffaf sular da
Oxşamamış qəlbimi öz ahəngdar səsiylə.
Bu yaşıl mənzərələr, bu yarpaqlar, bu güllər.
Oxşamamış qəlbimi ətirli nəfəsiylə.
Gəl, azadlıq baharı, sənsiz ayın işığı,
Günəşli gündüzlərin bu sonsuz yaraşığı,
İnan ki, ürəyimi bir an oxşamamışdır,
Gənclik, sevimli gənclik, inan oxşamamışdır.
Gəl, azadlıq baharı, sənsiz gülərmi çəmən?
Sənsiz qəlbim, düşüncəm durularmı bir anlıq?
Sənsiz nə elim gülər, nə də qəlbim danışar,
Gəl, azadlıq baharı, gəl, gəl, zamandır artıq.
Vətənimin üstünü duman almış, ey bahar!
Qanım kimi qaralmış göylərdəki buludlar.
Baharda yağış yağar, şimşək çaxar həmişə,
Bahar yeni can verər yerə, göyə, günəşə...
Bahardır, şimşək çaxıb, qoy tufan qopsun bir an,
Əsarəti kökündən qoparıb atsın zaman!
Qəlbim deyir, bu bahar səadət gətirəcək,
Elə böyük azadlıq, şən həyat gətirəcək.
Zülmün başının üstə xəzan yeli əsəcək,
Onun murdar əlini ölkəmizdən kəsəcək...
Bahar gəlir, nə qədər sevimlidir bu bahar,
Gəl, azadlıq baharı, sənə ümidimiz var!
İntizar ürəkləri sən sevindir, ey bahar,
Çiçək açsın sinəmdə yatıb qalmış arzular!

*Mart, 1960*

## YADIMA DÜŞDÜ

Yenə vətən həsrəti yaxıb yandırır məni.
Bəzən şirin yuxudan o, oyandırır məni.
Yenə düşdü yadıma uşaqlıq yoldaşlarım.
Mənim məktəb dostlarım, o ilkin sirdaşlarım.
Yenə düşdü yadıma o ellər, o obalar,
Durdu gözüm önündə göz açdığım o diyar.
Yenə düşdü yadıma lal axan Araz mənim,
Durdu gözüm önündə o uşaqlıq məskənim...
Yenə düşdü yadıma şəhərlərim, bağlarım,
Yada meydan oxuyan başı qarlı dağlarım.
Yenə düşdü yadıma bax, o aylı gecələr,
İlk eşqim, ilk sevincim, dil açan düşüncələr.
Yenə düşdü yadıma inildəyən o kaman,
Vətən üfüqlərində sökülən o qızıl dan.
Yenə düşdü yadıma doğma şəhərim mənim
Ümidlərlə açılan işıq səhərim mənim.
Yenə qartallar qopan qayalar düşür yada,
Xalqdan, vətəndən əziz varmı bir şey dünyada?
Yenə də parçaladı qəlbimi acı hicran,
Ürək şikayətlənir yenə də ayrılıqdan.
Qınamayın, yadıma düşdü o yer, o torpaq,
Mübarizə günlərim, əlimdəki o bayraq.
Bu yolda itirdiyim igidlər düşür yada.
Mənim xalqım gör nələr çəkməmişdir dünyada...
İnsan ömrü yazılmış bir kitaba bənzəyir,
Onun səhifələrini varaqladıqca bir-bir,
Həm şirin, həm də acı keçmişlər düşür yada,
Bəzən bir arzu səni yaşadır bu dünyada,
Sinəni iftixarla doldurur dünənki gün,
Dünən səni sabaha çağırır bəzən bu gün.
Yolunu işıqladan o bir mayaq olur, bax,
Yıxıldığın anları sənə xatırladaraq,
Bir də dolaşmamağa çağırır hər an səni,
Gələcəyə çağırır dünənki zaman səni!

*1956*



# Xatırlaram o günləri

## XATIRLARAM O GÜNLƏRİ

Nələr gəldi gör başına,
Düşünməzdim heç bir zaman.
Gözlərində qəm görünür,
Nə tez getdi gözəl dövran?

Xatırlaram o günləri:
Doğma ellər bəzənmişdi.
Elə bil ki, sinən üstə
Ulduz qonub, Ay enmişdi.

O zamanlar keçmişsə də,
Xatirəsi yaşar müdam.
Yenilməzdir haman qüdrət
Haman arzu, haman məram!

İnqilabın şəfəqləri
Dalğalanar yenə bir gün,
Bir al bayraq kimi birdən
Bürüyər ölkəmi bütün.

Səni bir də xoşbəxt görsəm
Gedər ürəyimdən qubar.
Təzələnər o gün həyat,
Gülümsəyər qəmli diyar.

Üzün gülsə bir də sənin
Şairin də gülər üzü,
İlham alıb səadətdən
Vəsf edər şən yurdumuzu.

Nəzər saldım camalına,
Gördüm solmuş çiçək kimi.
Lakin qəmli gözlərində
Ümid parlar şimşək kimi.

Yad önündə diz çökmədin,
Yaşadar o vüqar səni.
Döyüşlərdə qorxutmadı
Nə fəlakət, nə dar səni.

Qəhrəman Təbrizim, sənə
Müjdə verim ilk bahardan,
Bax, ağaran üfüqlər də
Səadətdən verir nişan!

*1948*

## ÜÇ İL BUNDAN ƏVVƏL

Tarixi yenidən varaqlayaraq
Yaxın keçmişimi duydum dərindən.
Yenə hiss elədim qəlbimdə vüqar,
O keçmiş günləri düşündükcə mən.

Üç il bundan əvvəl, xatirimdədir
Ölkəm al geyinib yüksəlirdi, bax,
Ellər bayram deyib şadlıq edərkən,
Komamda əyləşib qarşımda çıraq –

Səadət nəğməsi qoşurdum mən də
Öz ana dilimdə fədailərə.
Görüb qüdrətini ana vətənin
Umud bəsləyirdim doğan səhərə.

Azər oğulları, Azər qızları,
Birlik qazandılar vuruşmalarda.
Nurlu tellərini yaydıqca günəş
Nura qərq olurdu bizim diyar da.



Zülmət bir kölgətək uçub gedərək
Özüylə apardı şərri, fəsadı
Rüşvətin, terrorun və quldurluğun
Silinib bilmərrə qalmadı adı.

Ana körpəsini oxşayan zaman
Onu öz dilində tərənnüm etdi.
Sevib, əzizləyib basdı bağrına,
Qəlbindən illərin kədəri getdi.

Yaxşı yadımdadır, qoca atamı
Başqa bir qocanın təbrik etməsi. –
Əbədi bir həyat duyuram, – dedi, –
Hər an eşidərkən zəfər nəğməsi. –

Haman səadəti, haman ağ günü
A dostlar! yaradaq yenə vətəndə,
Açaq xalqımızın bağlı dilini,
O günə söz qoşum şerimlə mən də.

O şərəfli keçmiş bir həqiqətdir,
Bu gün bizlər üçün olub xatirat.
O günki səadət qayıtsın gərək
Yenidən qurulsun şərəfli həyat.

O günə inanıb yaşayıram mən,
Çün ölməz aruzu, dəyişməz məram.
Bilirəm qəhrəman xalqımız yenə
Şən həyat uğrunda edəcək qiyam.

*1948*

## 1979

1979!
Könül açan.
Ürəklərə günəş kimi işıq saçan,
Əsarətə,
Zindanlara, sürgünlərə,

Zülümlərə,
Ölümlərə,
Atəş açan ilim mənim.
Ey danışan dilim mənim.
1979!
Sənə əhsən! Sənə alqış!
Sən qışınla gətirmisən
Azadlığın baharını.
İstibdadın pəncəsindən qurtarmısan
Doğma Vətən diyarını!
1979!
İstismarın zəncirini
Cəsarətlə vurub, qıran.
İrticanın səngərinə,
İstibdadın peykərinə
Sağalmayan zərbə vuran,
Yara vuran.
Azadlığı vətənində
Axan qanlar bahasına
Yenə quran,
Zəfər ilim,
Vuran əlim,
1979!
Yurdumuza ölüm yayan,
İmperialist xülyasına,
Qəddar şahlıq dünyasına
Sən özün bir ölüm oldun, –
Sən qurtuluş yolum oldun,
Sən qələbə yolum oldun.
1979!
Əlli illik sitəm, zülüm,
Əlli illik zindan, ölüm,
Əlli illik aclıq, möhnət,
Əlli illik hicran, həsrət,
Əlli illik olum-ölüm
Savaşının yekunusan.
1979!



Tarixlərdə zaman-zaman
İnqilablar, qələbələr
İli kimi qalasısan.
İnqilabın qalasısan.
1979!
Vuran əlim,
Deyən dilim,
Zəfər ilim!
1979!

## SEYRİNƏ GƏL TƏBRİZİN

Seyrinə gəl Təbrizin
İnqilab yurdudur o,
Azadlığı yenə də
Sinəsində qurdu o,
Qucağında qurdu o.
Gəlib bax Savalana:
Azadlıq baharından
Yenə gəlmişdir cana.
Günəş, ay zirvəsindən
Bayraq kimi sallanan,
Mayaq kimi sallanan.
Təbrizin seyrinə gəl!
Onun köksünün üstə
İnqilab bayrağı var.
Gözlərində yenə də
Səttarxan növrağı var,
Bağırxan növrağı var.
Ədalət işıq saçan,
İnqilab bayraq açan
İnqilablar qalası, –
O anamın, anası –
Təbrizin seyrinə gəl!
Savalanın, Səhəndin,
Laləli yamacında
Oturub yenə dincəl.
Necə xoşbəxtəm görün,

Təbrizimi bir daha
Yenə gördüm vuruşan.
Azadlığın yolunda,
Ədalətin yolunda
Bir də yanan, alışan...
Vətən oğlu, uzaqdan
Baxma, Təbriz inciyər.
O həsrəti, o dərdi
Çoxdan ləbriz inciyər.
O ah çəksə inan ki,
Qanla dolar ürəyim.
O dərd çəksə, yenə də
Parçalanar diləyim,
Yaralanar ürəyim.
Ala gözləri dolsa
Təbrizin, dolar gözüm.
Titrək dodaqlarımda
Qırılar yenə sözüm.
Anamın anasıdır
Ən şirin laylasıdır
Təbriz mənim, ay ellər,
Eşqimin çırağıdır,
Ömrümün dayağıdır
Təbriz mənim, ay ellər.
Bir el məhəbbətidir,
Ürəyimdə Təbrizim.
İllərin həsrətidir
Ürəyimdə Təbrizim.
Çox gecikmişəm aman,
Hayla məni Təbrizim,
Qoy baş qoyum sinənə,
Çağlayım dönə-dönə,
Gəlim cana, Təbrizim.
Azadlığın yolunda
Səadətin yolunda
Dalğalı dəniz kimi,
Çağla, ana Təbrizim,
Çağla, ana Təbrizim!



## SALAM SƏNƏ EL ADINDAN

*Azərbaycan Demokrat*
*Partiyasının yaranmasının*
*5-ci ildönümü münasibətilə*

Sərin bir yaz səhərində
Sən yarandın bir günəş tək.
Şəfəqinlə isinirdi
Hər bir duyğu, hər bir ürək.
Yarandığın böyük günə
Salam olsun el adından!
Sənin adın yaşayacaq,
Yüksələcək hər bir zaman.
Tapacağıq səadəti,
Sən göstərən yollarda biz,
Azadlığın şüasından
Nur alacaq gözlərimiz.
Qaranlıqlar parçalandı,
Yarandığın al səhərdə.
Sənin sadiq əsgərinəm
Hər bir anda, hər bir yerdə.
Sən əmrini ver, partiya!
Döyüşlərə gedim bu gün.
Həyatım da, varlığım da
Səninkidir, bil ki, bütün.
Həqiqətdən yarandın sən,
Haqq səsidir qadir səsin.
Bizim üçün çox əzizsən,
Qoy bir daha el eşitsin!
Sən bir mayak yaranmısan,
Yollar sənsiz qaranlıqdır.
Sənsiz bizim səadət də,
Azadlıq da bir anlıqdır.
Sən yaranan al səhərdə
Qandallıydı doğma Təbriz.
Çox axmışdı nahaq qanlar,
Səadətdən yox idi iz.

Sən son qoydun o qanlara,
Sən son qoydun fəlakətə.
Sən son qoydun haqsızlığa,
Sən son qoydun əsarətə.
Uçurdun öz əllərinlə
Sən qaranlıq zindanları.
Azadlığa sən çıxardın
Haqq söyləyən insanları.
Sən deyirdin ölkəmizdə
Qələm azad, dil azaddır.
İllər boyu əsarətdə
Qalmış Vətən, el azaddır.
Yarandığın böyük günə
Salam olsun el adından!
Sənin adın yaşayacaq,
Yüksələcək hər bir zaman.
Səadətə yol açacaq,
Qaranlığı yara-yara.
Pozulmazdır sənin andın,
Salam olsun o ilqara!
Sən yenə də yaşayırsan,
Qoy kor olsun qarı düşman,
Bir azadlıq, bir də həyat
Şüarındır hər bir zaman.
Çox qalmamış o günlərə,
Görəcəyik dostu, yarı.
Nyu-Yorka qovacağıq
Amerikalı cəlladları.
Çox qalmamış, yenə Təbriz
Danışacaq öz dilində.
Yad ellərə sürünənlər
Yaşayacaq öz elində.
Çox qalmamış o günlərə,
Vətən yenə güləcəkdir.
Gözün aydın, mənim dostum,
Bu, yaxın bir gələcəkdir.



## VƏTƏNİN ŞƏRƏFLİ OĞLUNA

*Firudin İbrahiminin xatirəsinə*

Dostum, sənin xatirən əbədi munisimdir,
Səni düşündükcə mən, səni andıqca hər an,
İntiqam, iztirab, kin, alov alır könlümü!
Qanım donur elə bil, çırpınır qəlbim haman...

Səninlə biz bir yolun, bir məramın dostuyuq.
Bir suyun, bir torpağın yaratdığı bir insan.
Hər zaman qəlbimiz də, andımız da bir olmuş,
Bir əqidə sahibi, bir düşüncə, bir iman.

Sənin müqəddəs arzun, azadəlik, səadət
Bəxş etmək idi, dostum, bizim doğma ellərə,
İşıqlansın – deyirdin bu səhralar, bu yerlər,
İndi də bu ölkədən günəş doğsun hər yerə.

Dostum, bahar fəslinin aylı bir gecəsində
Sən doğuldun, bu arzu səninlə bir yarandı.
İndi həyat sönsə də, o qaynar gözlərində,
Arzun sönməyən ulduz, ürəyin asimandır.

Körpəykən mərd ananın şirin laylay səsində
Duymuşdun bu arzunun dərin mənasını sən.
Mübarizə yolunda çarpışırdın inadla,
Görürdün iradənin zəfərini o gündən.

İndi sən haradasan? Bu sual çox acıdır,
Qara məzarını örtmüş sənin gülər üzünü?
Həyat var ki, ölümdür; lakin şərəflə ölmək! –
Hər igid, hər qəhrəman arzu edər o günü.

Yox-yox sən ölməmişsən el qəlbində əbədi
Sənin şanlı heykəlin daim vüqarla durur.
Sən xalqımın fəxrisən, yaxşı bil vəfalı dost,
Bu heykəli seyr edir ellər alnında qürur.

Firudin! Bu şərəfli adda bir iftixar var,
Bu adla xalqımız da, ölkəmiz də tanışdır.
Ölüm kor təbiətin qanunudur əzəldən,
Fəqət qəhrəmanlara ölüm yaranmamışdır.

Nə o qaranlıq zindan, nə cansız dar ağacı,
Doğma eldən, vətəndən səni ayırmamış, bil;
Bax, sənin xatirəni duyur yenə ürəklər,
O xatirə heç zaman bizdən ayrılan deyil.

Bir sönməz şüa kimi parlar uca zirvədə –
Sənin o təmiz adın, sənin o pak vicdanın.
Layiqsən gər fəxr edib ellər hər zaman desə:
Sən qəhrəman oğlusan doğma Azərbaycanın!

## BƏZƏN BİR İGİDİN...

*Mətin inqilabçı Xosrov Ruzbehin*
*əziz xatirəsinə*

Bəzən bir igidin, bir sərkərdənin
Əməli bir xalqa min şöhrət verir.
Ölüm qabağında, bircə nəfərin
Vüqarı orduya cəsarət verir.
Bəzən bir qığılcım, bircə parıltı
Köksünü qəflətən yarır zülmətin.
Bəzən bir sənətkar, bir şair, rəssam
Şöhrətinə dönür böyük millətin.
Sən belə insanlar, belə igidlər,
Belə qəhrəmanlar cərgəsindəsən.
Getdiyin yollara çiçəklər səpən
Bir xalqın adından danışıram mən.
Göylərə qaldırdın son ölümünlə,
Vaxtsız ölümünlə doğma bir eli,
Ömrün baharına tez əsdi, heyhat,
Necə də tez əsdi gör xəzan yeli!



Sən həyat eşqilə ölümə getdin,
Belə ölümlərə həyat demişlər.
Qoynunda çox sıxdı zindanlar səni,
Belə əsarətə nicat demişlər!..
Yenə də ölümlər tutmuş hər yeri.
Uçardım o yerə qanadım olsa.
Verərdim ömrümü azadlığa mən,
Verərdim bu yolda min adım olsa.
Gəl bir də vuruşaq həyat eşqinə.
Tökülən qanlardan torpaq yorulmuş...
Dağı dağ üstündən vuran düşmənə
De ki, qarşıdadır ən əsas vuruş!

Dünyada tapan da, itirən də var,
Uduzan da olur, udan da olur.
Mənfəət gəzənlər, nəf axtaranlar
Bizim dünyamıza ağır yük olur.
Biz xeyir gəzmədik öz ömrümüzdən,
Öz doğma yurdunu itirən də biz.
Min acı həsrətlə görürəm bəzən,
Boylanır yollara vəfalı Təbriz.
İtirdik səninlə, itirdik, bəli,
Vuruşda dostları biz alay-alay.
Hicran qılınc kimi bölsə də eli,
Araz bu həsrətlə salsa da haray
Kim deyir bu yolda qazanmadıq biz,
Kim deyir ömrümüz uçarı oldu.
Bəlkə gül açmadı məhəbbətimiz,
Ömrümüz azadlıq açarı oldu.
Getməmiş ömrümüz, işimiz hədər,
Bir dağ zirvəsidir əməllərimiz.
Sənin də qoynuna ağ günlər gələr,
Gözlərin dolmasın, yaralı Təbriz.
Dünyanın solmayan bir baharı var,
Ömürdən bircə gün qalarsa belə
Qoy bizi gözləsin yollar, cığırlar,
Azadlıq qovuşar Vətənə, elə.

İtgimiz çox olub, qazancımız az,
Bəlkə də bu yolda öləsiyik biz.
Həyat da, vuruş da itgisiz olmaz,
Vətən qisasını alasıyıq biz.

## BAŞINA DOLANIM

Başına dolanım, dönüm, ey Vətən,
Necə də yormuşdur xəzan, qış səni.
Nələr çəkməmisən bu dünyada sən,
Alsın öz qoynuna nəvaziş səni.

Bizim dağlara da gələcək bahar,
Azadlıq, ağ günlər yan alır sənə.
Tələsir köksünə uçan durnalar,
Alqış o ölməyən həyat eşqinə,

Uzaqdan baxıram həsrət, nigaran,
Ay çıxır axşamdan yolların üstə.
Sənin həsrətinə, qəminə qurban,
Sən məndən qəlbimi, ruhumu istə.

İnan çəkinmədən qalan ömrümü,
Ürəklə atardım ayaqlarına.
Elə istəyintək talan, ömrümü,
Sına mərd oğlunu, qızını sına.

Başına dolanım, dönüm, ey Vətən,
Sənin həsrətinlə çırpınır ürək.
Sənə od axtarıb, alov gəzmişəm,
Ömrü oda verən Prometeytək.

Ölərmi vətənə bağlanan ürək,
Nə qədər sən varsan, deməli varam mən.
Mən ki, pay almışam məhəbbətindən
Deməli xoşbəxtəm, bəxtiyaram mən.



Köksünə can atan pərvanə kimi,
Yandır alovunda, yandır məni sən.
Adın nə şirindir tərənə kimi,
Həyatım, varlığım, ömrüm-günümsən.

## BAXMA

Ürəyim qan ağlar hər səhər-axşam,
Sən həmişə gülən üzümə baxma!
Gözümdə, göz yaşı parlayar müdam,
Sən yanıb alışan gözümə baxma!

Səninlə sakitcə danışan zaman,
Sinəm bir dalğalı ümmandır, ümman.
Ürəyim pərişan, ruhum pərişan,
Sən gülən şerimə, sözümə baxma!

Dərdimi heç zaman üzə vurmaram,
Hər sözü söz edib, sözə vurmaram.
Birimi şişirdib, yüzə vurmaram,
Sən sadə onuma, yüzümə baxma!

Elin sevincidir sərvətim, varım,
Dağı dağ üstünə qoyar qollarım.
Dolaşıq, çarpazdır ömür yollarım,
Sən sadə görünən izimə baxma!

Demə ki, bir səhər ulduzum batar,
Sinəmdə, qəlbimdə min tufan yatar.
Yadları Vətəndən süpürüb atar –
Sən sakit görünən üzümə baxma!

Sonsuz arzulardır qonağım mənim,
Qartallar yurdudur oylağım mənim;
Vətəndən gələcək sorağım mənim,
Sən bəzən ağrıyan dizimə baxma!

*1967*

## İNTİQAM

Vətəndir könlümdə şirin arzular;
Vətəni sevməyən olar zəlil, xar.
Bu odlar ölkəsi, bu Azərbaycan
İgidlər bəsləyib qoynunda hər an.
Dəfələrlə batıb qana bu torpaq,
Təslim olmamışdır yadlara ancaq!
Bu torpaqda ölüb min igid aslan,
Burda can vermədi məgər Səttar xan?
Minbir qanun gördük, minbir hökmran,
Dağılıb talandı saysız xaniman.
Can verdi burada Xiyabanilər,
Zindanlar küncündə mərd Əranilər.
Onlar getdilərsə, əgər cahandan
Tarix yaşadacaq onları hər an,
Yenə pərişandır bacım, qardaşım,
Qana boyanıbdır torpağım, daşım.
Yenə açılıbdır xalqıma zindan,
Can verir namusla hər sevən insan.
Yenə də ellərim çəkilir dara,
Nakam sinələrə vururlar yara.
Səslənir qollarda zülmün zənciri
Nahaq qan boyayıb yenə hər yeri.
Sonsuzdur düşmənə nifrətim mənim,
Yanır şölələnir hiddətim, kinim.
Sən, ey fitnə, fəsad yaradan düşman!
Qoy haqqın səsini eşitsin cahan:
Bu gün vətənimdə inləyən insan
Sabah olmayacaq daha pərişan.
Nə qədər vətənə varsa ülfətim
O qədər düşmənə vardır nifrətim.
Ey tufan eyləyən cəllad, bil bunu,
Sən boğa bilməzsən odlar yurdunu!
Nifrət bəsləyibdir bu torpaq sənə
Bağlıdır xalqımız ana vətənə.



Bunu unutmamış xalqımız ancaq:
O gün ki, yenidən silahlanacaq.
O gün kəsiləcək zalımın əli.
Düşəcək torpağa zülmün heykəli!
Zülmün atəşilə yanan ürəklər
Bu al qan çilənmiş güllər, çiçəklər,
Səttarxandan qalan bu şanlı bayraq,
Şəhidlər yatağı bu qara torpaq,
Qan ləkəsi alıb qaralan dodaq,
Başı əyilməyən hər təpə, hər dağ –
Hamı bir səsiylə deyir – intiqam!
Bu səsdən alıram şerimə ilham.

*1947*

## SƏNİN NƏYİN VAR

*Qəvamüssəltənəyə*

Sən, ey alçaq xain, zülmkar Qəvam!
"Peymanı" pozmağa edibsən iqdam.
Quldur bir dövlətə olubsan qulam
Açıq bir gözüm var, sənin nəyin var?
Həqiqət sözüm var, sənin nəyin var?

Vətən duyğusudur bu duyğularım.
Sonsuz diləyim var, xoş arzularım,
Dağlardan möhkəmdir eşqim, ilqarım.
Gözəl Vətənim var, sənin nəyin var?
Çölüm, çəmənim var, sənin nəyin var?

Zülmət məhv eləməz nur saçan günü,
Yaxındır ölkəmin səadət günü,
Bir aydın səhərdir gecənin sonu...
Cahi-cəlalım var, sənin nəyin var?
Parlaq iqbalım var, sənin nəyin var?

Aslanlar yurdudur şərəfli Təbriz,
İşıqlı umudla yaşayırıq biz,
Həqiqətdən doğmuş şanlı firqəmiz.
Amalım, arzum var, sənin nəyin var?
Xəzansız yazım var, sənin nəyin var?

Xoşdur pərvanəyə odlara yanmaq,
Bizlər pərvanəyik ölkəmiz çıraq.
Səndən cinayətlər qalmışdır ancaq.
Şərəfli xalqım var, sənin nəyin var?
Hüququm, haqqım var, sənin nəyin var?

Sən öz vətənini özgələrə sat,
Nə qədər bacarsan xalqını aldat.
Mənimdir gələcək adlı xoş həyat.
Şanlı bayrağım var, sənin nəyin var?
Öz əməl bağım var, sənin nəyin var?

*Təbriz, 1946*

## BOĞAR DALĞASINDA SƏNİ İNQİLAB

Sən, ey insanlığın quduz düşməni!
Hələ qurumamış əllərində qan.
Unutma, yaxşı bil odlar Vətəni
Bir gün yapışacaq sənin yaxandan!

Bilmədin şərafət nədir dünyada,
Nə edib günahsız analar sənə,
Əsla acımadın, aha, fəryada.
Etdiyin sitəmdən doymadın yenə.

Ey qaranlıq gecə, "boğdun" gündüzü –
O gözəl həyatdan qoymadın əsər...
Nə aman sədası, nə fəryad sözü
O daş ürəyinə etmədi əsər.



Yaratdın ölkəmdə facıə, dəhşət,
Çirkin əməlindən çəkinib utan!
Coşur könlümdəki bu dərya nifrət
Boğacaqdır səni kinim bir zaman!

Etdin quduz kimi hər yana hücum,
Doğdu əməlindən fellər, fitnələr.
Həyat olmamışdır ölümə məhkum
Hər gecədən doğar parlaq bir səhər.

Gözlə o günü ki, zaman dəyişər,
Səadət günəşi doğar elimə;
Dedim hər gecədən doğar bir səhər
Məhkum olmayacaq həyat ölümə.

Ölməz tarix boyu sənətim, dilim
Yanıb kül olsa da min dəftər, kitab,
Silaha əl atar yenidən elim,
Boğar dalğasında səni inqilab!..

*1947*

## İNANIRAM O PARLAQ GÜNƏ

Sən ey sərxoş xain yaxşı bir dayan,
Tutacaq ədalət sənə bir divan!
Ölkəmi boyadın yetər al qana.
Bala firqətiylə sızlayır ana.
Yetər dağıtdığın xanimanları,
Xain, bağladığın peymanlar[1] hanı
Sənin də kədərə dönər sevincin
Söylə bu azğınlıq neçindir neçin?
Sən İran mülkünü dollara satdın,
Ellərin ahını göyə ucaltdın.

---
[1] Müqavilə mənasında işlənmişdir.

Qanla qızarıbdır vətən torpağı,
Zülm ilə xalqıma çəkibsən dağı.
Tapdadın xalqımın haqqın, əməlin,
Cəllad, bir yaxşı bax qanlıdır əlin.
Verdin əllərimi düşmən önünə
Qara pərdə çəkdin işıq gününə.
Xalqımın əməli bilirəm haqdır,
Haqqın al günəşi parlayacaqdır!!!
Bil ki, ölməyəcək ana dilimiz
Nə qədər yaşayır şanlı firqəmiz!
Onda ki, xalqımız edəcək qiyam –
O gün biləcəksən nədir intiqam!
Vətəndir dilimin mehriban sözü
Azəri xalqının açıqdır gözü.
Gər ölsə bu yolda bizim igidlər
Onların qanilə çiçəklər bitər.
Ölərmi bir xalqın tarixi, dili?
Yox, yenə qəhrəman Azəri eli
Azad həyat qurub dincələcəkdir,
Vətənin nicatı tez gələcəkdir!
O yenə çıxacaq bir gün ağ günə.
Mən ki, inanıram o parlaq günə!..

*1948*

## HƏR KƏSİN HƏYATDA BİR DİLƏYİ VAR

Nələr düşünürəm, nələr anıram?
Nədir cəlb eləyən fikrimi bu an?
Dolanır başıma yenə asiman,
Mehriban bu səsi yaxşı tanıram.

Çağırır, çağırır analar məni,
Çatır o fəryadlar ağ buludlara,
Yenə qan boyanan o çöl, o səhra
Hər zaman çağırır o diyar məni.



Duydum cənubdakı sərt ruzgarı,
Komandan ucalan acı naləni,
Gəl deyib, gəl deyib çağırır məni
Xalqımın tarixi yadigarları.

Dinlirəm Babəkin qəlb arzusunu,
Əbədi yaşayan qəzəbini mən.
Aruzu çürümür. çürüyür kəfən –
Bir an unutmadım onun sözünü.

Babalar dilindən eşitmişəm mən
Ölərkən söyləmiş o böyük insan –
Əgər qan yağdırsa sərkəş asiman
Həqiqət günəşi qaralmaz bir an.

Keçir xatirələr, qanlı səhfələr –
Tarix vərəqləri gözüm önündən,
Keçmişə qayıtmaq istəmirəm mən
Lakin unudulmur şərəfli günlər.

İradə pozulmur, ölmür arzular
Yaşayır əsrlər boyu könüldə.
Məsəldir deyərlər bu bizim eldə
Hər kəsin həyatda bir diləyi var.

Əzizdir o dilək hər şeydən ona,
Verir həyatını bu yolda insan.
Sənin də xatirin istəyən zaman
Al mənim qəlbimi, al, dostum, sına!

Mənim də bir arzum, bir məqsədim var
Ona bağlanmışam əzəl günümdən,
Bütün varlığımı alsalar məndən
O canla yaranmış canla da çıxar.

Bu məqsəd, bu arzu Vətəndir, Vətən –
Vətən səadəti, Vətən nicatı.
Çün ondan almışam ömrü, həyatı
Odur məni indi çox düşündürən.

Əzəldən bu adın vurğunuyam mən
Başına dolanan pərvanəsiyəm,
Əgər o olmasa mən bir heç nəyəm,
Çün ona bağladım həyatımı mən.

*1948*

## OLACAQ ÖLKƏMİZ YENƏ GÜLŞƏN

Qızarar gül kimi şəfəq bir gün
Alar əflak onda nurü-ziya.
Bürünər çün Vətən şəfəqlə bütün
Qalmaz heç zülmdən nişan əsla.
Bayrağım asimana yüksələcək
Gözlə, gözlə, Qəvam! o gün gələcək!

Olacaq ölkəmiz yenə gülşən,
O saralmış üzü işıqlanacaq.
Azəristan kimi şərəfli Vətən
El gücündən yenə nicat alacaq.
Səni[1] xalqım o gün ki. xar edəcək
O zaman ölkəm iftixar edəcək.

Xalqımız qeydi-bəndü zənciri
Qıracaqdır cahanda qüdrət ilə.
Vətən uğrunda can verən nəfəri
Yaşadar yurdumuz şərafət ilə.
Ellər öz intiqamını alacaq,
Vətənim onda kamiran olacaq.

Tökülən gül kimi təmiz qanlar
Yaradıbdır şərəfli abidələr.
Tarixə bu mübariz insanlar
Yazdılar qanlarıyla xatirələr.

[1] Qəvaməssəltənəyə işarədir.



Çünki ölməz şərəfli bir amal
Tarixin ölməsi mahaldı, mahal.
Xalqımın məskəni olar dağlar
Vətən azadlıq almayınca inan.
Şairin də ürəkdə həsrəti var –
Rahat olmaz dəyişməyincə zaman.
Bizi qorxutmayır ölüm, zindan,
Ölməyir çünki haqq sevən insan.

*1947*

## TİMSAHIN GÖZ YAŞLARI

*1945-ci ildə Cənubi Azərbaycanda Milli hökumət qurulmuşdu. Bir il sonra, həmən gündə İranın irticaçı qoşunu Cənubi Azərbaycana hücum edib orada Milli hökuməti dağıtmış, qəhrəman ana və bacılarımızı öldürmüşdü. Xalqımız hər il "21 Azər" gününü ən böyük bayram kimi, İran hökuməti isə bu günü "Qələbə" günü kimi qeyd edib, "şəhidlərini" yad edir.*

Qatil öldürdüyünə oturub ağlayarmış,
Hələ utanmayaraq bir yas da saxlayarmış.
İran, Azərbaycanı qılıncdan keçirərək,
Susdurmuş ölkəmizdə min bir döyünən ürək,
Qəhrəman oğulları boğazlarından asmış,
Kölgə kimi Vətəni qarış-qarış dolaşmış,
Obaları dağıtmış, qarət etmiş sərasər.
Əzablardan kənarda qalmamışdır bir nəfər,
Batırmışdır elimi yenə qara günlərə,
Taxmışdır körpələri parlayan süngülərə.
Qan çiləmiş atamın ağarmış saçlarına,
Tutub şallaq vurdurmuş qoca vaxtında ona.
İndi o timsah kimi göz yaşları tökür, bax.
O, qarət günlərindən min bir dastan açaraq,
Budur, ağız dolusu şəhidlərdən danışır.

Onun cəllad ürəyi sanki yanıb alışır
Vətənimin, elimin bu dözülməz halına,
Düşmən yanır elə bil düşmənin əhvalına.
Azərbaycan adına bir tərano oxuyur,
O, böhtan atır bizə, min bir yalan toxuyur.
Deyir: İran mülküdür Azərbaycan torpağı,
Yenilməz bir qayadır hər təpəsi, hər dağı.
Lakin demir, zamandır yaralıdır ölkəmiz.
İntizarla ömr edir başı bəlalı Təbriz.
O demir, nələr çəkir yadlardan Azərbaycan,
Yadellilər xalqıma ölkəmdə vermir aman.
Qatil ağız dolusu ölənlərdən danışır,
O bilmir anaların qəlbi bundan alışır.
Düşmən, eşit, qatili yaxşı tanıyar ana.
Danışdığın bu sözlər yaddır Azərbaycana.
Yaxşı bax, anaların qaşı çatılmış bu gün,
Düşüncələr qəlbləri didib-dağıdır bütün.
Qatil, ürəklərimiz çoxdandır ki, dardadır,
Hamı nəsə axtarır, gözlər intizardadır,
Uşaqlar itirdiyi ağ günləri gəzir, bax,
Nahaq axan qanları udan bu qanlı torpaq,
Hər gün yeni bir çiçək yetirir sinəsində.
Min həyəcan duyulur anaların səsində!
Yox, qatil, əməllərin çıxmamış yadımızdan,
Sən bizim körpələri beşikdə boğan zaman
Əllərin qana batmış, tanıyır ellər səni,
Hələ tanıyacaqdır gələn nəsillər səni!
Yazmışdır sinəsinə əməlini bu torpaq,
Onu əsrlər boyu özündə saxlayacaq.
Bax, cəllad, Təbriz bu gün qara şal bağlamışdır,
Azərdə ölənlərə özü yas saxlamışdır.
Çömçə qazandan isti çıxa bilməz, bil ki, sən,
Qara əməllərini unutmayacaq Vətən!

*21 Azər, 1956*



## ANA

Təbriz kədərliydi, sən ağlayırdın,
Gecəydi biz səndən ayrılan zaman,
Pərişan görkəmin, o son sözlərin
Bir an xatirimdən çıxmamış, inan.

Adını dilimə gətirəndə mən,
Sanki, alov alır dodaqlarımı.
Yaxın gəl, yaxın gəl öpüm üzündən,
Öpüm rəngi qaçmış yanaqlarını.

Elə məlul-məlul baxma üzümə!
Baxışın qəlbimə od saçır sənin.
Sən yalqız deyilsən, sıxma qəlbini,
Böyük bir xalqın var, böyük vətənin.

O xalqın, o elin qızısan sən də,
Onun qüdrəti də, şöhrəti də var.
Qəhrəman ölkəmiz sarsılmamışdır,
Soyub taladısa onu yağılar.

Bilirəm, çox sıxır səni ayrılıq,
Əsarət dünyası başına dardır.
Lakin unutma ki, hər bir gecənin
Min bir şüa saçan gündüzü vardır.

Əlimdən nə gəlir? Demə bir daha,
Demə ki, qocayam, saçlarım dümağ.
Vətən öz qəhrəman oğlu, qızını
Hər zaman, hər zaman gənc saxlayacaq.

Alnının xətləri, bəyaz saçların
Keçmiş həyatından bir yadigardır.
Hörmət o saçlara, nifrət keçmişə,
Bu günün öz adı, mənası vardır.

Qalx ana, qalx ana! səni döyüşə
Çağıran öz qızın, öz vətənindir.
Bax, yanır odlarda odlar diyarı,
Bu Vətən, bu torpaq, bu el sənindir!

*1949*

## DANIŞIR ANAM

Sən qürbətdə qalalı,
Qürbəti sevmişəm mən.
İndi əvvəlkilər tək
Haray çəkib demirəm:
Haray qürbət əlindən...
Sən gedəli vətənim,
Mənə doğma torpağım,
Qürbət olmuşdur inan.
Sən məndən uzaqdasan.
Elə bil ki, səninlə
İtirdim rahatlığı,
İtirdim səadəti,
Qəlbimdəki arzular
Köçüb getdi səninlə,
Ürək səni arzular.
Sənsiz doğma diyarım,
Sənsiz yaşıl çəmənim
Gözümə boz görünür.
Xəyalım gecə yarı
Otağına sürünür,
Səni axtarır, gəzir...
Elə bil ki, gəncliyim,
Uçub getdi səninlə.
Dinlə, qəlbimi dinlə.
Qəlbim uzaqlardadır.
Ömr etdiyin o diyar
Mənə doğma, əzizdir.
Bilirəm o yerlərin
İşıq saçan göyləri
Günəşdən də təmizdir.



Dünyanın hər yerində
Yaşamış olsan da sən
O yeri xəyalıma
Məskən eyləmişəm mən.
Çünki öz vətənimdə
Çölümdə, çəmənimdə
Sənsiz qərib kimiyəm.
Yalqızam göylərdəki
Ulduz kimi gecələr.
Yalqızam gecə yarı,
Yalqızam axşam-səhər.
Sən qürbətdə qalalı,
Qürbət həsrətindəyəm.
Sənə illərdən bəri
Qürbət vətən olalı
Qürbət niyyətindəyəm.
Heç olmasa sən inan,
Yaşadığın o məkan
Ömrüm, həyatım qədər
Əzizdir, qiymətlidir,
Sənsiz çəkmişəm nələr...
Sən qürbətdə qalalı,
Sənə illərdən bəri,
Qürbət vətən olalı
Qürbəti sevmişəm mən.
İndi əvvəlkilər tək
Haray çəkib demirəm:
Haray qürbət əlindən...

## O GÖYLƏRİN ALTINDA

O göylərin altında səni tərk edən zaman,
Tələsik addımlarla mən çıxanda otaqdan,
Doluxsundun, o zaman beşcə yaşın var idi.
Üzünə sel tək axan odlu göz yaşlarıydı.
Beş yaş hara, sən hara, bu qədər əzab hara?
Sən hara, körpə quzum, sonsuz iztirab hara?

Düşünürdüm, haraya, neçə vaxtlıq gedirdim,
Doğma yurdu, anamı, səni, onu
Bəlkə də əbədi tərk edirdim.
Kim bilirdi, nə zaman qayıdacaqdır bacın?
Kim əlacın eyləmiş, ayrılığın əlacın?
Tale bəlkə əbədi məni sizdən ayırdı?
– Bəsdir, get – deyə, anam sonsuz təlaş içində
Hey anları sayırdı.
Dayanıb heykəl kimi sizə, baxırdım sizə,
Baxırdım pəncərədən doluxsunmuş Təbrizə.
O mənə sanki, "getmə", "getmə" – deyirdi, inan,
"Səni öldürəcəklər" deyirdiz bir ağızdan.
Nə etdimsə, gözümdən bir gilə yaş çıxmadı,
Sonsuz dərdim, kədərim
Nədən ötrü, bilmirəm, divarları yıxmadı.
Bahar harda gəzirdi,
Qış idi, qarlı bir qış.
Görürdüm ki, nə sizdə, nə də ki, etiraza
Məndə taqət qalmamış.
Siz küçədə qaldınız, küçə... bir dəstə uşaq,
Gedirdi ayaqlarım sözümə baxmayaraq.
Göz yaşları qəlbimə, ürəyimə axdı hey,
Özüm getdim, gözlərim sizə sarı baxdı hey.
Siz unudub hər şeyi, məni düşünür, məni,
Mənsə sizi düşünür, düşünürdüm ölkəni.
Dönüb son dəfə baxdım, bu dərd necə ağırdı,
Küçənin divarına söykənib qalmış anam,
Getdiyim daş yollara min həsrətlə baxırdı.
Elə bil ki, bilirdi hicran uzun çəkəcək,
Sinəsində aramsız vururdu o gün ürək.
Bəlkə görüşmədik heç, düşünürdün o zaman,
Biz yenə görüşərik, uzun çəksə də hicran.
Hər şey dəyişib dönür, sən ki, yaxşı bilirsən,
Səni nə sakit edir, nə də aldadıram mən.
Özün yaxşı bilirsən, həyat, zaman dəyişir,
Təkcə həyat, zaman yox, həm də insan dəyişir.
Olanlar yox olanda, yoxlar dönüb var olur,
Səhər açılan çiçək axşam düşəndə solur.



Zaman dəyişir, bəli, hər şey dönüb dəyişir,
Günəş batır hər axşam, səhər yanıb alışır...
İllər arxada qalmış, iyirmi beş yaşın olur.
Bacınsa qırxı ötmüş, gənclik saralıb-solur.
Vətən yenə güləcək, bunu bir vədə sanma,
Bahar gəlir, qardaşım, boş sözlərə inanma!
Sən bizim əməlləri nə mənasız, nə boş bil.
İnanma düşmənlərə,
Gördüyümüz o işlər elə xəyanət deyil.
Biz vətənpərvərlərik, xainlər danır bizi,,
Özü satqın olanlar, bil, satqın sanır bizi.
Bizim məqsədlərimiz:
Elə sonsuz səadət,
Elə ağ gün diləmək,
Bir də azadlıq olmuş,
Bu məqsədlər yolunda, karvanımız, qardaşım,
Nə dönmüş, nə yorulmuş.
Bu yolda milyon ömür, milyon həyat qoymuşuq,
Mənim qol-qanadımtək milyon qanad qoymuşuq.
Mən öz əməllərimlə yaratmışam bir həyat,
Yeni ömür dastanı, unudulmaz milyon ad.
Biz qalxıb yüksəlmişik, düşmən isə alçalır,
Gecə köçmək üzrədir, bil, səhərə az qalır.
O göylərin altında oyanırsan hər səhər,
Anam öz yatağından sənlə qalxır bərabər,
Anam oxşayıb səni, öpərək yola salır,
Sonra tanış otaqda yenə də tənha qalır.
Nə etsin yazıq qadın,
İtirmişdir bu yolda atamı da, məni də.
Səni qoruyur indi,
Bilirəm doğmaları itirmək çox çətindi.
Düşünürəm, bilirəm nələr düşünür anam,
Ötən ağır zamanlar çıxmamışdır yadından.
O, düşünür atamla son görüşü, son günü,
Ürəyində hələ də bağlı qalmış düyünü...
Yadında saxlamışdır o, dərdi, kədəri də,
Atamdan ayrıldığı o qanlı səhəri də.
Onun çəkdiklərini yazsan bir kitab dolar,

Danışsan həyatını, yazsan bir tarix olar.
Axşam o gedən oldu, geri dönmədi atam,
Bu dərdlərin əlində nələr çəkmədi anam.
O, azadlıq istədi,
Sürgün oldu qisməti.
Səadət carçısının
Bu oldu səadəti.
O cavan idi hələ,
Qırx yaşı olmamışdı.
Üzündəki təravət saralıb-solmamışdı.
Sizi yalqız böyütdü zərif, zəif bir insan,
Yıxılmadı, dönmədi, əyilmədi heç zaman.
Sizi yaşatdı anam, itirdisə də onu;
İtirdisə əvəzsiz olan ömür dostunu.
Qapısını yağılar döydü bəlkə min kərə,
Vuruşdu, qalib gəldi bütün çətinliklərə.
Aparıb-gətirdilər, tutub saxladılar da,
Özü heç ağlamadı, ona ağladılar da.
Belə olur həmişə igidlərin anası,
Belə olur bu odlar ellərinin sonası.
Hər kəsin bu dünyada bircə həyat yolu var,
Şərəflə ömür sürür elə sadiq olanlar.
Anam bu yola sadiq, atam vuruşan əsgər,
Həyatımı mənim də bilmək istəsən əgər,
Sədaqətlə, qardaşım, bu yolda çalışmışam.
Sönməmişəm bir an da, məşəltək alışmışam.
Yabanı oğlar üstə cığırlar açım, deyə,
Qatı qaranlıqlara işıqlar saçım, deyə,
Yaşamaq istəyirəm alışıb-yanmaq üçün,
Bilirsən, doğulmuşam yanıb odlanmaq üçün.
O göylərin altından uzaqda olsam da mən,
Vətən səadətiçün vuruşmuşam ürəkdən.
Fəqət sən o göylərin, səmanın altındasan,
Sən tanış küçələrdən ötüb keçdiyin zaman,
Xatırla tarixinin şanlı səhifəsini.
Min doqquz yüz qırx beşi...
O vuruş səhnəsini.
Unutma bircə şeyi, bir zamanlar olacaq,



Azadlığın yolunda bəlkə qanlar olacaq.
Yaşımın yarısıdır indi sənin də yaşın,
Vətən üçün, el üçün indi çatılsın qaşın.
Bu yolda ölənləri, itənləri düşün sən,
Atamı xatirinə gətir, məni düşün sən.
Mən sən yaşda olanda üsyan deyə bağırdım,
Elləri azadlığa, ağ günlərə çağırdım.
O zaman mənə, indi sənə göz dikmiş Vətən,
Bil ki, bizə həmişə, yenə göz dikmiş Vətən.
Demirəm qocalmışam, nəfəsim buzlar qırar,
Önümdə düşmənlərim yenə köməksiz durar.
Biləyim nazik isə, dərdim ağırdır, ağır,
Sən məni, köməyinə gələrəm, yenə çağır.
Cavanların içində yeni bir cavanam mən,
Cavanlığın özünə çünki pasibanam mən.
Yadımdadır ayrılıq, yadımdadır göz yaşın,
Yaşımın yarısıdır, qardaş, sənin də yaşın.
Gələcəyin, ağ günün, həyatın özü səndə,
Xalqımın, vətənimin, elimin gözü səndə.
Yeniliyə, həyata, gələcəyə dayaqsan,
Həyatda əbədi yox, adi qonaqdır insan,
Fəqət qalır dünyada yaxşı ad, yaxşı əməl.
Vətənini, elini düşün hər şeydən əvvəl.
Dağ dağa qovuşmasa, el elinə qovuşar,
O göylərin altında sənin çox dostların var.
Biz səninlə yenə də görüşərik, inan sən.
Bunu özgə söyləmir, qardaş, mən deyirəm, mən.
Hicran çatmış yükünü, vüsal yenə qovuşar,
Qış yığışıb köçməyə, yenə gələcək bahar.
Vətən yenə bizimlə ağ günlərə çıxacaq.
Tanış eyvandan bizə, ay, ötən günlər kimi,
Min həsrətlə baxacaq.
Anam samovar qoyub, çayı dəmləyəcəkdir,
O göylərin altına ağ günlər gələcəkdir.
Biz çox uzaqlarda da yaşadıq elimizdə...
Biz vətənpərvərlərik, vətəndir dilimizdə.
O göylərin altında büsat quracağıq biz,
Öz bayram paltarında görünəcəkdir Təbriz.

## BAYATILAR

Gözəlim ana Təbriz,
Yaralı sona Təbriz,
Sənsiz keçən günlərim
Gələrmi sana, Təbriz?

Sən gözümün işığı,
Ömrümün yaraşığı,
Şimşək qanadlı tərlan,
Zülmətlər üstə şığı.

Gecə-gündüz oyaqsan,
Ellərimə dayaqsan,
Azadlığın yolunda
Sən qızıl bir mayaksan.

Ağzımızın dadısan,
Qəlbimizin odusan,
Bisütunlar uçuran
Azadlıq Fərhadısan.

Vüqarındır Savalan,
Yaramızdan hov alan,
Səttarxanı yada sal,
Tərlan kimi havalan.

Al qanın Araz oldu,
Qəlbin yanar saz oldu.
Buludların dağıldı,
Göylərin ayaz oldu.

Bakı Təbrizdən uzaq,
Oldunuz bizdən uzaq.
İnsan necə ömr edər
Könüldən, gözdən uzaq.

Əzizim, yaxşı dolan,
Həmişə yaxşı dolan.



Neçə ömür yaşayır
Özündən sonra insan.

Əzizim, izim qalar,
Yollarda izim qalar,
Sənin qara gözündə
Həmişə gözüm qalar.

Əzizim, dağlar üstə,
Dağ vurdun dağlar üstə,
Bülbül olub uçaydıq
Təbrizdə bağlar üstə.

Əzizim aşıb-daşar,
Sel gəlib aşıb daşar.
Dağ-dağa qovuşmasa,
El-elinə qovuşar.

Səhər güllər açılır,
Günəş gülə saçılır.
Desələr, inanma gəl –
Sənsiz könlüm açılır.

Bizim ellər gülüsən,
İncə bellər gülüsən.
Sənə gül necə deyim,
Sən ki, güllər gülüsən.

Mən öləndə ağlama,
Ürəyimi dağlama,
Dünyadan doymamışam,
Gözlərimi bağlama.

Əzizim, yaman oldum,
Yaxşıkən yaman oldum.
Həmişə yanan idim,
Yenə də yanan oldum.

Əzizim, bir dənəsən,
Yaqutsan, dürdanəsən,
Mənimçün bir dənəydin,
Yenə də bir dənəsən.

Təbriz, Zəncan, Marağa,
Salmış məni sorağa.
Yaxınlıq arzuladım,
Niyə düşdüm uzağa.

Gözündə var xumarlıq,
Sənsən qəlbimə varlıq.
Sənsiz hər yerdə dünya
Edər başıma darlıq.

Hər dərdin dərmanı var,
Hər qəlbin sultanı var.
Öldürmə aşiqini
Hər qanın bir qanı var.

Dağlar başı dumandır,
Uzaq durma, amandır,
Ayrılığın bir yana
Vəslin daha yamandır.

Kaş axan göz yaşıtək,
Səni unutsun ürək.
Gözəllərin vəfası,
Rəhmi bu imiş demək.

Səni gözlər gözlərim,
Ürəkdə çox sözlərim.
Səni görəndən bəri
Neçin ağlar gözlərim.

Gəl, ey sabah yeli sən,
Uçum qanadında mən.
Görüb sevəndən bəri
Taqət uçmuş dizimdən.



Gənclik solmaz bahardır,
Onun min hüsnü vardır.
Cavan ikən qocaldım,
Dünya başıma dardır.

Arzular, ay arzular,
Qəlbimdə çox arzu var.
Qara günlü ürəyim
Sənə ağ gün arzular.

Hava qaranlıqlaşır,
Dərdim başımdan aşır.
Yarım, səni görəndə
Ağlım, fikrim dolaşır.

Əzizim, qıyqacısan,
Həm şirin, həm acısan.
Həm sevgim, məhəbbətim,
Həm başımın tacısan.

Əzizinəm bir də bax,
Ömür keçir bir də bax.
Həyat axır Kür kimi,
Ağ saçına Kürdə bax.

Əzizim baxdı getdi,
Nur kimi axdı getdi.
Mən ona neyləmişdim
Könlümü yaxdı getdi.

Sevgisiz ömür yarı,
Sənmisən ömür yarı
Çağır görüşə gəlim
Bu yarı yoldan barı.

Sən söhbətim, sən sazım,
Sən baharım, sən yazım,
Sən poz hicran sözünü
Vüsal sözünü yazım.

Toy ola, düyün ola,
Sabah yox, bu gün ola.
Kaş insan səadəti
Hər şeydən üstün ola.

Bizi yada salan var,
Qara gözü dolan var,
Açıl, vətən yolları,
Gözü yolda qalan var.

## QƏZƏLLƏR

Gözlər yoruldu, harda qalıb bəs səhər, hanı?
Qasid qayıtdı gəldi, Vətəndən xəbər hanı?
Zülmət gecə yetər bu qədər nalə etdiyim,
Bu nalənin özündə olan bir əsər hanı?
Saqi, dayanma sarsılıram bir şərab ver!
Hicran qəmindən odlu olan bir kədər hanı?
Az gül sən ahu-zarıma, ey bivəfa təbib,
Bəs vəd etdiyin mənə o vədələr hanı?
Qanlar töküldü neçə dəfə etdik inqilab,
Axır zəfər çalındı, soruş bəs zəfər hanı?
Biz işlədik, biz əhdimizə eylədik vəfa,
Lakin işin özündən elə bir səmər hanı?
Soldu çəmən, tükəndi ömür, yandı el-oba,
Artıq cavab vermək üçün bir nəfər hanı?

Dildə, ürəkdə bir də səni yad etmərəm,
Bir də könül evin belə bərbad etmərəm.
Getdin yolun uğurlu, geri dönmə bir daha.
Bir də xəyalın ilə könül şad etmərəm.
Heyhat, gör xəyalın ilə göz dikəm yola,
Yox-yox bu dərdi qəlbimə icad etmərəm.
Biganə etmişəm gözümü qanlı yaşlara,
Sən tək vəfasızı daha naşad etmərəm.



Bir də gözüm o gözlərinə gər sataşsa, bil
Eşqin əlində ah ilə fəryad etmərəm,
Bir də təbəssümün üzünə xor baxam əgər,
Hicran qəmində hər gecə bidad etmərəm.
Dərdin əlacını araram tək özüm, fəqət,
Biganədən bu dərdimə imdad etmərəm.
Eldə vəfalı tək tanınan qəm ərusuna,
Sən tək vəfasızı daha damad etmərəm.
Abad olan könül evini, öz əlimlə bil,
Biganələrlə bir daha bərbad etmərəm.

Hər qədər səslədim yenə canan eşitmədi.
Etdim yanında nalə və əfqan eşitmədi.
Durdum yol üstə hər səhər-axşam görüm deyə
Durdum həmişə sakiti pünhan eşitmədi.
Yandım amandı, getmə, ayaq saxla bircə an,
Mən daima dedim, o sa, bir an eşitmədi.
Hicrin əlində odlu bulud tək çaxanda mən
Göylər alışdı ol məhi taban eşitmədi.
Hər dərdə var tabım, dözərəm vəslin eşqinə,
Səd heyf arzumu acı hicran eşitmədi.
İllər əlində sındı bu şümşad qamətim
Sındı, yıxıldı sərvü xuraman eşitmədi.
Dostlar deyəndə sizdə çatışmır əməl və iş,
Düşmən atanda şairə böhtan eşitmədi.
Fəryad eylədim hanı azadlığım mənim?
Səs düşdü hər yerə fəqət İran eşitmədi.

Təbrizə həsrət qalan bir şairi divanəyəm,
Kaş gəzsin bircə gün ellərdə divanım mənim.
Uçdu qəlbimdən bütün vəslin, vüsalın həsrəti,
Onda ki, girdi qapımdan şəbi hicranım mənim.
Sorma məndən bir daha aşiqlərin sevdasını,
Yandırır bil sinəmi bir dərdi pünhanım mənim.
Parla ey azadlığın nuru, gəl ey sübh ümidim
Bir əsirdir yadlara işıqlı dövranım mənim.
Yandı şair onda ki, yandı könül, yandı bu can,
Onda ki, düşmənlərə dost oldu cananım mənim.

Qışdan yoruldu qəlbim, kaş ki bahar olaydı,
Göydən bulud köçəydi, gün aşkar olaydı.
Baş qaldıraydı yerdən, güllər yenə çəməndə,
Bülbüldə gülə qarşı min etibar olaydı.
Yurdumun göylərində yanaydı min-min ulduz,
Ay göyləri gəzən bir nazlı nigar olaydı.
Ey kaş, səs verəydi bir də səsimə dağlar
Quşlar köçüb gələydi, eldə bahar olaydı.
Ey kaş, ney səsindən çöllər dilə gələydi,
Dost məclisində şadlıq, toy bərqərar olaydı.
Ey kaş, gözlərimdə bir də güləydi gözlər,
Üzlər aləmdən ayrı bir gülüzar olaydı.
Sus intizar qəlbim, dinlə, budur gələn var,
Ey kaş, bu gəlişlə nazəndə yar olaydı.
Təbriz olaydı, dostlar, bir məclisi şəbana
Bir mən, bir yanan şam, bir Şəhriyar olaydı.

## ÖLMƏZ QƏHRƏMAN

(*Poema*)

### Proloq

Uzun qış gecəsi, aylı bir gecə...
Yenə böyük arzu, böyük düşüncə
Budur uzaqlara aparır məni,
Əmr edir söyləyim bir faciəni.
Mənimlə yaranmış, dostlar, bu adət:
Açıq olmalıdır sözündə insan.
Könül kimə qarşı bəslərsə nifrət
O hissi söylərəm ona açıqdan.
Qanlı qanunlara üsyan yaratmaq!
Mənim məramımın şüarıdır bu,
Mənimlə yaşayır bu fikir, duyğu,
Bu hissdir oxşayan qəlbimi ancaq.



Günahsız bir qızın həyatına mən,
Dostlar, acıyıram hər an ürəkdən.
Onun varlığını tapdayanlara
Əlimlə qazıram qaranlıq məzar,
İnsanlıqdan uzaq bu insanlara
Qələmimsə ölüm hökmünü yazar.
Hansı insaniyyət qanunlarında
Vətənpərvərlərə ölüm yazılmış?
Ancaq Ağ evlərin salonlarında
Bəşərə qara gün, zülüm yazılmış.
Oxucum, uydurma deyil bu dastan
Canlı şahid kimi danışım sənə –
Qanlı cinayəti. Deyək hər zaman:
Ölüm! Orta əsrin vəhşilərinə!

* * *

Sümərin kəndidir. Yanır çıraqlar,
Əsir şiddət ilə bayırda ruzgar.
Yer üzü qar ilə örtülmüş tamam,
Külək qapıları hey döyür müdam.
Ulduzlar göz vurur, gözdən itərək
Üfüqdən boylanır, ay bir gəlin tək.
Bir an işıq saçır qarlar üstünə.
Sonra buludlarda qeyb olur yenə...
Çaqqallar ulaşır dağlarda bəzən...
Axan buludlardan əsən küləkdən –
Dəyişir şəklini hər an təbiət,
Sanki dəyişməkçin yoxdur nəhayət.

* * *

Budur kənd klubu, yanır çıraqlar,
Əsir şiddət ilə bayırda ruzgar.
Təbiət bayırda sərtdirsə bu dəm,
Bu yerdə, salonda başqadır aləm.

Peç yanır, qızışır salon anbaan.
Burda uşaq kimi sevinir insan.
Budur gözləyirlər salondakılar...
Üzlərdən duyulur ağır intizar.
İclası açaraq sədr bu zaman,
Sonra başqasına söz verir haman.
Üçüncü danışan qəhrəmanımdır,
O mənim öz qəlbim öz vicdanımdır.
"Yoldaşlar, məsələ aydındır sizə,
Gərək nümayəndə getsin Təbrizə.
Bizim el adından özünüz seçin,
O da can yandırsın elçin, vətənçin".

* * *

Oxucum, tanış ol, Səriyyəylə sən,
Onun həyatını yaxından öyrən!
O elin fəxridir - şahsevən qızı
Cənub göylərinin parlaq ulduzu.
O bizim məramın sadiq yoldaşı,
Könüllər dostudur, ellər sirdaşı.
Mərdlik, qəhrəmanlıq, bir də sədaqət,
Mətanət, nəcabət, vəfa, şərafət
Ona öz xalqından bir yadigardır,
Onun dildə gəzən şöhrəti vardır.
O yeri gələndə cəbhə oğludur,
Qəlbi düşmənlərə kinlə doludur.
O firqə əmrini bir fərman kimi,
Yerdə qoymamışdır qəhrəman kimi.
O yeri gələndə sadiq bir ana –
Kimi sarılacaq öz övladına.
Öpüb oxşayacaq ürəkdən onu,
Deyəcək balamın xoşbəxtdir sonu.
Vəsf etmək nə lazım, bu əsrdə sən,
Onu çox yaxından öyrənəcəksən.



* * *

Bu gün təbiətdə bir təmtəraq var,
Ağ geymiş gəlin tək vüqarlı dağlar...
Bayırda şaxtadır, fasiləsiz qar
Yağdıqca örtülür yollar, cığırlar.
Kəndə nə gələn var, nə də bir gedən.
Səadət hakimdir bu yerdə bilsən.
Hər evdən, obadan qalxır tüstülər.
Burdan yad ellərə qaçıb qəm-kədər.
Ocaqlar sönməmiş indi bir ildir,
Hamı bu həyatın qədrini bilir.
Uşaqlar günəşlə oyanır səhər,
Yoxdur bu yerlərdə aclıqdan əsər.
Hamının yeməyə bol çörəyi var,
Evə qış məhsulu toplamışdılar.
Ürəklər də gülür, gözlər də gülür,
Üzlərdən səadət nuru tökülür.
Səriyyə evdədir, körpəsiylə o
Danışır ana tək öz səsiylə o.
Onun yuxusu var, hiss edib bunu,
Səriyyə qaldırır körpə oğlunu.
Öz ana dilində o laylay çalır,
Səssiz səhralarda bu səs ucalır.
Xumar gözlərini yumur körpəcik,
Çəkir, Səriyyəsə yatmayıb, keşik.
Artıq yuxlamışdır körpə bu zaman
O şirin yuxuda gülür ucadan.
Könül şad olarsa həyatda əgər,
İnsan yuxuda da sevinib-gülər.

* * *

Şiddətli qar yağır yenə durmadan,
Ətrafı bürüyür qaranlıq duman.
Dağlardan hiddətlə sərt külək əsir,
Hər yolçu mənzilə doğru tələsir.

Səriyyə tərk edir bu dəm oğlunu,
Yaşlı anasına tapşırır onu.
Mənim qəhrəmanım indi at üstə,
Uçur eldən iti bir qartal kimi,
Gah süratlə çapır, gah da ahəstə
Bu iş bəzisinə bir mahal kimi
Görünür. Yetişən söyləyir ona:
"Gedib düşəcəksən bu gün çovğuna.
Gəl bu səfərini sən qoy sabaha.
Anan başlamasın fəryada, aha.
Yollar bağlanmışdır görürsən bütün,
Dərələr, dağlar da örtülmüş bu gün,
Gedib bir zavala uğrasan, qızım.
Qalmaz varlığından iz, nişan, qızım!..
Kəndin yollarını bilirsən özün,
Çovğunu, tufanı görür ki, gözün",
Səriyyə gülərək baxır onlara
"Zaval qorxağındır, qorxmayanlara –
Ölüm də, zaval da çox yabançıdır,
İradə zərbədir, qüdrət qamçıdır" –
Deyib bu sözləri ayrılır bu dəm
Onun gözlərində yeni bir aləm –
Canlanır. Qar isə yağır durmadan
Ətrafı bürüyür qara bir duman.
O firqə əmrini bir fərman kimi,
Yerdə qoymamışdır qəhrəman kimi.

* * *

Dan yeri sökülür, ağarır hava,
Xoruzlar banlayır, ayılır oba.
Açır gözlərini səhər yuxudan
Artıq nə qar vardır, nə el, nə duman.
Yayır tellərini günəş dağlara
Öz zəif nurundan sanki aypara –
Artıq utanaraq, gizlənir həmən
Günəşin altında gülür çöl, çəmən.



Qoyunlar yönəlir dağlara sarı
Səsləri bürüyür bütün diyarı.
Sürü dağ döşünə tələsir ota,
İnsan əməyidir bəzək həyata.
İnsanlar elm ilə yüksəlir ancaq.
İllərlə dərs üzü görməyən uşaq,
Əlindən kitabı yerə qoymayır,
Oxuyur, oxuyur yenə doymayır.
Vaxtilə zindana atılan qızlar,
Bir qul tək alınıb, satılan qızlar,
Ərbabın əmrilə ərə gedənlər,
Öz qul həyatına nifrət edənlər –
İndi sevdiyi tək qurur həyatı,
Qadir əlləriylə o kainatı
Dəyişir kökündən. Bu səadəti,
Əbədi yaşatmaq bu hürriyyəti –
Onun həm məramı, həm arzusudur.
Bununçün çalışır, ürəkdən, budur.
Kənddə nə ərbabın, nə xanın artıq,
Hökmündən, zülmündən qalmamış nişan:
Döyür hər qapını "aç", – deyə – şadlıq,
Ədalət hakimdir, dəyişmiş zaman.
Dostlar, çox gözəldir bir ölkədə, bax,
Ədalət qanunu hökm etsin ancaq.
Qanun qarşısında bütün insanlar,
Bərabərsə, orda ədalət də var.

* * *

Gecədir. Şam yanır, Səriyyə yalqız...
Səmada parlayan işıqlı ulduz –
Boylanır otağın pəncərəsindən,
Onun saf qəlbini oxşayır həmən.
Səriyyə seyr edir, heyrandır yenə,
Bu səssiz axşamın gözəlliyinə.
Düşünür, düşünür sanki bu zaman
Canlanır gözündə başqa bir cahan.

Bədbəxt şahsevənlər, sonsuz bir səhra...
Şikayət dil açır baxırsan hara!
Köçəri bir həyat, qəmli çadırlar...
Gecədir gəlinlər, qızlar yatırlar.
Yalnız bir Səriyyə oyaqdır hələ.
Gözlərindən yuxu uzaqdır hələ.
Çıxıb çadırından baxır göylərə.
Çatmır şikayəti sağır köylərə.
Dolaşıb səhranı fikri pərişan,
Qayıdır çadıra ürəyində qan.
Oxucum, haqlıydı qəhrəmanım bil,
Köçəri yaşamaq heç asan deyil.
Yaşamaq səhrada, yemək səhrada
Söyləyin asanmı məgər dünyada?
Orda yaratmaq da, qurmaq da yoxdur.
Yaranmaq mənasız, əzabsa çoxdur.
Vətən torpağında qərib yaşamaq
Azad insanlara yaraşmır ancaq.
Düşünən qəlb üçün ağırdır bu hal...
Oxucum, Səriyyə elə bu minval –
Öz yurdunda belə, qərib bir həyat
Keçirib, arardı buna bir nicat.
O öz keçmişini andığı zaman,
Açaraq qapını girdi qəhrəman:
– "Yenə də duyuram üzündə məlal.
İnan yaraşmayır sənə bu əhval,
Yenə düşüncəyə, fikrə dalmısan?
Bizimdir bu həyat, bu yeni dövran.
Bizi salamlayır bir xoş gələcək,
Bundan daha gözəl günlər gələcək.
Artıq keçmişləri deyil, bu gündən
Yalnız gələcəyi anmalısan sən." –
Həyat yoldaşının uca çiyninə
Səriyyə başını qoyur bu zaman.
Gözlərində təmiz bir eşqin yenə
Sönməz bir şöləsi parlayır bu an.
– "Əzizim, haqlısan, özüm bilmədən,



Bir an keçmişimi xatırladım mən.
Sıxdı ürəyimi çəkdiyim qəmlər,
Getdi qara günlər, getdi o dəmlər.
Artıq bir ildir ki, biganəyəm mən,
Kədərə, qüssəyə, ələmə bilsən.
Artıq elim xoşbəxt, yurdum da xoşbəxt...
Gülür gözlərimə səadət, həyat.
Əzizim, inan ki, bu səadəti
Əbədi yaşatmaq borcumdur mənim.
Bax buna bağlıdır elin həyatı
Bununçün çalışır ana vətənim.
İndi arzum budur qəlbimdə yalnız,
Ölkəmin baharı görməsin xəzan.
Vətən göylərində parlayan ulduz,
Saçsın gur işıqlar qəlbimə hər an".

* * *

Gecə... Mürgüləyir yenə təbiət.
Hamı istirahət bəstərindədir.
Səriyyə yatmamış, oyaqdır fəqət –
Göydə "yeddi qardaş" dan yerindədir.
Səriyyə çəkməyir gözünü bir an,
Masanın üstündə olan kitabdan.
Kitabın mavi rəng cildinin üstə
Oxuyur yazılan bu sözləri:
"Azad sovet qadını"
Bunu təkrar edib, bir də ahəstə
Sonra da orada görüncə tablo –
Gözünü çəkməyir şəkildən bir an
O şəklin mənalı baxışlarından.
O tablo göstərir gözəl bir qızı,
Baxışında məna, alnında vüqar.
Döşünün sağında Əmək Ulduzu,
Solunda parlayan bir ordeni var.
Səriyyə düşünür dərindən-dərin.
Sanki vurğunudur o bu lövhənin.

"Bu adı daşıyan nə bəxtiyardır,
Bu adda dünyanın ürəyi vardır"
Onunla danışır bir yoldaş kimi.
Ən yaxın dost kimi, vətəndaş kimi.
"Bu ad səni ayırır dünya qadınlarından –
Bu ad çox bəxtiyarlıq vermiş görürəm sənə.
Mən də bu ağ günümü sənə borcluyam, hər an,
Dünya ümid gözünü dikmiş sənin ölkənə.
Sənin diləyin azad, eşqin, istəyin azad,
Elin, vətənin azad, işin, əməyin azad.
Mən də səndən öyrənib olaram sənin kimi,
Qoy mənim də vətənim olsun, vətənin kimi.
Səni ayıran budur, layiqsən həmişə sən,
Dünya qadınlarına ordan yol göstərəsən".
Onu düşüncədən ayırır ana.
Üzünü tutaraq doğma qızına:
"Ay bala, dincəlib yatsana bir az,
Gecəni gündüzə qatmaq ki, olmaz".
"Ana, get rahat ol, gəlməyir yuxum,
Bilsəydin nə qədər şirindir duyğum.
Bilirsənmi nədir bunlar, ay ana?" –
Sevincək, kitabı göstərir ona.
– Ana, bilirsənmi qəlbimdə nə var?
İnsana can verir şirin arzular.
Bilsəydin könlümün həsrətini sən.
Böyük bir ümidlə yaşayıram mən".
– Bala, nə olmuşdur, qəlbində nə var?
Versin istəyini bir pərvərdigar.
– Ana, parçalanmış bir ürək ki, var,
O necə sağalar, necə sağalar?
– Qızım, bəllidir ki, birləşsin gərək
İkiyə bölünən böyük bir ürək.
– Ana, yaxşı dedin, birləşsin gərək
İkiyə bölünən böyük bir ürək.
Onda qoy dibindən qurusun Araz.
Bir qəlbin heç iki sahibi olmaz
Ana xəyallara dalır bu zaman.



Səriyyə nigaran soruşur ondan:
– Nə üçün köksünü ötürdün belə?
– Mən də sənin kimi doğma bir elə
Çoxdandır həsrətəm, həsrətəm, bala.
Kim istər arzusu ürəkdə qala.
Təəssüf nə edim qocaldım fəqət,
Qızım, sən o günü görərsən əlbət.
– Sən də görəcəksən, fikir etmə, ana!
Məyusluq yaraşmır, yaraşmır sana.
– Ana, bu arzudur yaşadan məni,
Qaldırım göylərə mən bu ölkəni.
Bir an düşüncəyə dalır Səriyyə
O şirin arzular açınca qanad
Onu bu xəyallar qaldırır göyə
Budur gözlərində dəyişir həyat:
Arazın üstündə yeni körpülər –
Salınır. Köhnədən qalmayır əsər.
Budur, Culfa boyu gedən maşınlar
Təbrizdən qayıdır, Bakıdan gəlir.
Qovuşur ikiyə bölünən yollar,
Həyat gözlərində yenə yüksəlir.
O Muğan düzünü duyur bir anlıq.
Budur, Mingəçevir Təbrizə işıq –
Yayır. Hər tərəfdən bəzənir şəhər,
Enir yer üzünə gülgün şəfəqlər.

* * *

Haman kənd klubu, yanır çıraqlar,
Bayırda hökm edir şaxta, boran, qar.
Salonda hakimdir yenə intizar,
Üzlərdə nifrət var, gözlərdə kin var.
Hər kəs öz fikrini söyləyir budur,
Üzlərdə intiqam hissi duyulur.
Salon "ölüm" deyə çağırır ancaq.
Qan içən düşmənin xəyanətinə
Qanlı ölüm yazır cavab olaraq,
And içir Babəkin şərafətinə.

Əllər qalxır göyə birlikdə bəzən
Kütlə dalğalanır sanki bir ümman.
"Ya zəfər bu yolda, ya ölüm". Həmən –
Yerindən söyləyir bizim qəhrəman.
Səriyyə kürsüyə qalxır bu zaman,
Dəniz tək coşqundur gurlayan səsi.
Danışır qəlbində böyük həyəcan,
Salonda duyulmur insan nəfəsi.
"Yoldaşlar, məsələ aydındır sizə,
Dayaq olmalıyıq bir-birimizə.
Düşmən bir macəra axtarır yenə,
Soxulmaq istəyir doğma vətənə.
Guya intixabat adilə Tehran
Ordu göndərəcək Azərbaycana.
Bizsə bu hiyləylə tanışıq çoxdan
Sakit bir ölkəni boyamaq qana,
Dillərə bir qıfıl, gözlərə gözlük,
Ayaqlara qandal, qollara zəncir
Vurmaq məqsədilə gəlir, bilirik.
O azğın ordunu tanıyır bu yer,
Lakin bilməlidir qan içən yağı,
O burda ölümlə üzləşəcəkdir.
Yenə Səttarxanın zəfər bayrağı
Səmada günəşlə birləşəcəkdir.
Bunu tələb edir bütün analar.
Bunu tələb edir bu el, bu diyar.
Bunu tələb edir körpələrimiz.
Gələcək nəsl üçün çalışırıq biz".

* * *

Bir qış axşamıdır qəmli bir axşam
Səmanı qaplamış yenə çən, duman,
Yanır pəncərədə zəifcə bir şam
Bu dəm otağına bizim qəhrəman –
Sakit qədəm qoyur, çox pəjmürdə hal.
Gözlərində kədər, qəlbində məlal.



Onun baxışında kin var, qəzəb var,
Tutmuşdur üzünü sanki bir qübar.
Şam əriyir, ətraf qaranlıqlaşır,
Səriyyə yatağa doğru yanaşır.
Körpəcik yuxlamış, otaqda təkdir,
Onun da üzündə duyulur kədər.
O yatır bu gecə, dincələcəkdir.
Əlindən ağ günü alınmış ellər
Hələ də oyaqdır, ölüm yazır o! –
Qaniçən düşmənə məzar qazır o.
Bu gecə həyacan keçirir onlar,
Bu gecə oyaqdır bu el, bu diyar.
Baxın, Azərbaycan ayağa qalxımış,
Onun səadətin tapdarsa düşmən
O azadlıq deyə eləyər yürüş,
Onu qorxutmayır bu qanlı fərman.
Səriyyə yaxınlaşır öz körpəsinə,
Əyilib şəfqətlə öpür üzündən.
Bax, sadiq anadır, o sinəsinə –
Basıb, ayırmayır onu özündən.
Söyləyir: "Əzizim, gəldi ayrılıq
Qapadı yurdumu yenə ölüm, qan,
Bəlkə son görüşdür gedirəm artıq,
Vətənim çağırır məni durmadan.
Onun nicatıdır xoş arzularım.
Sənin də taleyin bağlıdır ona.
Bu idi səninlə əhdim, ilqarım:
Vəfasız çıxmamaq odlar yurduna!
Sən düşmə mənimçin təşvişə oğlum,
Səninçin gedirəm döyüşə, oğlum!
Həyatın zindana dönməsin deyə,
Bəxtinin çırağı sönməsin deyə,
Mən kiməm Vətənin sadə əsgəri
İlk arzum zəfərlə dönməkdir geri,
Böyük bir ümidlə gözlərsən məni,
Qayıdıb bağrıma basaram səni.
İşdir qayıtmasam tutulma dərdə,
Qoyma mərd ananın qanını yerdə".

* * *

Səhərdir, başlayır qəmli bir səhər...
Bu səhər ayrılıq gətirdi elə.
Çapıb öz atını amansız kədər
Xalqın ağ gününü sovurdu yelə,
Qərq olub sükuta evlər, küçələr,
Hər yandan kəsilmiş get-gəlin səsi.
Duman bürüdükcə qoca Təbrizi,
Öz gözəlliyini itirir şəhər,
Jandarma irəli doğru gedir bax,
Zəncan, sonraTəbriz, Mərənd, Qaradağ –
Onların əliylə yanır, talanır,
Beşikdə körpələr belə odlanır,
Jandarma dağıdır Azərbaycanı,
Teatrı, kinonu, bütün hər yanı –
Atəş bürümüşdür, salın bir nəzər.
Evlərdən ucalır acı nalələr,
Ellər, ailələr olur dərbədər.
Ayrılıq gətirmiş sanki bu səhər,
Ana körpəsini buraxıb qaçır,
Bacı qardaşını axtarır hələ.
Asiman ətrafa qaranlıq saçır,
Vətənin bu dərdi gəlməyir dilə.
Tutulan ordaca öldürülür bax,
Ata qarşısında vurulur oğul,
Jandarma səfbəsəf dayanmış, ancaq
Artıq keçməyə də tapılmayır yol.
Meydana sancılır dar ağacları.
Göyə əl qaldırır qoca bir qarı...
Göydən cavab-gəlmir... qarı hönkürür.
Azğın jandarmalar kütləyə hürür.
Deyir: "Şahənşahın əmri belədir.
Bütün Azərilər quldur, kölədir,
Boğazdan asmasaq demokratları
Gülməz, şahənşahın gülməz baharı.
Eşidin, eşidin əmrini şahın.



Allah uzun etsin ömrünü şahın".
Lakin qorxutmayır Azərbaycanı,
Qanlı saraydakı o satqın cani.
Sarılır silaha yenə kütlələr,
Üsyan dəryasına çevrilir şəhər,
Sonsuz səngərlərdən açılır atəş.
Afərin söyləyir mərdlərə günəş
Tehran ordusunun budur, uzaqdan
Hesabsız maşını görünür haman.
Hər maşın xainlə, canilə dolu,
Atılan bombalar dağıdır yolu.

* * *

On iki dekabr. İyirmi bir azər.
Səriyyə səhərdən atışır bu gün!
Onu öz qoynuna almışdır səngər.
Mənim qəhrəmanım hamıdan üstün –
Çarpışır. Qızışır mübarizələr.
Söylə, əziz bacım, qəlbindən nələr
Keçir? Söylə, mənə gəl çəkinmədən,
Mən sadiq qəlblərin dostuyam bil sən.
Bilirəm qəlbində arzuların var.
Yaşamaq, yaratmaq, qurmaq arzusu.
Sənin də öz əhdin, öz ilqarın var.
Gülsün taleyinin parlaq ulduzu.
Duyuram qəlbində arzunu bu an
Axı təbiətin öz qanunu var.
Ümidlə yaşayır həyatda insan.
Son nəfəsə qədər ölmür arzular.
Axı sən cavansan, qüdrətin də var,
Həyatda qismətin, şöhrətin də var.
Səni alqışlayır el oğulları,
Sən də qəlbin kimi sevdin onları.
Səndə yaşamağa həvəs də vardır,
Sənin tək insanlar nə bəxtiyardır.
Budur əsir yenə axşam küləyi...

Səngərdə ölən də, öldürən də var
Hər kəsin qəlbində arzu, diləyi,
Qapayır üstünü qaranlıq məzar,
Ölən "Vətən" deyib qucur torpağı...
Bu təmiz bir hissi duyurmu yağı?
Yox, əsla. Onun ki, vətəni puldur,
Liradir, dollardır, alçaq bir yoldur.
"Səriyyə, gəlsənə gedəsən evə,
Görürsən vəziyyət başqadır artıq.
Baş çək evindəki dilsiz körpəyə.
Tərk et bu səngəri, qızım, bir anlıq" –
Deyib bu sözləri qoca bir əfsər
Mehriban nəzərlə süzür mərd qızı.
Bu sözdən canlanır səngərdəkilər.
Səriyyəsə belə başlayır sözü:
– "Leytenant! Getməyi təklif edirsən,
Məqsədim başqadır, başqadır bilsən.
Min düşmən ölməzsə bu gün bu yerdə,
Dönmərəm evimə, dönmərəm bir də.
Bugün evim bura, məskənim bura,
Sabahsa bilmirəm olacaq hara.
Hələ mübarizə başlanır ancaq.
Bu işi yarımçıq yolda buraxmaq,
Vicdanı oğrular əlinə vermək,
Məncə alçaq əməl, alçaq bir işdir.
Ölmək yaraşırmı bizlərə qul tək!
Yox mənim ürəyim daha genişdir,
Qoy şərəfli ölüm aparsın məni,
Yadlar boyamasın qana vətəni.
Mən xoş bir vüsaldan uzağam hələ,
Ondan əl çəkmərəm, mən sağam hələ.
Eşidin, dostlarım, siz də bir daha.
Əgər son verməsəm fəryada, aha,
Əgər öldürməsəm minlərcə düşman,
Mən hara, ev hara, rahatlıq hara!.
Can qurban vermərəm bu yolda inan,
Qoymaram qəlbləri çəkilsin dara." –



Deyib bu sözləri atışır yenə,
Güllələr yağdırır xain düşmənə.
Səriyyə çarpışır yenə durmadan,
Ətraf qaranlıqdır, asiman duman.
Səriyyə çarpışır, çaxır avtomat.
Elə bu aralıq yetişir qoca –
O kənd ağsaqqalın görüncə bunca
Dolanır başına sanki kainat.
Nə olmuş, nə üçün gəlmişdir, bəlkə
Kəndi təhdid edir qorxu, təhlükə?
Bəlkə də baş vermiş qanlı hadisə?
O həyəcan keçirir, vardır nə isə.
Ağır nəfəs alır töşüyür nədən
Tələsir bəlkə də qaçmışdır kənddən?
Bəlkə də... Kim bilir, qoy gəlsin görək,
Görək nə göstərər bizə gələcək.
Yetişir səngərə o bu aralıq,
Ağır nəfəs alır, susur bir anlıq.
Sonra gözlərini açır kədərlə,
O köks ötürmədən söyləyir belə:
– "Qızım, sözüm vardır sənə, bir dayan!
Kəndi tutmuşdular gülləyə aman
Məni göndərdilər söyləyim sənə,
And içib əfsərlik şərəfətinə,
Səni təmin edir "cənab" sərhəng
Andı təkrar edib bu ildə, bu həng.[1]
Qorxu yox, and içib söz vermiş onlar
Sənə toxunmayıb bağışlasınlar.
Üç rəngli bayrağa, şiri xurşidə.
And içib günəşə, and içib oda,
Şahın cıqqasına, şahın tacına.
Tapşırıb çırtma da vurmayın ona.
Deyir səngərini tərk etsin o qız
Onunla danışmaq istəyirik biz".
Səriyyə köksünü ötürür bu an,
Sanki qəzəb yağır baxışlarından.

[1] Qoşun hissələri

– Məni bağışlamaq istəyir onlar?!
Nə qədər bədbəxtdir bağışlananlar!
– Hə yadımdan çıxdı deyim, ay bala!
Gər təslim olmasan bu gün onlara
Deyir kəndinizi topun ağzında
Kül edib göylərə sovurub onda –
Qoymarıq orada həyatdan bir iz
Belədir, məsləhət indi səninkidir.
– "Yox; qoca, doğmadır mənə kəndimiz
Bu can da, bu baş da bil vətənindir.
Demək bağışlamaq istəyir onlar
Məğlubdur həyatda bağışlananlar.
Mənə bağışlanmaq yaraşmır, fəqət
Nə edim çarəsiz qalmışam əlbət.
Kəndi top-gülləyə tutmuşlar aman!
O kənddə elim var, obam var mənim.
Bu yeri qəlbim tək uşaqlığımdan –
Sevmişəm. Bu torpaq mənim vətənim.
Həm gözüm, həm arxam, gümanım, canım,
Ey müqəddəs yurdüm, Azərbaycanım!
Bu yerdə yaşayır sevimli oğlum,
Mənim gələcəyim, işıqlı yolum.
Bu yerdə yaşayır günahsız anam,
Lakin məndə yoxdur bu vədə inam.
Bax, şərəfsizlərin "şərafətinə".
Onların andı da gülüncdür mənə.
Hansı şərafətə and içir onlar?
Onlarda heysiyyət, şərafətmi var?
Aldatmaq, rəzalət, hiylə, böhtanlar
Jandarma adına əzəldən xasdır.
Əfsərlik naminə and içir onlar,
Bu da quru arzu, boş ehtirasdır.
Günəş tək aydındır mənə qəsdiniz!
Hər şeydə hiyləyə əl atdınız siz.
Tərk edim səngəri, tərk edim fəqət
Nə edim, məcburam bu yolda əlbət,
Son nəfəsə qədər mən vuruşmağa –



And içib, söz qoyub vermişəm qərar.
Ürəyim dönmüşdür yanar bir dağa
Pozdular əhdimi, əhdin pozanlar.
Budur tərk edirəm səngəri həmən,
İndidən bilirəm taleyimi mən.
Hələlik səngərdə mən təkəm, təkəm,
Gülləm də qurtarıb, nə edəcəyəm.
Mən əməl etməsəm təkliflərinə,
Kənddə axacaqdır qan su yerinə.
Sonra dar ağacı quracaq onlar,
Əlinə keçəni qıracaq onlar.
Məncə müqavimət daha artıqdır,
Bu təslim deyildir, fədakarlıqdır.
Qoy doğma kəndimiz dönməsin külə.
Zənnimcə məqsədim aydındır elə.
Onun qorxu bilməz bir qızıyam mən,
Süngü dayasa da qəlbimə düşmən –
Məni öz yoluyla apara bilməz,
Vətən torpağından qopara bilməz.
Qoy mən bu hiyləni çıxarım üzə,
Bu xəbər yayılsın vətənimizə.
Yox, bütün dünyaya yayılsın bu səs,
Cani qan tökməsə yaşaya bilməz.
Yırtıb parçalamaq, bax, ona xasdır,
Qurd üçün qan içmək bir ehtirasdır.

* * *

Budur qış fəslinin qarlı axşamı,
Təbriz meydanına yığılmış hamı.
Qadınlar, kişilər, bir də qocalar.
Hamının qəlbində bir iztirab var.
Qəlbləri görürəm sanki üzdə mən,
Nifrət dəryasını andırır bilsən.
Boğur insanları odlu qəzəb, kin...
İntiqam hissiylə ürəklər neçin
Çırpınır. Nə olmuş, bu həyəcan nədir?

Qəlblərdə qaynayan alov, qan nədir?
Baxır uzaqlara azər elləri,
Odur gətirilən o gözəl pəri –
Qəhrəman qızıdır Azərbaycanın,
Sönməz ulduzudur Azərbaycanın.
Məqsədi ucadır, göylərdən uca.
Yaşadır qəlbində böyük bir dünya.
Bax onun gözləri dolmuşdur qanla,
Vüqarla, fəxr ilə, böyük bir şanla.
Sanki səadətə doğru gedir o,
İstiqbal yoluna davam edir o.
Yox, dostlar, başqadır bu qanlı səhnə
Bu vəhşət sığmayır insan qəlbinə.
Onu tələsdirən məhəbbət deyil,
Nə arzu, nə ümid, səadət deyil,
Ölüm yollarıyla o, gedir baxın!
Onun dalısınca kütlə bir axın –
Yaradır. Meydan da dolmuşdur artıq.
Ürəklər müztərib, alınlar açıq.
O son sözlərini bir müztərib tək
O, dar ağacına söyləməyəcək.
Yox, indi ellərə tutub üzünü,
Açıq söyləyəcək ürək sözünü.
Güllərdən saf, təmiz bir məqsədi var.
Onun qəlbindəki bu pak duyğular
Bir xalqın, bir elin ürək sözüdür,
Onun arzuları el arzusudur.
İllərdən bəridir bu torpaqda o,
Doyunca görməmiş rahat bir yuxu.
O susuz da qalmış, o ac da qalmış,
Hər gün min xəyala, min fikrə dalmış.
O işgəncə görmüş illər boyu bax,
Səadət zövqünü o duymayaraq
Qapılmış zəhmətə, dərdə, fəryada.
Bir an əyilməmiş alçağa, yada.
Yalnız bir əməlçin, bir arzuyçun o
Çalışmış, çarpışmış, bilmədən yuxu.



O edam hökmünə cavab olaraq
Ölüm kürsüsünə qalxır bu zaman.
İndi söz onundur, onundur, ancaq
O çox dinləmişdir; indi də düşman –
Eşitsin qəhrəman qızın səsini,
Görsün sarsılmayan iradəsini.
– Dinləsin dost məni, həm düşman məni.
Mən öz qəlbim kimi ana vətəni –
Sevirəm. Bu adla başlanır sözüm,
Hüsnündən hələ də doymamış gözüm.
Məni xain deyə öldürür düşman
Lakin göstərməyir xəyanətimi.
Bilmir öz hökmünü verərkən zaman,
Tarixlər yazacaq sədaqətimi.
Xəyanət sizindir, "ağalar" sizin.
Məncə bu ad sizə yaraşır ancaq.
Mənsə övladıyam qoca Təbrizin.
Vicdanım təmizdir, qəlbim də parlaq.
Siz dollar düşkünü, lirə düşkünü.
Mənsə bu torpağı sevirəm yalnız.
Artıq yaxınlaşır intiqam günü,
Mən onu görürəm, sizsə amansız,
Bu gün məhkəməsiz ölürəm həmən –
Həyat sizlər üçün yeni məhkəmə –
Qurur... Qarşınızda susmayıram mən.
Sizsə söyləməyə, hətta bir kəlmə –
Belə tapmazsınız. Dünyada ancaq,
Bəli, xainlərə yaraşır susmaq.
Səriyyə yad deyil, sanki meydana,
Arabir ətrafa o, nəzər salır.
Odur, ön sırada ağ saçlı ana
Həyat gözlərində yenə alçalır.
Ağlayır, ürəkdən ağlayır, bəli.
Ona yad deyildir bu el gözəli.
Ölən el qızıdır, o el anası,
O el adətiylə saxlayır yası.
Acı göz yaşların görür Səriyyə.

O üz döndərərək yenə kütləyə:
– Ağlama, ağlama, mehriban qadın!
Sənin şöhrətin var, vüqarın, adın.
Ağlamaq alçaldır insanları bil,
Bu qanlı lövhələr bizə yad deyil.
Ölənçin ağlamaq, sızlamaq, ana,
Yaraşmaz bu elin oğul-qızına.
Ana, xalqın kimi başını dik tut,
Gözünün yaşını kininlə qurut!
Ölüm məhv etməyir qəhrəmanları,
Vüqarsız deyildir hər cansız bədən.
Saxlayın vüqarı, izzəti, arı.
Ölüm qorxutmamış bizi əzəldən.
Fədai marşının elə bu ara
Səsi eşidilir budur uzaqdan –
Nümayişçilərin coşqun bir dərya –
Kimi səsləri də gurlayır haman.
Kütlənin dilində gurlayır şüar,
Əllərində əsir qırmızı bayraq.
Bax, qan dəryasını andıran diyar
Parlaq gələcəkdən gətirir soraq.
"Yaşasın Pişəvəri! Məhv olsun mütləqiyyət!"
"Yaşasın azadlığın sönməz olan şüası!"
"Yaşasın gələcəyə inam bəsləyən ellər!"
"Yaşasın inqilaba sadiq qalan nəsillər!"
"Məhv olsun əcnəbilər!"
"Ölkə satqınlarına ölüm!"
Budur qanlı meydan, bir tərəfdə dar,
O yanda gurlayır odlu şüarlar.
Budur iki aləm, üz-üzə durmuş,
Zəfər həqiqətin üstə qurulmuş.
Səriyyə susmuşdu bayaq bir anlıq;
İndisə yenidən başlayır sözü.
– Dinləyin "ağalar", dinləyin artıq
Siz istər-istəməz qoca Təbrizi,
Budur sabahkı gün, budur gələcək.
Tarix öz hökmünü dəyişməyəcək.



Bu gün mən ölsəm də yaşayır vətən,
Vətən oğulları, vətən qızları.
Öldürmək olmayır kütləni bilsən
Boğmaq mümkün deyil böyük diyarı.
Məmurun qəlbində qorxu, iztirab.
Gah kütləyə baxır, gah Səriyyəyə...
Kinli baxışlara gətirməyib tab
Əmr edir : "Susdurun, qurtarın"! – deyə.
Səriyyə son sözü söyləyir yenə:
"Bəli, tələsməkdə haqlısınız siz.
Cumsanız dünyanın dərinliyinə
Yenə cəzanıza yetəcəksiniz.
Bu gün də olmasa, sabah da əlbət
İntiqam dalğası boğacaq sizi
İntiqam əlləri sizi nəhayət
Məhv edib, yaşadar qoca Təbrizi.
Qalib əsgər kimi öz cəbhəmdə mən
Alnımda iftixar, dilimdə Vətən
Ölürəm, ölümüm həyatdır bilin.
Vətən! Tanıdığım bu addır bilin!"
Kütlə yaxınlaşır zamandır deyə,
Məmursa əmr edir yenə kütləyə:
– Çəkilin! – Meydandan ucalır bu səs;
– Son verin, son verin, cinayətlərə.
Sizi çağırmamış buraya heç kəs,
Bəsdir yağdırdınız ölüm bu yerə.
Trumen əmrilə gələn "qonaqlar".
Bu yerin sizlərə çox nifrəti var.
Bu qonaq adiylə gələnlərə, bax,
Ya Londondan olsun, ya Vaşinqtondan,
Bu torpaq qaranlıq məzar olacaq.
Belə gələnləri əzəldən Tehran –
Sevib əzizləmiş "qonaq"dır deyə.
Sonra da İranı ona hədiyyə –
Edib. Lazım bilmiş "qonağa" hörmət.
Bizdənsə onlara ölüm və nifrət.
Jandarma at çapır, atəş başlayır,

Onlar hər tərəfə qan, ölüm yayır,
İkinci hökmünü Tehran əfsəri
Verərkən bürüyür sükut hər yeri.
Səriyyə sakitcə dayanıb durur,
Gözlərində alov, alnında qürur.
Keçir boğazına kəndirin ucu,
Yalnız buna çatır düşmənin gücü.
Sarsıdır qəlbləri bir sonsuz ağrı,
Sanki üfüqlərin qızarır bağrı.
Bu qanlı cinayət qurtarır belə,
Matəm dalğa-dalğa yayılır elə.
Səriyyə ölərkən öz nəğməsində,
Bir qəhrəman kimi son nəfəsində
"Vətən, Vətən" deyib yumur gözünü,
Şərəf dünyasında görür özünü.

## Epiloq

Dan yeri sökülür, açılır səhər,
Atır örpəyini Savalan yenə.
Baxır heyran-heyran qocaman şəhər
Sakit təbiətin gözəlliyinə.
Göstərib üzünü günəş ellərə
Ucalır göylərə al bayraq kimi.
Yayıb tellərini sonsuz çöllərə
Girir hər qapıdan bir qonaq kimi.
Yüksəlir nəğməkar quşların səsi,
Üz tutur günəşə güllər, çiçəklər.
İnsana can verir elin nəğməsi,
Bir əməl eşqiylə vurur ürəklər.
Nəğmə dalğa-dalğa axır hər yana,
Bu nəğmə tanışdır Azərbaycana
Bu şirin nəğmədə bir xatirat var,
Onda şirin ümid, parlaq həyat var.
"Sənsən bizə ana, Vətən!
Sənsən bizə nemət verən.



Sənsən bizə ruhi-rəvan,
Yaşa, yaşa Azərbaycan!"
Odur pəncərənin önündə yalqız
Dayanmış bir uşaq dinləyir onu
Bu səsi əks edir hər təpə, hər düz
Nə qədər canlıdır nəğmənin sonu.
Uşağın yanında sadə bir insan
Dayanıb seyr edir aydın səhəri.
Gözünü çəkməyir uşaqdan bir an
Nə isə düşünür bayaqdan bəri.
Qıvrım saçlarını öpərək onun
Sıxır sinəsinə başını bəzən.
Bəzən də gözündən öpür oğlunun,
Sonra da tələsik tutur əlindən.
– Sən mənim həm oğlum, həm yoldaşımsan,
Ən yaxın dostumsan, can sirdaşımsan.
Keçmiş faciəni yenə bir daha
Sənə xatırladım istər-istəməz.
Bu gun son verilir fəryada, aha,
Daha bu xatirat kədər gətirməz.
Sadiq bir insanın intiqamını
Almaqçın gedirəm ürəyimdə kin.
Oğlum, görürsənmi orda hamını,
Onlar övladıdır bizim ellərin.
Bu gün ölkəmizin nicat günüdür,
Onun səadəti, həyat günüdür.
İndi mən gedirəm, sənsə qalırsan,
Zəfər bizimlədir gözlərsən məni.
Qalib əsgər kimi qayıdan zaman
Bir daha oxşaram körpə qəlbini.
– "Get, ata, zəfərlə sən qayıt, ancaq,
Gəl öpüm, gəl öpüm, səni, mərd ata,
Səfərin uğurlu, yolun da parlaq.
Qələbə dostlara, ölümsə yada"
Budur, gözləmədən ata boynuna
Kiçik qollarını dolayır uşaq.

Dolursa gözləri baxmadan ona,
Qəlbinə hakimdir bir sevinc ancaq,
Tərk edir otağı bu dəm qəhrəman
O, "intiqam" – deyə gedir durmadan.
Budur, inqilabın rəmzi dünyada
Ana ölmüşsə də, mərd oğlu sağdır,
Nə ana, nə ata baş əyməz yada
Atasız oğula ellər dayaqdır.
Bu gün Azərbaycan qalxmış ayağa;
Hər küçə başında bir səngər durur.
Baxır Səriyyənin oğlu uzağa,
Baxır atasının dalınca məğrur...

*Bakı, 1949-50*





## SƏNDƏN UZAQLARDA

Səndən ayrıldığım on gün olsa da,
Lakin hər günümü bir il sanmışam.
Hər axşam yananda göylərin şamı
Hicrində od tutub mən də yanmışam.
Bəzən qəlbim dolmuş, qəlbim ağlamış
Baharın ağlayan buludları tək.
Bəzən də könlümdə sellər çağlamış,
Sinəmə sığmamış, sığmamış ürək.

Anlar donub qalmış qurğuşun kimi,
Hər anım bir günə bərabər olmuş.
Burda dəniz gözəl, təbiət gözəl,
Lakin tənhalıqdan qəlbim yorulmuş.
Səndən ayrıldığım on gün olsa da,
Lakin hər günümü bir il sanmışam.
Səni görmək üçün, əziz sevgilim,
Hər səhər, hər axşam qanadlanmışam.
Lakin nə əlinə çatmış əllərim,
Nə də gözlərinə gözüm sataşmış.
Xəyallar aparmış, aparmış məni,
Kədərim yenə də başımdan aşmış...
Hər axşam sahilə yalqız çıxıram,
Gündüzlər xəyalın gəzdirir məni
Yuxusuz gecələr sən həmdəmimsən,
Yatarkən yuxuda görürəm səni.
Lakin düşünürəm hicran olmasa,
Vüsalın qədrini bilməzdi insan.

Səndən uzaqdayam, uzaqlarda mən,
Vüsalı görünən bu acı hicran
Məni düşündürür, məni yandırır,
Eşqimin yolunu işıqlandırır.
Görürəm, nə qədər sevirəm səni,
İllər ayırsa da, sevgimdən məni
Tək səni sevirəm, tək səni yalnız.
İnsan öz eşqinə olmaz vəfasız!

*1959*

## BİR NƏĞMƏ İTİRMİŞƏM

Bir nəğmə itirmişəm,
İtən yar nəğməsiydi.
O bir etibarsızın
Etibar nəğməsiydi.

Vüsalı acı hicran,
Gülüşü qarlı boran,
Ayrılıb gedən zaman,
Ürəyimi qoparan,
Boran, qar nəğməsiydi.

Kədərliydi ney kimi,
Ona saldım meylimi,
Bir nəğmələr selimi?
Füzulinin qəzəli,
Şəhriyar nəğməsiydi.

Həyatın tufanında,
Qarında, boranında,
Ömrün hər bir anında,
Ümid ağacım olan,
Özü möhtacım olan,
Bir dildar nəğməsiydi.



Yazıq bağbanlar kimi,
Gül əkdi, xar bitirdi.
Çətin tapdı gülünü,
Asan salıb itirdi.
Gözlənilməz, bir qəfil,
İlk xəzana tuşlaşan
Son bahar nəğməsiydi.

Bir ürəyin təlaşı,
Ayrılığın göz yaşı,
İtib, batan sal daşı,
Mənə biganələrdən,
Daha biganə olan
Bir əğyar nəğməsiydi.

Ovlayaraq qəlbimi,
Uçdu göyərçin kimi.
Titrək könül lələyi,
Röyalarda mələyim,
İstəyim, arzum olan
Bir nigar nəğməsiydi.

Vüsalı acı hicran,
Gülüşü qarlı boran,
Sevincimi aparan,
Ürəyimi qoparan,
Bir də geri dönməyən,
İtən yar nəğməsiydi.

Bir nəğmə itirmişəm,
İtən yar nəğməsiydi.
O bir etibarsızın,
Etibar nəğməsiydi.

## QARANQUŞLAR QAYIDANDA

Gələcəyəm sənə qonaq
Qaranquşlar qayıdanda.
Məni gözlə, məni ancaq
Qaranquşlar qayıdanda.
Bulud göydən uçan zaman
Məni gözlə!
Günəş nurun saçan zaman
Məni gözlə!
Yasəmənlər açan zaman
Məni gözlə!
Məni gözlə, məni axtar
Qaranquşlar qayıdanda.
Gələcəyəm gələn bahar
Qaranquşlar qayıdanda.
Duman alsa o dağları,
Darıxma, gəl!
Güclü yellər titrətsə də budaqları,
Darıxma, gəl!
Dünyanın xoş sabahı var,
Seyrə dalsan yaxınları, uzaqları,
Darıxma, gəl!
Qaralanda uzaq yollar,
Gələcəyəm, sevimli yar,
Gələcəyəm mən bu bahar
Qaranquşlar qayıdanda.

## ÖMÜR GÜNƏŞİM

Məni sevirsənsə özünü qoru,
Qoru həyatını bir inci kimi.
Könlümün yeganə təsəllisitək,
Qəlbimin yeganə sevinci kimi.



İnan ki, varlığım, ömrüm, həyatım,
Bu günüm, sabahım bağlıdır sənə.
Tək sənə bağlıdır müqəddəratım,
Səni görmək istər ürəyim yenə.

Mənimki olsaydın, səni əl üstə,
Göz üstə saxlardım, saxlardım, inan.
Qəlbimin yeganə sevinci ikən,
Dönüb başqasına kədər olmusan.

Ömrümə günəşsən, parlaq bir günəş,
Harada olsan da işığın gələr.
Soyuyan qəlbimə atəşsən, atəş,
Xəyalın ömrümə işıq nur ələr.

Sənin varlığında varlığım yaşar,
Duyğutək qəlbimə dolaydın, ey kaş.
Xəyalın ömrümə sevinclər qoşar,
Dönüb sən olaydım, olaydım ey kaş!

Tənha gecələrdə xatirələrin
Vəfalı dost kimi yanıma gələr.
Sənin təbəssümün-ömür ülkərim,
Həmdəmim – danışan, dinən vərəqlər.

Qoru ürəyini, qəlbini qoru,
Küləklər səsini çatdırsın mənə.
Yaxınlar, uzaqlar qoy bilsin bunu,
Səninlə diriyəm, səninlə yenə.

Məni sevirsənsə özünü qoru,
Qoru həyatını bir inci kimi.
Qəlbimin yeganə təsəllisitək,
Könlümün yeganə sevinci kimi.

## SEVGİLİM

Ulduzlar göylərdə qatar-qatardır,
Qəlbimdə dil açan xoş arzulardır.
Dünyanın min rəngi, min hüsnü vardır,
Həyatın qədrini bilək, sevgilim.

Gözləri oxşayır hər yaşıl ağac,
Göylərin başında lacivərdi tac.
Qəlblərə ruh verir hər zümrüd yamac,
Yaşamaq bir sonsuz dilək, sevgilim.

Həyatın mənası dərindir, dərin,
Min bir bəzəyi var torpağın, yerin.
Yaşamaq dünyada hər şeydən şirin,
Həyatın üzünə gülək, sevgilim.

Göylərə nəzər sal, hər səhər çağı
Günəş oyadanda daşı, torpağı,
Hər səhər seyrə dal dərəni, dağı,
Coşacaq qəlbində istək, sevgilim.

Dünyanın bəzəyi, zinəti insan!
Həyata üz çevir qəmlənən zaman.
Meşələr yolunu gözləyir hər an,
Təbiət gözəldir, göyçək, sevgilim.

Bəzən qanadlarım qırılar, düşər,
Kədərim yanımdan yeltək ötüşər.
Könlüm vüsalınla yenə görüşər,
Həyata bağlıdır ürək, sevgilim.

Qəlbimi oxşayır hər yaşıl çəmən,
Kömək diləmirəm hələ kimsədən.
Göz görür, qəlb duyur, bəxtiyaram mən,
Dünyanı gəl qoşa gəzək, sevgilim.



## ROMANS

Dünən gecə sevincim uca dağlar aşırdı,
Bu gün isə kədərim olmuş dənizlər qədər.
Dünən qəlbim əbədi qəmlə vidalaşırdı,
Bugün onu yenə də qarşılayır mükəddər.
Dünən qəlbim bir anlıq xoşbəxt sandı özünü,
Məhrəm oldu nəfəsim isti yar nəfəsilə.
Dünən eşqi dinlədim nəvazişlər içində,
Şirin yuxuya getdim onun zümzüməsilə.
Dünən illər həsrəti qəlbimdən uçdu, getdi,
Bu gün isə əbədi köçüb getdi, getdi yar.
Fəqət acı göz yaşı bir də şirin xatirə
Qaldə mənə, o gündən, o gecədən yadigar.

## GƏL

Gəldin, darıxırdım, açıldı könlüm,
Yenə də göylərdən ay baxanda gəl,
Dağlara düşəndə səhərin şehi,
Qızlar yaxasına gül taxanda gəl.

Bənövşə boynunu əyib duranda,
Ulduzlar göylərdə büsat quranda.
Üfüq durulanda, göy durulanda,
Sellər, şəlalələr gur axanda gəl.

Gəl, elə danışım elə gülüm ki,
Yanında bir sözüm olmasın iki.
Mən elə susmayan bir bülbüləm ki,
Qəlbimdə arzular od çaxanda gəl.

Gəl sular qızanda günortaçağı
Günəş yandıranda daşı, torpağı,
Oxuyub nəğmə de könlüm sayağı,
Qəlbim sənin üçün darıxanda gəl.

Hər sözün öz yeri, öz məqamı var,
Ürəkdə qalmasın təmiz arzular.
Ondakı qəlbimi gələcək vüsal
Oduna yandırıb, həm yaxanda gəl.

Baharda, payızda, qışda gəl barı,
Qalın qar tutanda düz yamacları.
Gətir gəlişinlə ilkin baharı,
Yenə də göylərdən ay baxanda gəl.

## NƏ TEZ UNUTDUN MƏNİ...

*(Nəğmə)*

Yadındamı, gözəl yar,
Dedin mənə bir bahar
– Qəlbim səni arzular.
Sonra, ey gözəl mələk,
Nə tez unutdun məni?

Sənin eşqinə hər an
Qəlbim olmuş aşiyan.
Söylə, sevimli canan,
Sən ey ətirli çiçək,
Nə tez unutdun məni?

Qəlbindədir ürəyim,
Diləyində diləyim.
İstəyimdir, istəyin.
Həyat səndədir demək,
Nə tez unutdun məni?

Əhdinə bel bağladım,
Dəniz kimi çağladım,
Fəraqında ağladım.
Axan bir göz yaşı tək
Nə tez unutdun məni?



Sənin eşqinə hər an
Qəlbim olmuş aşiyan.
Söylə, sevimli canan,
Səni unutmaz ürək,
Nə tez unutdun məni?

*1958*

* * *

Könül bulanmaz imiş etibar olan yerdə,
Qışın nə aləmi varmış bahar olan yerdə.
Rəqibdən nə küsüb sən, nə inci, ey qəlbim,
Rəqib neyləyəcək yara yar olan yerdə.
Məhəbbətin özüdür ən şirin, gözəl nemət,
De, bülbülə nə gərək novbahar olan yerdə?
Sevib yaşa, sevərək öl, bu bəxtiyarlıqdır,
De, qəmlənərmi könül bəxtiyar olan yerdə?
Ürək alışmasa gözdən, de, yaş çıxarmı məgər?
Kim ağlar, əldə, gülüm, ixtiyar olan yerdə.
Təbəssümüm dodağımdan bil, ixtiyarsız uçub,
Mən ixtiyarsızam, ey gül, nigar olan yerdə.
Vətən, Vətən deyərəm, ruhum eyləyər pərvaz,
De, gizlədim necə, dərd aşikar olan yerdə?
Soruşdu, söylə, kimin həsrətindəsən, şair?
Kimi deyərdi könül, Şəhriyar olan yerdə?

* * *

Oda yandırma, gülüm, sən yenə pərvanələri,
Yenə sövdalara salma dəli-divanələri.
Şairə mey nə gərək, mey də, rübabım da – şeir,
Etməyin bir daha tərif meyi, meyxanələri.
Eşqim – azadlığın eşqi, qəmim – el dərdi mənim,
Mən həqiqət yazıram, neylərəm əfsanələri?
Adım aşiqsə əgər, mən elimin vurğunuyam,
Çox da təriflənmə, gəl, şairə dürdanələri.

Ayrılıq dərdi çəkən qəlbimin öz aləmi var,
Vəsli gəl sorma, soruş sən şəbi-hicranələri.
İçmişəm, məstəm, inan, ayrılığın badəsini,
Geri qaytar, yola sal sağəri-peymanələri.
Öz ayım, öz günəşim, öz büti-məbudum var,
Başa sal düşmənimi, dostumu, həmxanələri.
Bir vüsal, bir də vüsal, bir də vüsaldır dərdim,
Gəl xəbərdar elə sən arifi, biganələri.

* * *

Yaxın düşməz əcəl çünki ürəkdə intizarım var,
Bir atəşgahdir qəlbim, vətənsiz ahü-zarım var.
Mənə bəzən gülər, bəzən təbəssüm eyləyər tale,
Fəqət gülməz üzüm, çünki ürəkdə bir qubarım var.
Bütün ömrüm boyu hər bir diyarda laləzar gəzdim,
O tayda vəhşi otlar çulğamış öz laləzarım var.
Baharı neylərəm, ey dost, sənsiz bu nəyə lazım?
Vətən mülkündə illərdir xəzan vurmuş baharım var.
Şikayət etmirəm düşmüş mənə ellər qəmindən pay,
Həmişə fəxr qıllam ki, pərişan ruzigarım var.
Büllurtək ayrılıq dərdin ürək daim əyan eylər,
Vüsalım harda qalmışdır? O tayda gülüzarım var.

* * *

Ətrin bənövşə ətrinə bənzər, sevimli yar,
Hicranda şəmtək ürəyim od tutub yanar.
Bağrım fəraqdan alışır lalə bağrıtək,
Yoxdur həyat bağında sənintək gözəl çiçək.
Könlüm apardı, ovçumudur, söylə, gözlərin?
Sehirmi, cadugərmi məgər dadlı sözlərin?
Bir dağmı, yoxsa ki, ucalan sərv qamətin?
Gəlsin rəqib, ta ki görə bu qiyamətin
Göylər şəfəq saçanda səhər, axşam ey pəri,
Seyrə çıxanda ay kimi bu doğma çölləri,
Boylan bizim pəncərədən, boylan, ey mələk,
Yoxdur həyat bağında sənintək gözəl çiçək.



Gəl, gəl, gözün fədası olum, bir də gəl yenə,
Mən qəmlənəndə, körpə kimi bir də gül yenə.
Qəlbimdəki döyüşlərimin qəhrəmanı sən,
Göylər qucan xəyalımın əvvəl nişanı sən.
Sənsiz necə ömür sürərəm, sənsiz, ey nigar?
Ətrin bənövşə ətrinə bənzər, sevimli yar.

* * *

Dərdə düşüb könül yenə dərmanım arzular,
Tənha qalanda yari-nigahbanım arzular.
Məhzun və dalğınam yenə məcnun söyüd kimi,
Pəjmürdəlik bu qəlbi-pərişanım arzular.
Ey dost, sən bu gün mənə yarı, diyarı ver!
Gecdir sabah, onu günüm, əlanım arzular.
Gəl bir dəfə həyatda əlimdən tut, ey vüsal,
Artıq bunu ürəkdəki hicranım arzular.
Kim söylədi ki, şairə tənhadı daima,
Könlüm evimdə daimi mehmanım arzular.

* * *

Saqi xumari-eşqəm, bir mey gətir, amandır,
Həsrət və intizarəm, halım yenə yamandır.
Yad etməyir nigarım, öldürdü intizarım,
Gözdən xəyalı getməz bilməm neçə zamandır.
Hicrində hər gün oldum zülfü kimi pərişan,
Qəlbim fəraq əlində, həsrət əlində qandır.
Ey gül, səhər mehilə göndər peyam yarə,
Gəl bir soruş, qəmindən, gör bu nə imtahandır.
Soldu ömür baharım, əl çəkməz intizarım,
Qəlbim evimdə bir də ümmid şəmi yandır.
Rüsvayi eşqin oldum, sən bilmədin, vəfasız,
Gəl, ey külək, çəkinmə, halımı yara qandır.
Söylə ki, aşiqim çox, meylimsə kimsəyə yox,
Qəlbim evində bir o, ancaq o, hökmürandır.
Şəmtək əlində eşqin Billuri sızlayanda
Qəlbim yenə vüsalə, ümmidə aşiyandır.

## GƏL BİR DƏ GÖRÜŞƏK

Gəl bir də görüşək, bir də görüşək
Uzaqdan-uzağa vurğunlar kimi.
Oturaq yenə də qabaq-qabağa,
Qəlbində sevgisi, eşqi var kimi.

Baxım, bir də baxım mən heyran-heyran,
Bu arzum ürəkdə qalmasın barı.
Belə görüşlər də bəsimdir, inan,
Könüldən görünsün könül yolları.

Gəl bir də görüşək, bir də görüşək,
Qəlbimdə dil açsın həyəcan mənim.
Sinəmdə tufanlar qoparsın ürək,
Gülsün gözlərimdə asiman mənim,
Dəyişsin gözümdə bu cahan mənim.

Uzaqdan-uzağa seyr edim səni,
Təbəssüm çiləyim gülüşlərinə.
Dolanım, xəyalən gəzim çəməni,
Səninlə qol-qola dolanım yenə,
Təbəssüm çiləyim gülüşlərinə.

Gəl bir də görüşək, sevinsin bahar,
Ürəyim fərəhlər dənizi olsun.
Məni qanadına alsın arzular,
Yanımda hicranın bənizi solsun.

Təsəlli olmusan şair ömrümə,
Mənə gələcəkdən, sabahdan danış.
Gizli niskilimdən bir kəlmə demə,
Ellərin eşqilə sən yanıb, alış.

Vurğunam vətənə, məftunam sənə,
Belə görüşlərə alışmışıq biz.
Gəl bir də görüşək uzaqdan yenə,
Görüşüb, ayrılaq müqəddəs, təmiz.



Görüşüb ayrıldıq həmişəkitək,
Gözlərim arxanca baxdı intizar.
Sinəmdə tufanlar qopardı ürək,
Qəlbimi yandırıb-yaxdı arzular.

Gəl bir də görüşək, bir də görüşək,
Uzaqdan-uzağa vurğunlar kimi.
Oturaq yenə də qabaq-qabağa,
Qəlbində sevgisi, eşqi var kimi.

## XƏZƏRİM MƏNİM

Mənim gözəl dənizim,
Doğma Xəzərim mənim
Ömrü neçə əsrlik
Sənət əsərim mənim.

Sinəndəki buruqlar
Ürəyimə dayaqdır.
Sayıq keşikçilərtək
O həmişə oyaqdır.

Bakının qucağında
Bir anasan, ey dəniz.
Bir övladsan – vəfalı,
Bir sonasan, ey dəniz!

Bir dənəsən dünyada
Dəryalar sənə məftun.
Sənin göy sularına
Məftunam, yenə məftun.

Mənim gözəl Xəzərim,
Suların inci kimi.
Yaşayır ürəyimin
İtməz sevinci kimi.

Mənim gözəl Xəzərim,
Sənin göy sularında
Ürəyim var, gözüm var.
Sənə qəlbimdə hələ
Deyilməmiş sözüm var.

Çöllər, bağlar solacaq,
Meşələr solacaqdır.
Günəş kimi, camalın
Dəyişməz qalacaqdır.

Məni xatırlayarsan
Sahillər birləşəndə,
Bir ürəkdə min arzu,
Min istək yerləşəndə...

Xeyir-dua ver mənə,
Anam Xəzər, can Xəzər.
Ey hər qətrəsi dərman,
Mirvari, mərcan Xəzər.

Aç mənim yelkənimi,
Gözü yolda qalan var.
Xəzər, arxamca çilə
Göy dalğalar, göy sular.

* * *

Qəsr qurdum arzulardan
Səhər-axşam.
Külək oldu, qopdu tufan,
Boran oldu.
Ürək coşdu dərya kimi,
Göz yaşlarımümman oldu.
Heç bilmədim, qəsrim nə vaxt,
Necə, harda viran oldu.
Olum-ölüm vuruşları,
Qarşıdadır mübarizə.



Yenə qonaq gələcəkdir
Görüş bizə,
Vüsal bizə.
Arzulardan, əməllərdən
Yeni qəsr qurum gərək,
Döyün, susma, döyün ürək.

* * *

Zərif zülfün bir yana,
Zərif şanələrindən
Deyib, danışım bu gün.
Zərif məhəbbətinlə
Yanıb-alışım bu gün.

Çıxıb dağları gəzim,
Sənə lalə toplayım.
Eşqin piyalesini
İçmək üçün, sevgilim,
Min rəngli, min biçimli
Yüz piyalə toplayım.

Güllərin ətri qalsın
Xatirəmdə, sözümdə,
Gözlərimdə gözlərin,
Ürəyimdə sözlərin,
Dönüb sənə çevrilim
Birdəfəlik özüm də.

Yandırsın günəş kimi
Məni odlu həsrətin.
İlham bulağım olsun
Təmənnasız ülfətin.
Yaşatsın sevincimi
Boyasız məhəbbətin,
Riyasız məhəbbətin.

## FİRDOVSİ YANILDI

*Qadınla əjdaha düşsə torpağa,*
*Torpaq da onlardan qaçar uzağa.*
***Firdovsi***

Firdovsi yanıldı qoca dünyada,
Qəzəbi aldatdı böyük şairi.
Şair unutmuşdu uca dünyada,
Özünün beynində, ürəyində də
Anası tuturdu ülvi bir yeri.
Firdovsi ananı dünya sanırdı,
Eşqiylə göylərə qanadlanırdı.

Qadın çiçəyidir həyat bağının,
Ziynəti, bəzəyi yar otağının.
Ətri, təravəti gül yarpağıtək,
Köksündə döyünür incə bir ürək.
Belə bir incəlik kimsədə yoxdur,
Duyan bir ürəyin məlalı çoxdur.
O susar, çox zaman qəlbini açmaz,
Zəhmətin, həsrətin qaçmaz əlindən.
Fəqət mənliyini heç nəyə satmaz,
O üsyankar olur taleyə bəzən...

Sən sev qadınını, bəslə gül kimi,
İstər qoca olsun, istərsə cavan.
Qoru tufanlardan tər sünbül kimi,
Xəbərin olmasa ondan bir zaman
Həyatı gül kimi saralıb solar,
Ömrü yar bağında beşgünlük olar.
Onun sədaqətə, hüsn-rəğbətə,
Riyasız bir eşqə, təmiz ülfətə,
Hörmətə, qayğıya ehtiyacı var,
Unutsan, çiçəktək saralıb solar.



## AŞIQ SAZINDA

*Aşıq Ələsgərə*

Bir həyat eşqi var, bir də ki, həsrət,
Ölməz bir məhəbbət aşıq sazında.
Elin arzuları, elin diləyi,
Tükənməz bir ülfət, aşıq sazında.

Hər toyu, düyünü bir aşıq bəzər,
Şöhrəti dillərdə, ellərdə gəzər.
Gözəllər eşqilə oxuyar, süzər,
Səslənər sədaqət, aşıq sazında.

O, pəsdən, o, zildən, o, bəmdən deyər,
O, sevincdən deyər, o, qəmdən deyər,
Hicrandan, vüsaldan, ələmdən deyər,
Soyumaz hərarət, aşıq sazında.

Sazıyla bir gəzər eli, Vətəni,
Ayırar yüz qəmdən, həsrətdən məni.
Yadıma saldıqca çölü, çəməni,
Dəyişər təbiət, aşıq sazında.

Aşığın saf olar hər bir niyyəti,
Vətənin şöhrəti, elin qüdrəti,
Ötən nəsillərin məhrumiyyəti –
Ölçülməz bir vüsət, aşıq sazında.

Qəlbləri həyata, sevincə bağlar,
Ellərlə sevinər, ellərlə ağlar.
Hər simdə bir ilham çeşməsi çağlar,
Sarsılmaz bir qüdrət, aşıq sazında.

Gah vüsal oxuyar, gah hicran çalar,
Qəlbimi, ruhumu əlimdən alar,
Dünəni, bu günü yadıma salar
Əbədi bir şöhrət, aşıq sazında.

## MƏHƏBBƏT

Bahar gələndə dağlara həyat gələr,
Çöllərdə lalə bitər, çəməndə nilufər.
Bahar gələndə hər yerə fərəh saçılır,
Sən bahar kimisən, sevgilim,
Sən təbəssümlənəndə könlüm açılır.
Səndən sonra kimsəni sevmədiyimi anladım,
Bayağı eşqlərin oduna yanmadım.
Səni gözlədim,
Gözlədim bahar kimi,
Təmiz arzular kimi.
Ancaq
Bundan sonra məni sevən olmayacaq
Sənin kimi.
Fəqət mən,
"Səni sevirəm" demədiyindən
Acıqlandım.
Özüm öz böyük eşqimi ayaqlara saldım.
Bu günə qaldım.
İndi illər keçmiş o gündən.
Bu illərdə dağlar aşmış,
Dərələr, düzənlər keçmişəm mən.
Su içmişəm min-min bulaqdan.
Milyon-milyon insanlar görmüşəm.
Yaxşısı da olmuş, yamanı da.
Dünyada
Məni sevənlər də olmuş,
Sevməyənlər də.
Mən səni sevmişəm ancaq.
Məhəbbətin dayaq olmuş qəlbimə,
Yenə dayaq olacaq.
Ağlayan şəlaləyə ağlama dedim,
Toxta, dayan bir an.
Sözümə baxmadı, baş alıb getdi.
Gözdən, könüldən itdi.



Fəqət sən itmədin,
Gözdən, könüldən getmədin.
Sənin təmiz məhəbbətin
Məni yola saldı, qarşıladı hər axşam,
Məni həyata, insanlara bağladı.
Bu böyük məhəbbət
Həmişə mənimlə gulub ağladı.
Məndən sonra da qalacaq,
O yenə mənimlə olacaq.

## QALSAYDIN

Yanımda qalsaydın, ey gülü-rəna,
Həyatım başqa bir məna alardı,
Yanımda qalardı sevinc daima,
İlhamım həmişə mənim olardı.
Təbəssüm uçmazdı dodaqlarımdan,
Qalardı əməyə sonsuz məhəbbət,
Məni tərk etməzdi bir də heç zaman,
İnsanın bəzəyi sevinc, səadət.
Ürəkdən əbədi həsrət uçardı,
Gəzib dolaşmazdım bir də mükəddər,
Ələmim həmişə məndən qaçardı,
Gözümdə gülərdi geniş üfüqlər.
Lakin nə etməli, taleyim demək
Səni məndən alıb uzağa salmış,
Sevincim olmuşdur köçəri quştək
Kədərim həmişə yanımda qalmış.
İlhamım səninlə uçub gedəndə
Sonsuz sevincimi alıb apardı.
Rahatlıq arxanca qaçıb gedəndə
Qəlbimi köksümdən sanki qopardı.
Ürəyim həmişə, hər zaman səni,
Hər yerdə özünü, sözünü anmış,
Gülüşlər səninlə tərk etmiş məni,
Gözümdə qəmlərin alovu yanmış.

Qayıt gəl, sevgilim, qayıt bir axşam,
Ayrılıq dərdini səhər çəkmişəm.
Ümidlər həmdəmim olsa da müdam,
Hicranın əlindən nələr çəkmişəm.
Ayrılıq qapımı döyəndən bəri
Tale gülməmişdir üzümə bir an.
Qovub bir-birini ömrün illəri,
Arzular baxmamış sözümə bir an.
Yollarda qalmasın könül, göz daha,
Qayıt gəl, yolunu gözləyir ürək.
Görüşü qoymayaq bir də sabaha,
Yaxşı dost qədrini dost bilsin gərək.
Gülmüş həyatımda bircə gün üzüm,
O gün ki, gözünə sataşmış gözüm.

## TAPARDIM SƏNİ

Dünyada ən gözəl anları belə
Əbədi saxlamaq olmaz heç zaman.
Fəqət xatirələr yaşayır elə,
Bəzən keçmişilə yaşayır insan.
Şirin xatirələr acı anlarda,
İnsan ürəyinə bir dayaq olur.
Acı xatirələr çətin zamanda
Həyatın özünə bir sınaq olur...
Səni itirdiyim günlərin üstdən
Boranlar, tufanlar, yellər keçsə də,
Fəqət xatirəni unutmadım mən.
Gözümdən gurlayan sellər keçsə də,
Ürəkdən silinməz xatirələrdən
Min bir piramida yaratmadım mən.
Səni hər diyarda axtarıb gəzən,
Könlümdür, sevgilim, mən deyiləm, mən.
Otaq, ağır sükut, pəncərədə qar...
Çöldə külək əsir, ildırım çaxır.
Soyunmuş elə bil yaşıl ağaclar,
Şüşənin ardından kədərlə baxır.



Mən səndən uzağam neçə zamandır,
Gözümdə ağaran yollardır indi,
Sənin ayrılığın necə yamandır,
Sənsizlik hər şeydən mənə çətindi.
Demə ki, hicrində gözlərim dolar,
Sevinc həyatımdan uçar quş kimi,
Gənclik tez yığışar, tez düşər yola,
Yanımda qalmaqdan yorulmuş kimi.
Yox, yox, inanıram, inanır ürək;
Səni tapacağam bir səhər çağı.
Ömür yoldaşıdır mənə bu istək,
Arzular bəzəyər daşı, torpağı,
Qəlbimdə intizar, ürəkdə təlaş,
Gözümdə ağaran yollar uzanır.
Çıxardım səfərə indicə bir baş,
Ürəkdə ayrılıq məşəli yanır,
O məşəl kompasım olardı yəqin,
O zaman yormazdı bu yollar mənt.
Səfərim nə qədər olsa da çətin,
Axtarıb, axtarıb tapardım səni.

## SƏHƏR, GÜNORTA, AXŞAM

Nə gözəldir səhərin şəfəqləri yananda,
Əvəzsizdir kainat təbiət oyananda.
Oyananda meşələr, oyananda ağaclar,
Oyananda yamyaşıl, zümrüd rəngli yamaclar,
Göz dikəsən alışan, yanan dan ulduzuna,
Səhərlərin hamıdan tez oyanan qızına.
Göz dikərək baxasan dan ulduzu batanda,
Al Günəş də üzündən örpəyini atanda.
Gözəldir günortanın hərarətli çağları,
Günəş qızdıran zaman, səhraları, bağları,
Çayların sularını isindirəndə Günəş,

Göydən günorta çağı yerə yatanda atəş,
Sevirəm səhər kimi alışan qürubu mən,
Kaş onu illər boyu seyr edəydim yenidən.
Quşların bulud kimi göy üzünü aldığı
Anları sevirəm mən.
Üfüq əvvəl qızarır, sonra səma qaralır,
Meşələr fikrə dalır, yamaclar fikrə dalır.
Göylərin üzərində şəmlər alışıb yanır,
İnsanın ürəyində min bir dilək oyanır.
Sevirəm gecələri,
Gecənin özü kimi dilsiz düşüncələri.
Susum, sakit olum uşaqlığımdakıtək,
Fəqət danışsın külək.
Ötən macəraları atam bir-bir danışsın
Sonsuz maraq içində.
Onun nağıllarında seyr edim dörd fəsli mən
Kiçik otaq içində.
Sevirəm səhər kimi gecənin özünü də,
Axşamın söhbətini, axşamın sözünü də.
Fəqət sən bizimlə ol,
Hamı evində olsun.
Piyaləmiz qürubun sevinci ilə dolsun,
Gecənin sükutunu pozmasın güllə səsi.
Qaralmasın kimsənin sinəsində nəfəsi,
Nə hərb olsun, nə də qan.
Sevirəm təbiətin hər çağını hər zaman,
Günortanı səhərdən, səhəri günortadan
Ayıra bilmir ürək.
Hər günün, hər bir anın
Öz sonsuz bəzəyi var.
Həyat olsun həmişə,
Bir də böyük arzular.
Ömr eləsin, yaşasın
Hər insan bu dünyada
Nə qədər ki, arzular.
Günorta axşam olsun, axşam səhər gətirsin,
Gələn hər bir günümüz yeni zəfər gətirsin.



Mən olmasam da əgər,
Seyr etsin balalarım.
Duysun gözəlliyini təbiətin, varlığın.
Bəlalardan uzaqda –
Azad olmuş torpaqda,
Daşın atsın darlığın.
İnsanlar ömr eləsin bu dünyada doyunca.
Çox demirəm, yaşasın hər kəs öz məhəbbəti,
Arzuları boyunca.

## BİZ İNDİ AYRILDIQ

Necə yaradardım surətini mən;
Vəfalı, mehriban, qayğıkeş, mətin.
İllərlə qəlbimdə həsrətin yatır,
Gözümdə, könlümdə qalmış surətin.

Ürəyin bir ümman, göz yaşlarınsa
Hesabsız, qiymətsiz mirvarilərtək.
Ruhunda susmayan qasırğa, tufan,
Ürəyin tufana düşmüş bir çiçək.

Təmkinin, dözümün sonsuz meşələr,
Hər dərdə, hər qəmə məkan tapılar.
Ürəyin nə yatar, nə də dincələr,
Səndə hər qayğıya imkan tapılar.

Ayda, ildə sənə bir məktub yazar,
Alışıb yanıram həsrətində mən.
Bir əlim yazdıqca bir əlim pozar.
Yaxşıyam nigaran olma heç də sən.

Adına həsrətdir dəftər-kağızım,
Yolumu gözlərdi yanaşım ona.
İndi artıq yoxsan, daha nə yazım,
Əbədi sənsizəm, sənsiz, ey ana.

Uzaqdan üstümə düşərdi kölgən,
İndi nə qayğın var, nə məhəbbətin.
Bir görüş arzusu qaldı, bir də mən,
Bir də ürəyimdə sonsuz həsrətin.

* * *

Hər səhər, hər axşam kəsib yolumu,
Deyirsən, sevirəm, könül ver mənə,
Neçin soruşmursan, könlüm varmı heç?
Bir də ki, ürəyim sənin üzünü,
Sənin söhbətini, sənin sözünü
Görüb eşitməyi arzularmı heç?
Baxıram üzünə cavan deyilsən,
Sevməmiş olmazsan inanıram mən.
Bəs sənin ilk eşqin, ilk sevgin hanı?
Kim bilir, gəzmisən bəlkə dünyanı,
Gəzmisən bəlkə də sən qarış-qarış...
Söylə, ey tanınmaz insan, bir danış,
Budaqdan-budağa qonan quşmusan?
Həyatda beləmi ömr edər insan?
Elə bil duyursan baxışlarımdan
Qəlbimdə dolaşan sualları sən.
– Nə deyim, dolaşıq ömür, həyatdı...
Mən onu atmadım, o məni atdı...
– Bəlkə də doğrudur sözlərin sənin,
Nurunu itirmiş gözlərin sənin,
Bir təzə qar kimi ağarmış başın,
Qırx beşi yəqin ki, ötmüşdür yaşın...
Əgər bu yaşında yalqızsansa sən
Müqəssir yenə də demək özünsən.
Həyat yollarında dolaşan insan
Eşqin yolunda da dolaşar, inan.
İndisə yolumdan çəkil əbədi,
Qara kölgə kimi gəzmə dalımca.
Döymə pəncərəmi başsız küləktək,
Olma çağrılmamış bir qonaq bunca.



Yolumun üstündə bir də görünmə,
Ardımca kölgətək gəlmə, sürünmə!
Mən öz ilk eşqimə sadiqəm, inan.
Yalnız vəfasızlar çıxar yolundan!

## HƏYAT LÖVHƏLƏRİ

İstərəm hər axşam yanında qalım,
Başını sinəmin üstünə alım,
Öpüm gözlərindən mən dönə-dönə,
Baxım camalına, baxım üzünə.
Duyğular sinəmdə alışıb yanır,
Qəlbimdə min arzu birdən oyanır.
Səni ki, sevirəm illərdir, illər,
Bunu yaxşı bilir, duyur ki, ellər.
Sən mənə doğmadan doğmasan, gülüm,
Səninlə ağlayım, səninlə gülüm.
Sən ki, həyatıma bir dürdanəsən,
İki, üç deyilsən, sən bir danəsən.
Ayrılan zamanda illərlə səndən,
Səni başqasına dəyişmədim mən.
Qəlbim bir, hissim bir, duyğum bir oldu.
Hicranın əlində peymanələrtək
Ürəyim daima boşalıb doldu.

* * *

Hər xalqın, hər elin öz adəti var:
Gözəl adətlərə sadiq qalanlar,
Məni cərgənizə qəbul edin siz!
Elin adəti var, günəşdən təmiz.
Çiçəktək açılıb, sola bilmirəm,
Vəfasız deyiləm, ola bilmirəm.
Ey kaş ki, yanımda olaydın indi,
Sənsizlik biləydin necə çətindi...
Mən çox uzaqlarda səninlə oldum,
Sənsiz olanda da səninlə oldum.

Tək səni tanıdım, başqa bir ürək
Qapımı döymədi yad bir qonaqtək.
Qəlbim bir, hissim bir, duyğum bir oldu.
Hicranın əlində peymanələrtək
Ürəyim daima boşalıb doldu.

* * *

Qəlbimdə yer salan bir xəyalımsan,
Deyim ki, eyibsiz idealımsan,
Yox, eybin az deyil, insansan sən də.
Eyibsiz göründün məni sevəndə.
Həyat yollarından keçəndə bircə,
Sən bəzən büdrəyib, bəzən dolaşdın,
Mənə elə gəlir vəfasızlığın
Bəzən sərhəddini, həddini aşdın.
Hissin arxasınca düşüb getmədim,
Bunu bacarmadım, bunu etmədim,
Mənə vəfasızlıq göstərəndə sən,
Eşqimdə alınıb satılmadım mən.
Hər şeyə bir anlıq yumub gözümü,
Nə səni alçaltdım, nə də özümü.
Qəlbim bir, hissim bir, duyğum bir oldu.
Hicranın əlində peymanələrtək
Ürəyim daima boşalıb doldu.

* * *

Belədir təbiət, belədir torpaq,
Nə qədər gözümdən olursan uzaq,
Qəlbimə o qədər olursan yaxın.
Gözəllər yanımda axındır, axın,
Kimsənin üzünə dik baxmadım mən.
Qəlbimdə, gözümdə, sözlərimdə sən.
Çiçəktək açılıb sola bilmədim.
Vəfasız deyiləm, ola bilmədim.
Fəqət bilmədim ki, biləydim barı.
Niyə çox sevirlər vəfasızları.



## SƏN YADIMA SAL

45 il, elə bil, cöz qırpımında
Ötüb keçdi desəm, olacaq yalan.
Bir an ayrılmadım Vətən yolunda
Azadlıq uğrunda vuruşmalardan.

Əgər yetmiş ilsə bir insan ömrü,
Tufanlı gəncliyim yüz ömrə dəyər.
Qocalıq başlayır, kim bilir, bəlkə,
Olacaq alova, közə bərabər.

Ulduzlar çıxacaq saysız-hesabsız,
Onların hüsnünə dalacağammı?
Dağlarda, daşlarda, düzlərdə bir də
Səhər açanadək qalacağammı.?

Gecələr ay çıxıb, dalğın, pərişan,
Mənimlə yenəmi söhbət edəcək?
Üfüqdən üzülüb axan ulduzu
Görəsən haraya yozacaq ürək?

Günəşin ruh verən hərarətini
Bir də nəfəsimdə duyacağammı?
Həyatın sönməyən səadətini
Yenə öz səsimdə duyacağammı?

Səssiz gecələrdə tənha qayıqtək
Dənizə üz qoyub üzəydim bir az.
Zərrin dalğaları mirvari kimi,
Sinəmə, boynuma düzəydim bir az.

Bəli, sevəcəyəm əvvəlki kimi,
Coşqun təbiəti, igid insanı.
Onlara əbədi verdim qəlbimi,
Sevdim bu dövranı, sevdim cahanı.

Razıyam hər şeyə, sənsizliyə yox,
Nə qədər mən sağam sən yanımda qal!
Gözəl uşaqlığı, coşqun gəncliyi –
Ötən günlərimi sən yadıma sal!

# Mənə özümdən yaxın

## MƏNƏ ÖZÜMDƏN YAXIN

*Şerimə*

Mənə özümdən yaxın,
Görən gözümdən yaxın.
Mənə doğma balamdan,
Şirin sözümdən yaxın.
Mənə özümdən yaxın.

Duzumsan, çörəyimsən,
Arzumsan, diləyimsən,
Sən elə ürəyimsən.
Mənə canımdan yaxın,
Ürək qanımdan yaxın.

Taqətimsən dizimdə,
Gur işıqsan gözümdə,
Elə sənsən özüm də.
Mənə özümdən yaxın,
Görən gözümdən yaxın.

Neylərdim olmasaydın,
Dərdimə qalmasaydın,
Bir şirin şərab kimi,
Qəlbimə dolmasaydın.
Bəxtiyarlığım da sən,
Elə varlığım da sən.

Qəlbimin sənsən səsi,
Doğmalarım əvəzi.



İtkilərim əvəzi,
Mənə balamdan yaxın,
Yaxın sonamdan yaxın.

İlk məhəbbətim də sən,
Könül həsrətim də sən,
Eşqim, ülfətim də sən.
Mənə özümdən yaxın,
Görən gözümdən yaxın.

Məni hamı atsa da,
Sən atmazsan dünyada.
Unutmazsan dünyada.
Sənsiz mən yaşamazdım,
Bilir bunu dünya da.
Mənə canımdan yaxın,
Ürək qanımdan yaxın.

Ellərimə etibar,
Yenə sənsən, yenə sən.
Mənə olan havadar,
Yenə sənsən, yenə sən.
Mənə balamdan yaxın,
Mənə havamdan yaxın.

Mətinsən, səbirlisən,
Qızılgül ətirlisən.
Sən röya ətirlisən.
Yanımda sən hamıdan –
Hamıdan xətirlisən.
Mənə özümdən yaxın,
Görən gözümdən yaxın.

Səninlə bölüşürəm
Dərdi dərdli çağımda.
Səninlə görüşürəm
Gülşənimdə, bağımda.

Qaynayıb qarışıram
Aranımda, dağımda.
Mənə özümdən yaxın,
Görən gözümdən yaxın.

İncimәsin sevgilim,
İncimәsin anam da,
Sәnsәn mәnim öz gülüm,
Gözәl, nazlı sonam da.
Suyumdan, çörәyimdәn,
Arzumdan, dilәyimdәn
Mәnә havamdan yaxın,
İsti yuvamdan yaxın.

Sәnintәk bu dünyada
Bir vәfalı tapılmaz.
Sәnsiz hicran hәsrәti
Ürәyimdәn qapılmaz.
Mәnim havadarımsan,
Gözәl dünyalarımsan.

Sәn Araz havalısan,
Sәn hicran nәvalısan.
Sәnsiz yaşamam inan.
İnan sәnsiz köçmәrәm –
Sәnsiz qoca dünyadan.
Mәnә özümdәn yaxın,
Görәn gözümdәn yaxın.

Sәn qüvvәtsәn dizimdә,
Bir dünyasan gözümdә,
Elә sәnsәn özüm dә.
Mәnә özümdәn yaxın,
Görәn gözümdәn yaxın.



## ŞERİM

Ömür günlәrim kimi
Ağlı, qaralı şerim,
Tәrlan havalı şerim.
Ürәk uçur aramsız
Könül rahatlığımı
Mәndәn alalı şerim.

Sәn büllursan, incisәn,
Qәlbimin sevincisәn.
Tәbrizimin kәdәri,
Dәrdi, mәlalı şerim,
Gәlin hәyalı şerim.
Qәlbimin hәzin sәsi,
Körpәmin nәfәsisәn.
Azadlıq tәranәsi,
Qurtuluş nәğmәsisәn,
Bahar havalı şerim,
Elli, obalı şerim.

Gәzmisәn hәr oylağı,
Sinәndә hicran dağı.
Xәzana düşsәn dә sәn,
Olma xәzan yarpağı,
Zirvәsi ildırımlı,
Dağlı, qayalı şerim,
Ucalt yüksәkliklәrә
Fikri, xәyalı şerim.

Kükrәtsin sellәr sәni,
Yaşatsın illәr sәni,
Qoymaram damğalasın
Hәr acı dillәr sәni.
Qaynar hәyatlı şerim,
Durna qanadlı şerim.

Meylimi bu dünyada
Sənə saldım bircə mən.
Səni duyğularımdan
Toxumuşam incə mən.
Sevinmişəm alovlu
Eşqinə düşüncə mən.
Dolan buludlar kimi
Hərdən qaralı şerim.
Yersiz qüssə, ələmdən
Dərddən aralı şerim.

Məni həyat yolunda
Həmişə ucaltmısan.
Alçaltmaram səni mən,
Alçalmaram heç zaman.
Şerim, çəkinmə bir an
Döyüş fırtınasından.
Bahar havalı şerim,
Elli, obalı şerim.

## QƏLBİMİN PARÇASI

Qəlbimin parçası hər şerim ki, var,
Ürək ağrılarım, ürək qanımdır.
Oxusun qəlbimi şair olanlar,
Görsün şeirlərim ruhum, canımdır.

Ömrümü bəzəmiş vərəqparələr,
Gecə də, gündüz də könül həmdəmim.
Həyat gülzarından qayıdıb gələr,
Min çiçək qoxlamış ilhamım mənim.

Vuruşar, çarpışar, yıxılar, durar,
Riya duyğusuna qarışmamış o.
Vuruş meydanında vurular, vurar,
Namərdlə, alçaqla barışmamış o.



Axşam yuvasına uçan quş kimi
Səhər uçub getmiş ilhamım gələr.
Bəzən sıxıntıdan yorulmuş kimi
Yenə də köksümdə qalıb dincələr.

Ən yaxın həmdəmim, yoldaşımdır o,
Qədəhim bircə gün onsuz dolmamış.
Sevgilim, həsrətim, sirdaşımdır o,
Hələ ondan yaxın kimsəm olmamış.

Hər gecə onunla baş-başa qalan
Xoşbəxt bir insanam, bir insanam mən.
Mənimlə, ey həyat, qəlbincə dolan,
Onsuz da hər dərdə bir loğmanam mən.

Ürəklər dərdini oxuyan mənəm,
Mənimdir könüldən qopan arzular.
Diləklər yelkəni toxuyan mənəm,
Mənim öz dənizim, öz yelkənim var.

Hər şerim bir arzu, bir istək bağı,
Onu küləklərdən qoruyar zaman.
İlhamla dağ üstə qoyaram dağı,
Təki qoy dayaqsız olmasın insan.

Arzular qədəhi sözlərim ki, var,
Ömrün içilməmiş piyaləsidir.
Nəğmələr yuvası gözlərim ki, var,
Ömrün öz haləsi, öz haləsidir.

Sinəm bir dənizdir, tufanlı dəniz,
Bəlkə bircə sözüm olacaq inci.
Elə bu biri də bəsimdir yalnız,
Qəlbim, bir kimsədən nə küs, nə inci.

Şerim bu dünyada çiçəkli bir bağ,
Sözlərim söyüdün salxımlarıdır.
Şəninə söz qoşdum, ey ana torpaq,
Bəlkə ömür bitmiş, bəlkə yarıdır.

Narazı deyiləm, nə olur-olsun,
Bu dünya dünyaya qalacaq tamam.
Qoy həyat badəsi sevinclə dolsun,
Mən gəlib gedənlər sırasındayam.

Gəlməyə bilərdim mən yerli-dibli,
Gəlmişəm, dünyanı gəzib görmüşəm.
Kimsədən deyiləm zərrə gileyli,
Doğulub, yaşayıb, ömür sürmüşəm.

Hamı yüz yaşasın qoy məndən sonra,
Olmasın kimsənin səadəti kəm.
Vaxtsız bir ölüm də qoy indən sonra,
Olmasın, olmayım mən özüm, nə qəm.

Yaratdın, yaşatdın məni, a dünya!
Yüz kərə, min kərə minnətdaram mən.
Vurğunam özünə, adına, dünya,
Çiçəklən həmişə, novbahar ol sən.

## DANIŞACAĞAM

Bir qadın dərdi qalana qədər dünyada,
Danışacağam.
Uzaqlarda, ucqarlarda olan ana dərdinə
Yanıb alışacağam.
Danışacağam,
Dünyada bir qadın, bir ana dərdi qalana qədər!
Nəsildən-nəsilə çəkmişik nələr!
Sənə layiq əsərim olmamış,
Ey ellər sonası
Ana!
Ey ülvi varlıq,
Bütün varlığımla bağlıyam sana.
Yazıb yaratmamışam, əsil surətini mən,
Danışmamışam dözümündən, mətanətindən.



Ey vəfalı, mehriban,
Ey müdrik insan,
Danışmamışam böyük arzularından.
Ey özündən başqa hamıya yanan,
Sinəndə necə də böyükdür ürək,
Göz yaşların mirvaritək.
Qəlbin bir ümmandır,
Hər dərdə, hər qəmə yer tapılar,
Qəlbin bir dənizdir,
Ey ana,
Araz havalı.
Həyatın qaynar bir ümmandır, –
Tufanlı, qadalı.
Görkəmin dağ vüqarlı çinar.
Ey vəfalı, mehriban,
Ey əvəzsiz insan.
Sən duyursan hər dərdi ürəkdən,
Qarşında baş əymişəm,
Baş əyirəm mən.
Sevinirəm, fəxr edirəm,
Ana!
Ağ olmamışam sənə.
Səni xatırlayıram hər saat, hər an
Gözlərin qaynardı bulaqlar kimi,
Dərdin ağırdı bu dağlar kimi.
Sənsiz başımda od qaladı zaman,
Sənsiz həyatın dadı qaçmış ağzımdan...
Sən susardın dərdlər önündə,
Haqsızlığa sən susardın ana,
Mən danışardım,
Yenə danışıram.
Mən hər işə qarışardım,
Ana!
Yenə qarışıram.
Sənin ağır, dözülməz həyatına,
Taleyinə, ey böyük insan,
Məşəl kimi alışardım,
Yenə alışıram.

## MƏNİM RUHUMU ÇƏK

Mənim ruhumu çək, ruhumu, nəqqaş,
Görənlər hər yerdə tanısın məni.
Qəlbimdə, könlümdə, ruhumda təlaş,
Sevirəm, sevirəm eli, Vətəni.

Mənim ruhumu çək, ruhumu, nəqqaş,
Göstər, tale ilə barışmadım mən.
Qəlbimdə, ruhumda, könlümdə təlaş,
Axına qaynayıb qarışmadım mən.

Mənim ruhumu çək, ruhumu, nəqqaş,
Yalanı, riyanı bıçaqlamışam.
Elimlə bir dəfə gülmüşəmsə mən,
Vətən həsrətilə yüz ağlamışam.

Mənim ruhumu çək, ruhumu, nəqqaş,
Tərif diləsələr, gəlməz əlimdən.
Məni başqa cürə yaratmış həyat,
Qəlbə zidd getməyi bacarmadım mən.

Mənim ruhumu çək, ruhumu, nəqqaş,
Desələr, bir dəfə düzlüyə göz yum,
Hissim, duyğularım keçirər təlaş,
Mənim öz fikrim var, öz düzgün yolum.

Mənim ruhumu çək, ruhumu, nəqqaş,
Həssas bir şairəm, sadə bir insan.
Dövlətim, sərvətim bunlardır ancaq,
Ömrüm qayğılarla keçdi hər zaman.

## LAYLAY

Dəniz qoparır haray,
Qızım, laylay, a laylay,
Laylay deyir sənə, bax,
Şır-şır axan bulaq, çay.



Böyü, boya-başa çat,
İşindən, əməlindən
Sən ana ürəyimdə
Gözəl bir aləm yarat.
Qızım, laylay, a laylay,
Körpə quzum, a laylay.

Qoy elin məhəbbəti
Qəlbində izlər açsın,
Sənin xəyal şəhpərin
Dağlar, dənizlər aşsın.
Qızım, laylay, a laylay,
Quzum, laylay, a laylay.

Ürəyində həmişə
Qanad çalsın arzular,
Ürəyim sənə daim
Səadətlər arzular.
Qızım, laylay, a laylay,
Quzum, laylay, a laylay.

Ömrün uzun, ürəyin
Qanadlı bir quş olsun.
Gözəl həyat bağında
Sevincə qonmuş olsun.
Qızım, laylay, a laylay,
Körpə quzum, a laylay.

Sənsən arzum, istəyim,
Yuxla, ömür çiçəyim.
Qoy sənsiz bir saat da
Döyünməsin ürəyim.
Qızım, laylay, a laylay,
Körpə quzum, a laylay.

Qoy çəkdiyim əzablar
Sənə ömür bağında
Bollu bəhər gətirsin.

Səadətə yetirsin
Səni gənclik çağında.
Qızım, laylay, a laylay,
Körpə quzum, a laylay.

Həyatın bir günəş tək
Parlaq olsun həmişə.
Səni qaldırsın həyat
Aya, göyə, Günəşə...
Qızım, laylay, a laylay,
Quzum, laylay, a laylay.

Ay dağlara çəkildi,
Keşiyində durum mən.
Gözümə yuxu getməz,
Yuxla, ömrüm, günüm, sən.
Qızım, laylay, a laylay,
Quzum, laylay, a laylay.

Gecə keçdi yarıdan,
Yuxuladı el-oba, yat.
Ağır həyat yolunda
Səni qorusun həyat.
Qızım, laylay, a laylay,
Quzum, laylay, a laylay.

Dəniz qoparır haray,
Qızım, laylay, a laylay,
Sənə laylay deyir, yat,
Uzaqlarda bulaq, çay.
Qızım, laylay, a laylay,
Körpə quzum, a laylay.

*1959*



## SƏNİ QƏLBƏN SEVİRƏM MƏN

Sən gözəlsən bahar qədər,
Aylar, illər, qərinələr
Yetirməmiş sən tək mələk.
Sənə vurğun könül, ürək.
Vəsfində mən deyim nələr?

Gəzdim vəslin sorağında,
Bütün Vətən torpağında
Tapılmadı sən tək canan.
Söylə, nələr çəkmiş hər an
Ürək, könül fəraqında?

Məclislərin söhbətisən,
Gözəllərin ziynətisən,
Sən həyatım, sən sevgilim,
Ürəkdə gül açar, gülüm,
Bir an baxsam üzünə mən.

Ötüb keçsə yaşım mənim,
Ağarsa da başım mənim,
Yenə sevgi, məhəbbətdir,
Elə sonsuz sədaqətdir
Həyatda yoldaşım mənim.

Gəncliyimin ilk baharı,
Elin böyük arzuları
Ürəyimin sirdaşıdır,
Mənə ömür yoldaşıdır
Gözəl gənclik duyğuları.

Deməsinlər ölüm bir gün
Həyatıma gələr üstün.
Qəlbim yanıb alışmasa
Şerim bir gün danışmasa,
Şair olar o gün küskün.

Ağ günlərə verin xəbər:
Yola çıxmış bizim ellər.
Qulaqlar yenə səsdədir,
Mənim gözüm yol üstədir,
Onu gözlər, onu gözlər.

Yurdum, yerim yaşıl çəmən,
Bir qonaq gəl yurduma sən.
Gözəl bahar, səni səslər,
Şerim, sözüm səni bəzər,
Səni qəlbən sevirəm mən.

*1959*

## İSTƏRƏM

İstərəm bu dünyada elə ömr eləyim ki,
Hərarətim günəş tək məndən sonra da qalsın.
İstərəm bu dünyada elə ömr eləyim ki,
Eşqim, özümdən sonra yenə qalxıb ucalsın.
Tufandan, fırtınadan, sonra sakit səmadə.
Aydın göy qurşağı tək yerlərdə qalsın izim.
İstərəm bu dünyada elə ömr eləyim ki,
Əyilməsin şöhrətə, ada, sərvətə dizim.
İstərəm bu dünyada elə ömr eyləyim ki,
Yaşayım çiçəklərin ətrində səhər, axşam.
Məndən sonra da gülsün, yenə ana təbiət,
Ömründə bircə an da qəmlənməsin bir insan.
İstərəm bu dünyada elə ömr eləyim ki,
Yaşayım gənc quşların nəğməsində, səsində.
Asılsın arzularım illərin yaxasından,
Yaşayım al günəşin yandıran nəfəsində.
İstərəm bu dünyada elə ömr eləyim ki,
Yada düşüm ellərin sevincində, qəmində.
Gənclər sevilən zaman yadına salsın məni,
Yaşayım uşaqların uşaqlıq aləmində.



Çiçəklər rayihəsin yenə də məndən alsın,
Axtarsın güllər məni açılanda hər bahar,
Yaşayım qaranquşun ilkin nəğmələrində,
Arzumla çiçək açsın ürəkdəki arzular.
İstərəm bu dünyada elə ömr eləyim ki,
Ayın şüalarında axım yerə hər gecə.
Buludlar karvanında daim yaşatsın məni,
Odlu bir şimşək kimi öz arzum, öz düşüncəm.
Gəlinlər toylarında yadına salsın məni,
Qızlar öz sazlarında oxuyub çalsın məni.
Şirin duyğular kimi könüldən qəlbə axım,
Gələcək səadətə, ağ günə bir də baxım.
Yaşayım bir ömr də təmiz diləklərdə mən.
Ömr eləyim, yaşayım çılğın ürəklərdə mən.

## İNANMA

Əgər gəlib desələr tufanlar almış məni,
Sıldırım qayalara, daşlara çalmış məni.
Gətirmə xatirinə ölümümü bir an sən,
Bil ki, hər fırtınada, tufanda ölmərəm mən.

Əgər gəlib desələr dənizlərdə batmışam,
Dalğaların qoynunda əbədilik yatmışam.
İnanma ölümümə, inanma heç zaman sən,
Bil ki, hər fırtınada, tufanda ölmərəm mən.

Əgər gəlib desələr, payız küləkləri tək,
Həzin nəğmələr deyir sinəmdə coşqun ürək.
İnanma bu sözlərə, inanma heç zaman sən,
Hər xəzan küləyinə bil nəğmə qoşmaram mən.

Əgər gəlib desələr, unutmuşdur andını,
Ayrılığın əlində bir şam kimi yandımı?
Deyib öz ürəyində bunu dərd eyləmə sən.
Bil ki, hər bir alovdan yanıb kül olmaram mən.

Əgər gəlib desələr, soyumuşdur baxışım,
Qəmlə başa vurulur, hər baharım, hər qışım,
İnanma, gördüyün tək çılğın ürəkliyəm mən,
Döyüşlərə səninlə atılaram yenidən.

Əgər gəlib desələr yazı-pozunu atmış,
İlhamdan xeyli uzaq bir diyarda o yatmış,
İnanma deyilənə, inanma heç zaman sən.
Bil ki, .öz qələmimdən ayrılan deyiləm mən.

Əgər gəlib desələr şerim susmuşdur artıq,
İlhamımın gözünə çökmüş qatı qaranlıq.
Öləndə son arzumu əgər bilmək istəsən;
Bir şeir həsrətilə köçərəm dünyadan mən.

## ARZULAR

Kaş yenidən doğulaydım mən bu geniş dünyada,
Bir də, bir də qayıdaydı o uşaqlıq illəri.
Azad quş tək qanad çalıb, dolanaydım havada,
Hərarətlə seyr edəydim mən soyuq fəsilləri.
Bir uşaq tək həyatımı şən, qayğısız görəydim.
Dırmaşaraq ağaclara bir də kal-kul dərəydim.
Kaş uşaqlıq arzuları bir də qanad açaydı,
Göylər sevən xəyallarım səmaları qucaydı.
Gənclik bir də qayıdaydı, gözəl gənclik bir daha,
İntizarla açılaydı hər bir gecəm sabaha.
Mənə bir də qovuşaydı, məğrur on səkkiz yaşım,
Kaş döyəydi qapımızı bir də gənclik yoldaşım.
Kaş ilk eşqim, ilk sevincim bir də qaçıb gələydi,
Qulağımda ilk eşqimin nəğməsi yüksələydi.
Ürəyimdən siz ey şirin, ey acı xatirələr,
Nə silinib, nə getdiniz, vəfalısız nə qədər.
İstəyərdim ötən günlər, uşaqlıq və cavanlıq,
Sizin kimi ürəyimi atmayaydı bir anlıq.



Kaş ömrümün qayıdaydı fırtınalı illəri,
Azadlığa çağıraydım yenə məhkum elləri.
Xalqın, elin səadəti yollarında yenə mən,
Mübarizə yollarına atılaydım yenidən.
Kaş bir deyil, bu dünyada ömrüm iki olaydı,
Biri deyil, hər ikisi eliminki olaydı!

*1959*

## MƏKTUB

Mən bu gün öz oğlumu məktəbə göndərirəm.
Budur, sütül dişləri təzə tökülmüş onun.
O hələ yaxşını da pisdən ayırmır bəlkə,
Açılmamış qönçədir kiçik qəlbi oğlumun.
Onu, yoldaş müəllim, sizə tapşırıram mən,
Onun səadətini gözləmirəm özgədən.

Təlim, tərbiyə vermək sizə olmuşdur peşə,
Gənc nəslin səadəti sizinlədir həmişə.
Qoy oğlumun gözündə ümid ulduzu yansın,
Qəlbində insanlığa pak duyğular oyansın.
Sizə, yoldaş müəllim, sözüm sizədir yalnız,
Arzumdan, istəyimdən siz olmayın aramsız.

Gələcək nəsillərin qüruru, mətanəti,
Vətəninə, xalqına, elinə sədaqəti,
Mənim kimi sizin də öhdənizə düşür, bax,
Onu əyintilərdən siz qoruyarsız ancaq.
Qoy olsun, əlinizlə ləyaqətli bir insan,
İnsanlıq, insan üçün hər şeydən vacib, inan!
Qəlbini, siz, əməyə alışdırın oğlumun,
Doldurun ürəyini həyat eşqiylə onun.
Sizin məhəbbətiniz, məktəbin məhəbbəti,
Yaxın qoymaz oğlumun ürəyinə möhnəti.
Qoy gül açsın balamın qəlbindəki arzular,
Anaların ürəyi yalnız bunu arzular.

*1959*

## ÖZGƏ DƏRDİ

– İnsanı tez qocaldar dünyada özgə dərdi, –
Hələ uşaq yaşımdan anam mənə deyərdi:
– Dərdlərimiz az deyil, öz dərdini çəksənə!
Həyat ağır yük olur özgə dərdi çəkənə.
Öz dərdi var, qəmi var dünyada hər insanın,
Dərdə yoldaş olacaq qəlbi həssas olanın.
Ağıllı ol, dünyada hər dərdə olma həmdəm,
Bir də deməyim sənə:
"Bala, öz dərdini çək, özgələrdən sənə nə?!" –
Nənə, mən bacarmadım, bağışla məni, heyhat!
Mənə özgə dərdini həmdəm etdi bu həyat
Dərd bir oldu,
Ay nənə,
Öz dərdim, özgə dərdi.
Dilim başqa söz dedi,
Əməlin nə əkdisə,
Əllərin onu dərdi.
Həssas idin sən özün,
Anam səndən də həssas.
Bir şeyi doğru dedin,
Həssas olan insandan
Həyat alarmış qisas...
Həyatın yollarında rahatlıq gəzmədim mən,
Tapdayanda haqqını kimsənin, dözmədim mən.
Mənim qarışmadığım bir iş belə qalmadı,
Yanıb alışmadığım bir gün belə olmadı.
Haqsızlığa, hicrana üsyan etdim həmişə,
Qoy haqqı, ədaləti mən qaldırım günəşə.
Göyün göy qübbəsində,
Ən yüksək zirvəsində,
Yansın ədalət sözü,
Günəş ondan od alıb,
Alışıb yansın özü.
Əməl edə bilmədim, nənə, vəsiyyətinə,
Mən sadiq qaldım ancaq həyat həqiqətinə.
Nənə, bağışla, heyhat!
Məni başqa biçimdə yaratmışdır bu həyat.



## DAĞLAR

Dağlar,
Vüqarlı dağlar,
Ey başı qarlı dağlar.
Sizi duman alanda,
Qoynunuz, qucağınız
Bulud ilə dolanda,
Başım üstdə elə bil
Qatı duman dolaşır.
Siz buludsuz olanda
Sevincim dağlar aşır.
Dağlar!
Ey uca dağlar,
İxtiyar, qoca dağlar,
Mətanətdə, vüqarda
Bənzəyəydim sizə kaş,
Dözümüm sizin qədər
Olaydı bu dünyada,
Qəlbimdə, ürəyimdə
Görünməyəydi təlaş.
Dağlar!
Ey ulu dağlar,
"Çeşməli, sulu dağlar",
Qəlbimdə vulkanları
Gizləyəydim sizintək.
Sellərə, tufanlara
Dözəydim sizin kimi,
Sarsılmayaydı ürək.
Başımda
Fırtınalar,
İldırımlar çaxaydı, –
Dayanaydım təlaşsız,
Şah vüqarlı – sizintək,
Zirvələrdən həmişə
Məğrur-məğrur baxaydım...
Sellər, gur şəlalələr
Ötüb-keçəydi məni.
Tufanlar, qasırğalar

Meydan seçəydi məni.
Başımda sizin kimi
Çaxanda odlu bulud
Sükut edəydim, sükut,
Dinib-danışmayaydım,
Zahirimdən heç zaman
Yanıb alışmayaydım.
Yerimdən bircə an da
Tərpədə bilməyəydi
Güclü tufanlar məni,
Ötən zamanlar məni.

## MƏN GÜLMƏK İSTƏRƏM

Mən gülmək istərəm, çəkil, ey kədər!
Çəkil pəncərəmdən, çəkil, ey duman.
Çəkil, gözlərimdə gülsün üfüqlər,
Ey ələm, köç elə qəlb otağımdan.

Mən gülmək istərəm, yormuş qəm məni,
Ey ürək, hər dərdi, hər qəmi unut.
Qoy sevinən görsün bu aləm məni,
Çəkil göz önümdən, çəkil, ey bulud.

Gülüş səslərimlə hər səhər çağı,
Günəşi qaldırım öz yatağından.
Gülüşüm oyatsın yatmış torpağı,
Mənim gülüşümlə oyansın cahan.

Mən gülmək istərəm ilk bahar kimi,
Sevinclər gətirsin gülüşüm mənim.
Bütün ürəklərdə arzular kimi
Min sevinc doğursun gəlişim mənim.

Mənə qibtə etsin güllər, çiçəklər,
Gülüm, bu cahanda gülənlər kimi.
Qalxım, tezdən qalxım hər gün, hər səhər,
Gezim el-obanı xoş xəbər kimi.



Meşələr səslənsin, dağlar dil açsın,
Ay da örpəyini atsın üzündən.
Hər yerdə min lalə, min sünbül açsın,
Xumarlıq nərgizin qaçsın gözündən.

Mən gülmək istərəm, ulduzlar kimi,
Gözlərim yaşarsın, güldükcə gülüm.
Bir karvan bulud yox, sevinc olum mən,
Vətən göylərindən yağıb tökülüm.

Çaxım ildırımtək, gülüm göy kimi,
Min bahar gətirim doğma torpağa.
Yağışa döndərib bütün qəlbimi,
Yağım hər tərəfə, yağım otlağa.

Alım dodaqlardan kədər möhrünü,
Dünyada qalmasın nə ələm, nə qəm.
Salsın bu cahan da mənə mehrini,
Mənim gülüşümlə sevinsin aləm.

Qalmasın göz yaşı, qalmasın kədər,
Gülsün gözlərimdə bu yer, asiman.
Hər yana səs salsın şaqraq gülüşlər,
Gülüşün sirrini öyrənsin insan.

Mən gülmək istərəm, çəkil, ey kədər,
Dolanım hər yeri xoş xəbər kimi.
Bürüsün qəlbimi şaqraq gülüşlər,
Gülüm bu cahanda gülənlər kimi.

## DAĞLAR HAVALI GƏNCLİK

Ey mənim sabahım, mənim bu günüm,
Ey mənə canımdan, gözümdən üstün.
Elə bil işıqsan, nursan büsbütün,
Ey dağlar havalı, havalı gənclik.

Gələcək ağ günlər, səadət sənin,
Bu vüqar, bu sevgi, bu ülfət sənin,
Həyata tükənməz məhəbbət sənin,
Ey gülşən səfalı, səfalı gənclik.

Heyranam vətənə sədaqətinə,
Vurğunam sarsılmaz mətanətinə,
Təmiz niyyətinə, saf niyyətinə,
Ellərə vəfalı, vəfalı gənclik.

Əsrlərdən bəri, illərdən bəri,
Hünərin, şöhrətin dillər əzbəri.
Əməyin, zəhmətin tutmuş hər yeri,
Ey qartal ədalı, ədalı gənclik.

Eşikdə istəkli, evdə istəkli,
Ey böyük arzulu, böyük diləkli,
Ata qeyrətli ol, ana ürəkli,
Bulaqlar nəvalı, nəvalı gənclik.

Qoyma ilk eşqinin gülşəni solsun,
Vüsal bir mey kimi badənə dolsun.
Ay da, ulduzlar da köməkçin olsun,
Ey günəş ziyalı, ziyalı gənclik.

## MƏNDƏN SONRA

Sən ey şerim, darıxma gəl,
Məndən sonra
Sən yenə də qalacaqsan.
Məndən sonra
Sən ellərə,
Bir də duyan könüllərə
Yenə həmdəm olacaqsan.
Cavan aşiq öz sazında
Səni yenə çalacaqdır.



Ürəklərdə, diləklərdə
Sənin yerin olacaqdır.

Sən ey şerim, darıxma gəl,
Hicran sənin yollarından
Duman kimi uçacaqdır.
Sənin əlin
Könüllərin
Qapısını açacaqdır.
Sən ey şerim, darıxma gəl,
Sən vüqarla yaşamısan,
Yenə yaşa.
Qürür ilə, mətanətlə dolanmısan,
Vur ömrünü belə başa.

Şəlalətək qalacaqdır
Bu dünyada sənin səsin.
Öz ətrin var, öz görkəmin,
Öz istəyin, öz nəfəsin.

Bəzən yanar od olmusan,
Bəzən sular kimi dalğın.
Bəzən bahar kimi kövrək,
Bəzən payız kimi dolğun.

Bəzən günəş, bəzən bulud,
Bəzən bir ney nəvalısan.
Sən ki, dağlar havalısan,
Gəl hicran dərdini unut.

Dağ havalı, dağ küləkli,
El arzulu, el diləkli.
Bəzən kövrək, bəzən coşqun,
Bəzən oynaq, bəzən dalğın.
Yarandığın o ilk gündən,
Həmdəmisən sən bir elin,
Sən bir xalqın.

## MƏNƏ DEYİRLƏR Kİ...

Mənə deyirlər ki, sən,
Vurğunsan həyata...
İşıqlı, nurlu kainata.
Bəli, görün vətənimdə
Həyat necə gözəl,
necə təmizdir,
Təmizlər necə əzizdir.
İstəmişəm,
dövlətlər içində dövlətimin,
sərvətlər içində sərvətimin,
Şan-şöhrətimin
yeri görünsün.
İnsan öz işi ilə, əməli ilə
öyünsün.
İstəmişəm,
ürəklər qara bulud kimi dolmasın.
İstəmişəm,
Xalqımın dağlardan uca alnında
Bircə ləkə olmasın.
Gəzin eli-obanı,
Gəzin, bütün dünyanı,
Yaxına, uzağa baxın,
Duyğutək könüllərə axın,
Görün ki, hər bir insana
Ən yaxşı, ən isti sığınacaq
Vətəndir ancaq.
İnanın,
Yarısını gəzmişəm dünyanın.
Gözəldir torpağım düzü,
Ruhumu oxşamış
Yaşıl meşələri,
Dərəsi, düzü.
Mənə deməyin ki, niyə
Məftunam bu torpağa,
Bu torpağın yazına, qışına,
Baharına.
Bu elin, bu diyarın qızıyam, qızı,



Sevirəm öz doğma göylərimdə
Yanan günəşi,
Parlayan ulduzu.
İstəyirəm həmişə vətənimlə
Fəxr etsin həyat,
Öyünsün kainat.

Üzün gözəl, çöhrən işıqlı,
Görkəmin dağ vüqarlı,
Çinar yaraşıqlı.
Gözlərin
Dənizlər kimi dərin,
Mavi və dalğın.
Saçların ipək kimi yumşaq,
Baxışların çılğın,
Sinənin genişliyi
Sal çayını xatırladır mənə.
Çılğın baxışın
Ürəkləri məftun edir yenə,
Bəlkə də çoxları sənə...
Fəqət bir eybin var,
Qəlbimi bezikdirən,
Darıxdıran,
Ey gözəl insan!
Qəlbində sənin ki,
Yoxdur gözəl arzular.
Əsl varlıq ürəkdir,
Mənə gözəl arzular gərəkdir.

## HARDASAN

Anamla sevincim axşam itəndə,
Məni səhər çağı tapdı iztirab.
Ayrılıq gələndə, vüsal bitəndə
Sandım bitdi ömrüm, bağlandı kitab.

Məni salamladı məcnun söyüdlər,
Dayanıb yollarda əydi başını.
Yuxusuz gecələr, uzun gecələr
Ay durub göylərdə çatdı qaşını.

Üstümə çiləndi seylan yağışlar,
Bəlkə qubarımı dağıtsın deyə.
Məni hər diyarda axtardı bahar,
Qəlbimə sevinclər axıtsın deyə.

Tale gülümsədi üzümə hərdən,
Gəncliyin şənliyi yadıma saldı.
Qəlbim ayrılmadı sıx meşələrdən,
Baharın, xəzanın hüsnünə daldı.

Dənizlər, bulaqlar, gur çaylar mənim,
Meşələr mənimdir, zəngin, varlıyam,
Göylərə ay kimi, dan ulduzutək,
Yerlərə günəştək etibarlıyam.

Kömək gözləmədim heç bir kimsədən,
Köməyim, dayağım zəhmətim oldu.
Şöhrət arxasınca gəzməsəm də mən,
Ellərdə öz adım, şöhrətim oldu.

Hər dərdə alışdım geniş dünyada,
Fəqət ana dərdi unudulmadı.
Bəzən qanad açdım azad havada,
Hər şeyim oldusa, anam olmadı.

Ellər, qınamayın, bu ayrılıqdan
Könül bulağımı qurutdu həsrət.
Başımda elə bil od qalar zaman,
Hardasan, hardasan ana məhəbbət?

## DÜNYA XALİ DEYİL

Dünya xali deyil, inanıram mən,
Sən əsl insanı ilk gündən tanı.
Böyük arzularla dolanıram mən,
Dünyada hər dərdin yetişir sonu!

Dözümüm dağ qədər, səbrim dağ qədər,
Mənimçün əyləncə deyildir həyat.



Gələcək naminə ötən nəsillər
Yaşadı, yaratdı, gülmədi, heyhat!

Qəlbimdə yeri var sevincin, qəmin,
Güləndə gülərəm ancaq ürəkdən.
Kədər pəncərəni döyəndə sənin,
Qapıma göndərsən, incimərəm mən.

Bizimki gətirmir, deyəndə bəzən
İnan ki, bu sözüm ürəkdən gəlir.
Xoşbəxt doğulmuşam bu dünyada mən,
Bunu arzum bilir, diləyim bilir.

Behiştim, cənnətim bu dünya özü,
Doğmadır, əzizdir insanlar mənə.
Dərmanım dostların bir şirin sözü,
Dar gündə dayağım onlardır yenə.

Dünya xali deyil, inanıram mən,
Sən əsl insanı ilk gündən tanı.
Böyük arzularla dolanıram mən,
Dünyada hər dərdin yetişir sonu!

## LAQEYDLİK

Bəli, cəzası var hər cinayətin,
Laqeydlik dünyanın ən böyük dərdi.
Əllərim, gözlərim, dişim, dırnağım
Bu dərdi kökündən didər, didərdi.

Ürəkdə başlayır, ürəkdə gəzir
Özündə bu soyuq silah gəzdirən.
Laqeydlər qəlbimi doğrayır, əzir,
Etiraz edirəm laqeydlərə mən.

O, tənha yaşayır, yoxdur sirdaşı,
Girəvə düşəndə ömürdən kəsir.
Cinayət törədir hər addımbaşı,
Hər yerdə qara bir kölgətək əsir.

## ATAMIN DƏRDİ

Atamın böyükdü dərdi,
Deyərdi:
İnsanın anası gərək olsun,
Yaxud bacısı.
Onda tez çıxar canından
Hər dərdin acısı.
Biz o zaman
İnciyərdik atamdan,
– Niyə belə taleyindən
Şikayətlənir müdam?
Bəs biz, bəs anam?
Bu dərdin ağırlığını sonralar
Duydum, heyhat!
Anamı, bacımı məndən alanda həyat.

## SƏNSİZƏM

Bağa girdim, qəlbim açılmadı,
Çəmənə üz qoydum, ətir saçılmadı.
Yola çıxdım, yollar uzandı,
Göz dikdim ulduzlara,
Gözlərimdə alışıb yandı.
Dənizlərə, çaylara atıldım,
Sular qılınctək kəsdi.
Dərdimi küləklərlə bölüşdüm,
Küləklər canımda əsdi.
Sənsizəm, sənsiz,
Gözəlliyini itirir meşələr, çaylar,
Yaraşığını itirir dəniz.
Solur gözlərimdə çəmən,
Sənsiz olanda dəyişirəm mən.

Al şəfəqli səhərlərim,
Aylı, ulduzlu gecələrim,
Qəlbimi yaşadan düşüncələrim,



Həmişə uçan,
Dişi ilə, dırnağı ilə
Gələcəyə yol açan
Arzularım,
Ümidlərim,
Nələrim,
Nələrim
Yaşayır hələ.
Qanım istidir,
Gənclik, həyat eşqi
Qəlbimi bir an tərk etməmiş belə.
Üzümü səhərlər
Şehli otlara sürtürəm.
Güllərin rayihəsi,
Quşların ürək açan səsi,
Dənizlərin həyat nəfəsi,
Arzularıma verir qanad.
Baxıram, necə gözəldir həyat!
Ulduzlar yanır səmalarda gecələr,
Otağıma boylanır pəncərəmdən
Dan ulduzu hər səhər.
Gündüzlərim parlaq,
Sevinirəm, sərvətə, şöhrətə
Olmadım oyuncaq.
Küləklərə qoşuram səsimi,
Heç nə öldürə bilməmiş
Həyata həvəsimi.
Torpaq mənə qarşı əliaçıq,
Səma ürəyiaçıqdır.
Dostlar mənə mehriban,
Ağır olsa da hicran,
Fərqi yoxdur,
Öz aləmim var mənim;
Zəngin, mənalı bir dünyam,
Şeir aləmim,
O, özü bir cahandır, cahan,
Uzaqdır hər cür riyadan.

## O ŞEİR YAŞAYIR Kİ

O şeir yaşayır ki,
Səndən söz açır, Vətən,
Səndən danışır, gülüm.
Vətəndən,
Bir də səndən.
Mən də sizdən yazmışam,
Sizdən yazacağam da.
Bu iki eşq dünyada,
Köçəri bir quş deyil,
Vuran ürəyim olmuş.
Duzum, çörəyim olmuş.
Ruhumda, ürəyimdə
Çoxdan qurmuş aşiyan.
Eşqimə, diləyimə
Kəsilmişdir pasiban.
Qorumuş məni hər gün
Hər cür, hər cür riyadan.

* * *

Mən hara, qəm hara, iztirab hara?
Fəqət bir dərdimə ediniz çarə,
Mənəvi sıxıntı, mənəvi yara
Qəlbimi, ruhumu çəkəndə dara,
Sarsılır,
Bu dərdə dözə bilmirəm.
Misranı misraya düzə bilmirəm.
Hər şeyin başlanğıcı, sonu var,
Sevginin, məhəbbətin,
Qəmin, dərdin, möhnətin.
Parlaq ulduzların da sonu, nəhayəti var.
İnsan ömrü kimidir bu dünyada arzular.
Qüssə kimi iztirab da gəldi-gedərdir.
Darıxmayıram daha.
Hicran ümidlərimi
Qıra bilməmiş sabaha.
İnsanlara, həyata
Məhəbbəti qova bilməmiş ürəyimdən.



Bunun üçün, ey həyat,
Ey hər dərdə loğman,
Sənin özünə borcluyam mən.
Ey insan,
Əgər gözəl hisslər uçmuşsa ürəyindən,
Əgər yoxsa ürəyində məhəbbətin,
Sevincinə qalib gəlmişsə möhnətin,
Müqəssir mənəmmi, ya sən?
Soruş özündən...

## XƏZƏR SAHİLİNDƏ DÜŞÜNCƏLƏR

Dənizi, sahili çox sevir ürək,
Ağ qanadlı qağayı səsli,
Dəniz nəfəsli
Sahildə
Xoşbəxt oluram gerçək.
Ürəkdə dərdim olmur azacıq.
Axşamın gümüşü sularında
Üzdükcə qayıq
Xəzər məni də sahildən qoparır,
Xəyalımı çəkib arxasınca aparır.
Sonsuz həsrətlə baxıram
Batan günəşə –
O göylərin fədakar, vəfalı qızına,
İnsan aşiqi,
Həyat yaraşığı Günəş
Qürub edən zaman
Dönür dəyirmi atəşə.
Alqış torpağa, alqış Günəşə!
Günəşin, torpağın, dənizin
Vurğunu doğulmuşam mən.
Torpaq qəmi, kədəri, həsrəti
Alır qəlbimdən.
Sulara baxanda gözüm dincəlir.
Günəşə baxanda
Göylərdən başıma sanki nur ələnir

Doğrudan,
Dünyanın zinəti yaranmış insan.
Fəqət, təbiətsiz,
Bu ecazkar sənətkarsız,
Sənətsiz
Neyləyərdi insan!
Olmasaydı günəş,
Olmasaydı dəniz,
Olmasaydı torpaq,
Bu mavi asiman.
Doğrudan,
Təbiətsiz neyləyərdi insan!

## MƏN SƏNDƏN DEYİM

Səhər gözlərini təzəcə açmış,
Budaqlar danışır hey həzin-həzin.
Bahar hər tərəfə ətrini saçmış,
Yarpaqlar danışır hey həzin-həzin.

Bülbül qızılgülə qəlbini açır,
Danışır səhərin əfsanəsindən.
Mənsə səndən deyim, səndən söz açım,
Könlüm ilham alsın gül nəfəsindən.

Ey ana, ey qadın, ey sevgili yar,
Evlər, aşiyanlar sənsiz olmasın.
Qoy sənə yar olsun böyük arzular,
Ana həsrətilə gözlər dolmasın.

Sənə gülzar olsun bu dünya üzü,
Yolun çəmənlərə, bağlara düşsün.
Sənə sirdaş olsun bu cahan özü,
Nəğmən düzənlərə, dağlara düşsün.
Dünyada sülh olsun, əmin-amanlıq,
Ürəyin kövrəkdir, qəlbin mehriban.
Həyat dərd verməsin sənə bir anlıq,
Övladın görməsin nə ölüm, nə qan.



Mən də səndən yazım, səndən həmişə,
Dünyanın varlığı sənin varlığın.
Adını yazsınlar Aya, Günəşə,
Mənə ilham versin bəxtiyarlığın.
Mənə də həmişə kiçik pay düşür,
Hər qadın, hər ana səadətindən.
İlhamım səninlə bu gün görüşür,
Bir an ayrı düşmə məhəbbətindən.

Ey ana, ey qadın, ey sevgili yar,
Evlər, aşiyanlar sənsiz olmasın,
Qəlbini oxşasın hər yaz, hər bahar,
Bahar buludutək gözün dolmasın,
Evlər, aşiyanlar sənsiz olmasın.

## BƏNÖVŞƏ

Oxşadım, yalvardım, dedim, danışdım,
Bir ani həsrətdən yanıb alışdım,
Başını qaldırıb mənə baxmadı,
Ətri ürəyimə bir an axmadı.
Gözümə baxmadı alışan gözü,
Əyildim, üzümə toxundu üzü.
O, mənə baxmadı barı bir anlıq,
Demək həyalıdır gənclik-cavanlıq.
Əyildim başını qaldırdım onun,
Əlimi çəkəndə o qaçdı məndən.
Baxdım gözlərinə min bir ümidlə,
Nəvaziş eylədim, çox tutdum dilə,
Əlimi çəkəndə o qaçdı məndən,
Demək mənalıdır gözəllik belə.
Baxdım, gözlərinin içinə baxdım,
Duyğutək könlümə, qəlbimə axdı.
Əlimi çəkəndə əyildi başı,
Başını aşağı saldı bənövşə.
Rəng verib, rəng aldı.
Aldı bənövşə,
Qəlbimdə əbədi qaldı bənövşə.

## QIZILGÜL

Qızılgül çağırdı məni bir səhər,
Yanına tələsdim bülbülsayağı.
Alışıb-yanırdı zərif yanağı.
Həyalı üzünə həsrətlə baxdım,
Əyib ehtiyatla zərif budağı,
Qoxladım alışan hər bir yarpağı.
Vuruldum baharın gözəl qızına,
Vuruldum mənalı işvə-nazına.
Zümrüddən tac qoyub güllər sultanı,
Ətrə qərq etmişdi o gülüstanı.

## MİNİATÜRLƏR

Üzgüçütək dənizdə ay bu gecə üzür hey,
Dalğalara işıqdan boyunbağı düzür hey.

* * *

Hava ılıq, səma saf, çöl otları yamyaşıl,
Belə gözəl mənzərə düzənlərə yaraşır.

* * *

Ulduzlar daş-qaş kimi, ay göylərin fanarı,
Uzaqlarda ağarır sonsuz gecə yolları.

* * *

Sən ey gecə yolçusu, xoşbəxtsən necə bir bax,
Çöllər, dağlar, meşələr,
Ay, ulduzlar karvanı,
Təbiətdə nə varsa, bu gün sənin olacaq.

* * *

Günəş çıxdı sulardan, saçlarını daradı,
Onun uzun saçları,
Ox kimi kirpikləri,
Qaynar gözləri vardı.



* * *

Çöllərin, düzənlərin pasibanıdır dağlar,
Onun qəlbi dolanda "göy kişnər, bulud ağlar".

* * *

Sənin təbəssümün bahara bənzər,
Baharın özütək zərif və kövrək.
Sən təbəssüm göstər hər axşam, səhər,
Sinəmdə dil açıb danışsın ürək.

Məhəbbət dünyası kövrək, pərişan,
Orda gözəl olur bütün duyğular.
Sevəndə ucalır, yüksəlir insan,
Məhəbbət, bahara çox oxşarın var.
Baharsan, baharsan, həmişə bahar.

Ağlatdı taleyim məni hər zaman,
Ağlatdı üzümə o, gülə-gülə.
Qısaltdı ömrümü, günümü hicran,
Bilməyə-bilməyə, həm bilə-bilə.

* * *

Gecə yalqız gəldi, yalqız dayandı,
Ürəyim tənhalıq oduna yandı.
Qohumlar ögeytək məni də dandı,
Bu gecə yanımda qalan olmadı,
Heç məni yadına salan olmadı.
Alçalma, yalvarma kimsəyə bir an,
Ömrünü tufanlar dağıtsa belə.
Məğrur doğulmusan, ey ulu insan,
İnsan adı hara, alçalmaq hara?
Yalvarma, ömrünü çəksələr dara,
Yalvarma, ömrünü versələr yelə,
Çalış yaxşı dolan, yaxşılıq elə.

Bu axşam qapıya dikildi gözüm,
Yanımda bir gəlib qalan olmadı.
Şair ürəyimi, şair könlümü
Bircə təbəssümlə alan olmadı.

Yoruldum, intizar yamanmış, yaman,
Başım nələr çəkmiş bu intizardan.
Gözlədim bəlkə də yalanmış, yalan,
Ağır intizarım yalan olmadı.

* * *

Ey ömür baharım, bahar gəldi, gəl,
Sevgisiz baharda şən ola bilməz.
Demə ki, sənsiz də gülər gözlərim,
Qəlbimə bir kimsə sən ola bilməz.

Namərd körpüsündən keçmə amandır,
Aparsın, aparsın qoy sellər səni.
Nə gözəl söyləmiş bunu atalar:
Namərdə yatağı qoy olsun məzar.

## EY KAŞ

Ölümün qarşısını pul, qızıl alaydı kaş,
Satardım var-yoxumu, hər nəyim var satardım.
Sənə ömür alardım, tükənməz, uzun ömür,
Üstəlik ömrümü də mən ömrünə qatardım.

Çəkinməzdim, gözlərim, qolum getsəydi belə,
Təki sən bu dünyadan getməyəydin belə tez.
Faciəli ölümün düşmüşdür dildən-dilə,
Niyə tərk etdin məni belə tez, ey vəfasız!

Arzular karvanımı sən özünlə apardın,
Ömrün qönçə çağında qəlbin borana düşdü.
Arzum bir yana dursun, ürəyimi qopardın,
Sən tufana düşəndən ömrüm tufana düşdü.



Sən gözəl, sən ağıllı, sən təmkinli, mehriban,
Sənin gözəl günlərin qabaqdaydı, qabaqda.
Ey Leylam, ey ömürlük qəlbimdə yatıb qalan,
Özün gəl təsəlli ver, durma, durma uzaqda.

Ölümün qarşısını pul, qızıl alaydı kaş,
Satardım var-yoxumu, hər nəyim var satardım.
Sənə ömür alardım, tükənməz, uzun ömür.
Üstəlik ömrümü də mən ömrünə qatardım.
Ey insanlar, qızıla, pula nədir bu həvəs?!
Pulla ala bilməmiş ömrü dünyada heç kəs.

## QƏDƏMİN MÜBARƏK

Həyatımın yeni bir mərhələsi,
Qəlbimdə yeni döyüntülər,
Ürəyimin bambaşqadır səsi.
Tanış olmayan duyğular
Qonaq gəlmiş mənə.
Gözlərim elə bil günəşdən
İşıq almış yenə.
Oğlum ata olmuş,
Mən nənə olmuşam.
Qəribədir,
Elə bil mən təzəcə doğulmuşam.
Elə bil dünən idi uşaqlığım,
Nə tez dəyişdi zaman!
Axı, mən dünən,
Cavan idim, cavan.
Dünən məni arzular yada saldı.
Əl edib tuta bilmədiyim gəncliyim,
Atüstü başa vurduğum həyat illəri
Harada qaldı?
Nəvəm olmuş,
Yeni duyğular qəlbimə dolmuş.
Nəvəm olmuş,
Zərif balaca bir qız.

Həyatda bəlkə olacaqdır
Ən parlaq, ən işıqlı ulduz.
Olacaq mənə mehriban.
Görmədiyim qayğıları görəcəyəm ondan.
Adını "Ulduz" qoyardım mənim olsaydı əgər.
"Günəş", bəlkə də "Pərilər",
Bəlkə "Vüsal" nə bilim,
Daha nələr, nələr...
Atasının, anasının canı sağ olsun,
Bu işdə ixtiyarsız olsun nənələr.

## MƏNİM BALACA LEYLAM

Gəlir zərif pərvanətək
Qonur hər gün yatağıma.
Şirin-şirin sözlərilə
Girir könül otağıma:
– Gəl bir yerdə şeir yazaq,
Şeir yazaq bu gün mənə.
Qələm də ver, kağız da ver,
Kömək edim özüm sənə.
– Bəs adını nə qoyaq biz? –
Mənim zərif pərvanəmin
Fikri uçur uzaqlara.
Üzü ciddiləşir bir an,
Şeir adı gəzir mənə...
Onun xəyal dünyasında
Hər şey gözəl, hər şey əlvan,
Hər şey sadə, hər şey rəvan.
Mənsə nə ad, nə söz gəzir,
Xəyallarda dolaşıram.
Ömrün yeni pilləsində
Düşüb itən gəncliyimi axtarıram,
Artıq orda düşmüş axşam...
Təəccüblü gəlir mənə,
Düşünürəm,
Nə vaxt, necə oldum nənə?



* * *

Nəvəm ağladı,
Oğlum əlilə onun ağzını bağladı:
– Səhər çox tez oyanırsan, bala,
Dan ulduzu təzəcə batmış,
Nənən indicə yatmış.
Oyaq qalır gecələr
Ulduzlar kimi səhərə qədər.
O səhər yatır, dincəlir bir az.
Belə yaramaz...
Xəyala daldım,
Cəld qalxıb körpəni aldım.
-Uşaqla belə etməzlər, oğul,
Nənə yatmasa da olar.
Uşaq nə anlayır,
Onun öz aləmi var...
Qəlbim döndü dağa,
İlhamım qaynayıb, coşan bulağa.
Əməyim itməmiş dünyada,
Boyum bərabəri oğul böyütmüşəm.
O məni anlayır,
Bir yaşlı balasını
Yaşlılar kimi danlayır.

## DAUQAVA

İncə bir çiçəyim vardı, Dauqava,
Bir gözəl-göyçəyim vardı, Dauqava,
Min arzu-istəyim var, Dauqava
Necə qıydın balama sən?
Ala gözlü sonama sən?
O mehriban Leylama sən?

Sinəmə dağ çəkdi həyat, Dauqava,
Sən də çəkdin.
Bəs insafın harda qaldı?

Körpə Leylam sularında,
Söylə necə darda qaldı, Dauqava?
Bəs insafın harda qaldı, Dauqava?
Gəl qəlbimi qopar indi,
Gəl məni də apar indi.

Mən suları çox sevirdim, Dauqava,
Məni ellər tanıyırdı dənizlər aşiqi kimi,
Sular yaraşığı kimi.
Sinəmə dağ çəkdi sular məhəbbətdən,
Dauqava.
Alışıram bu həsrətdən, Dauqava,
Sarsılıram bu möhnətdən, Dauqava.
Gəl qəlbimi qopar indi,
Gəl məni də apar indi.

Bu dərdimə,
Qəlbimdəki bu dözülməz ağrılara
Kim səbəbkar,
Dauqava?
Səndən Latış ellərinə şikayətim, gileyim var,
Dauqava!

Ömrümüzə doğmuş idi yeni sevinc,
Yeni bahar, Dauqava.
Sevincimi, baharımı yedi sular, Dauqava.
Ürəyimdə batıb qaldı çox arzular, Dauqava.
Gəl qəlbimi qopar indi,
Gəl məni də apar indi.

Mən dözürəm,
Dərd əlindən ürəyimdir çəkən haray, Dauqava,
Dərdlərimin şahididir
Gündüz günəş,
Gecələr ay, Dauqava.

Nə çəkirəm,
Necə keçir gecələrim?
Ürəklərdən soruş özün,
Gündüzümü sor günəşdən.



Qəlbimdəki bu alovdan,
Bu atəşdən
Qorxuram ki, quruyasan, Dauqava.
Faciəli ölümləri
Sanma asan, Dauqava.
Ağır həyat yollarında
Haçandır baş ağartmısan, Dauqava.

Ömrüm uzun, günüm qara, Dauqava.
Leylam ilə səbrim batdı sərt sulara, Dauqava!
Araz hara, bəs sən hara, Dauqava?
Tale məni çəkmiş dara,
Gör haradan qovmuş hara, Dauqava.

Dalğaların şahə qalxdı o gün axşam, Dauqava,
Leylamın başından axdı, o gün axşam, Dauqava,
Sinəmdə dərdlərim dağdı, Dauqava.

Sinəmə dağ çəkdi həyat,
Sən də imdadıma çatmadın, heyhat, Dauqava!
Balama vermədin nicat, Dauqava.
Gəl qəlbimi qopar indi,
Gəl məni də apar indi.

Mən danışdım, Dauqava,
Son də danış.
Mən alışdım ürəyimdən, Dauqava,
Sən də alış,
Danış, susma, təsəlli ver mənə barı,
Danış, danış, Dauqava,
Qəlbim kimi yanıb alış, Dauqava.

Lal axdığın eyləyər bəs,
Sinəmdə odlanır ürək,
Köksümdə alışır nəfəs,
Alışmasın bu dünyada bir ürək də
Ürəyimtək, Dauqava.
Sahilində kimsə yoxdur,
Bircə mənəm,

Yanır sinəm, Dauqava.
Danış, susma,
Danış sonsuz ələmimdən, Dauqava.
Dərdlərimdən özün danış,
Qəlbim kimi yanıb alış, Dauqava! Dauqava!

## ÖZ-ÖZÜNƏ BİTƏN GÜLLƏR

Təbriz küçələrində gəzir bir dəstə uşaq.
Səhərdən axşamadək gəzir, dolanır, ancaq
Nə bir yuva, nə bir ev, nə məskən tapmayırlar.
Zamandır ömr edirlər səfillər kimi onlar.
Onlar səhrada bitmiş çiçəklərə bənzəyir.
Ürəklərdə qapanmış diləklərə bənzəyir.
Anaları torpaqdır, ataları asiman.
Güzərlərdən keçərkən bu uşaqlar pərişan
Ürəyimin başında sanki ildırım çaxır,
Qəlbimi acı həsrət yenə yandırıb yaxır.
Qəlbim onlara daim bir səadət arzular,
Vətən torpaqlarında yeni həyat arzular.
Mən onları məktəbdə, evdə görmək istərəm,
Onların göz yaşını bir də silmək istərəm...
Ağalar! Siz onları təhqir etməyin pulla,
Dilənçi deyil onlar, dilənçi deyil əsla,
Onlar çiçək açmamış diləklərə bənzəyir.
Öz-özünə göyərən çiçəklərə bənzəyir.
Tutmuş dövrlərini qara xallı tikanlar.
Onları oxşayacaq ılıq nəfəsli bahar.
Onların müşk qoxuyan gözəl bir ətri vardır,
Nakam ailələrdən onlar bir yadigardır.

## QOCALIQ

Hər gün səhər o, aynanın qabağında dayanardı,
Surətinə, camalına baxıb bir də inanardı:
Hələ gözəl, hələ gəncdir, solmamışdır yanaqları.
Təravətli bir çiçəkdir hələ gülgün dodaqları...
İllər keçdi, üzündəki təravət də uçub getdi,



Yanağından, dodağından qızartılar qaçıb getdi.
Üzündəki pərişanlıq qəlbini yandırıb yaxdı,
O, ağarmış saçlarına bir daha, bir daha baxdı,
Sonra ömür yollarını süzdü, süzdü məlalətlə.
Arxada qalmış illəri o səslədi min həsrətlə.
Lakin cavab gəlmədi heç bir tərəfdən qulağına.
Nə yoldaşı, nə körpəsi yüyürmədi qabağına.
Tənhalığın mənasını bildi ancaq qocalıqda,
Ona ağır bir yük oldu həyatında qocalıq da.

*1958*

## DƏNİZ HAQQINDA BALLADA

Dənizin əzəmətinə daldım,
Qüdrətinə heyran qaldım,
Qollarımı kəmənd etmək istədim
Kişnəyən dalğalarına.
Baxdım qüruruna, vüqarına,
Dedim: – Ey dəniz!
Sənin kimi təmiz,
Nəhayətsiz,
Güclü olmaq istərdim,
Sənin kimi romantika ilə dolmaq
İstərdim.
Qəlbim çoxdan bağlıdır sənə,
Əzəmətindən, qürurundan
Bir pay ver mənə...
Kükrədi, daşdı,
Başımdan aşdı,
Güclü dalğalarını
Çırpdı üzümə.
Şor sularını
Doldurdu gözümə.
Vurub məni yıxdı,
Çəkilib uzaqdan baxdı.
Sinəmə, qollarıma, başıma axdı,
O yıxdı,
Mən qalxdım,

Başımda ildırım kimi çaxdı,
Mən qalxdım.
Vurub məni yumağa döndərdi,
Başıma
Zərbəni zərbə üstdən endirdi.
Qəhqəhə çəkib dedi:
– Ey insan,
Səni yıxmaq, boğmaq, məhv etmək
Deyildir asan,
Öz gücünə inan...
Sən güclüsən məndən.
Təmizlik, vüqar sənin canında,
Qaynar həyat eşqi qanında,
Yaşa, yarat.
Səhər, axşam
Gülab sularıma bat.
Güc istəmə məndən,
Sən güclüsən...
Qoynumda
Bir əl-qol atan görəndə
Qınama məni,
Mən, qadirin dostuyam,
Acizinsə düşməni.

*1970*

## CÜMƏ GÜNÜ DOĞULMUŞAM

*Keçmişdə cümə günü anadan olan uşağın ağırlığı qədər taxıl çəkib paylayarmışlar.*

"Ağır" gündə göz açmışam bu dünyaya –
Cümə günü.
Əl çatmayan, ün yetməyən,
Uca dağlar arxasında batır ulduz,
İtir ülkər.
Dərələrdən, təpələrdən
Ətəyini gizli-gizli yığır gecə.



Al üzündən örpəyini yavaş-yavaş atır səhər.
Bu dünyaya göz açdığım,
İz açdığım
İlıq bahar səhərində
Ağırlığı çəkim qədər,
Taxıl çəkib paylamışlar.
Üstümdə ağırlıqlar,
Ömrümdə acılıqlar
Götürülsün deyə, bəlkə...
Obaşdanın sazaq çağı,
Soyuqdanmı, heyrətdənmi,
Yazıq körpə için-için ağlamışdır.
Ata-baba adətinə,
Bu el-oba adətinə
Sadiq qalan Xavər nənə, Şərif baba,
Nəvəsinin sabahına, ağ gününə
Min bir ümid bağlamışdır...
Ömür boyu ehtiyaca oğul atam,
Böyüklərin qarşısında
Susub, kəlmə danışmamış.
Yazıq anam, o qul anam
Ürəyindən alışsa da,
Zahirindən alışmamış,
Məndən ötrü danışmamış...
Ürəklərdən nigaranlıq,
Təlaş, qorxu yoxa çıxmış.
Mən dünyaya göz açandan
Evimizə, süfrəmizə bolluq axmış...
Nələr olmur bu dünyada;
Cümə günü gur həyata
Gözlərini açan qızın,
Bəxti ağmış, ruzusu bol,
Söyləmişlər, sevinmişlər gündə yüz yol...
Fərəh dolu, kədər dolu bu aləmi
Seyr eyləyən ulu günəş
Yığışdırır büsatını,
Məhvərində, dərindədir.
Hər şey yerli-yerindədir...

İşıqları gur alışan bircə evdə
Təzə səs var, yeni nəfəs.
Məndən ötrü baba sakit, nənə aram,
Ana aram.
Mənsə ömrün fırtınalı yollarında,
Tufanlarda boğulmuşam.
Cümə günü doğulmuşam.

## QAÇAĞI EL SAXLAR

Qaçağı el saxlar, el bilir bunu,
Elə şairi də eli saxlayar.
Gül vəcdə gətirər bülbülü hər vaxt,
Bülbülü gülşəndə gülü saxlayar.

Ocağım o tayda el ocağıydı,
Dayağım əyilməz el dayağıydı.
Demə ki, küllüyə tökərlər külü,
Ocağın odunu külü saxlayar.

Eşitsin səsimi bir daha ellər,
Zəfər birlikdədir, birliklə zəfər.
Birləşsin ayrılan, qırılan əllər.
Dağlar əl tutuşsa, seli saxlayar.

Qeyrət qalasıdır elim, dünyada,
Dillərin tacıdır dilim, dünyada,
Qeyrət, qəhrəmanlıq bir yana dursun,
Xalqın varlığını dili saxlayar.

İnsan əməliylə bəzənir cahan,
Bir söz kəsərlidir, min-min qılıncdan,
Şair nəğməsiylə el saxlayanda,
Elə şairi də eli saxlayar.



## SEVDİYİM İNSANLAR

Ürəyimin həmdəmidir,
Mənə könül məlhəmidir,
Yadların da yaxınıdır,
Doğmasıdır, məhrəmidir,
Mənim sevdiyim insanlar!

Tez-tez görünsünlər gözə,
Hər gün gəlib çıxsın bizə.
Təbriz olsun gözlərimdə,
Gedə bilməsəm Təbrizə,
Mənim sevdiyim insanlar!

Onlar olsun dağım, düzüm,
Ürəyimdə qürur, dözüm.
Yolunuza çiçək kimi,
Sözlərimi dərib, düzüm,
Mənim sevdiyim insanlar!

Günəş kimi yanasıdır,
Yaxşılığın anasıdır.
Qəm yeyəndə dərd əlindən,
Yolum üstə qonasıdır
Mənim sevdiyim insanlar!

Uzaqda, Zəncanımdadır,
O gənclik dövranımdadır.
Xəyalımda, nisgilimdə,
Ürəyimdə, canımdadır
Mənim sevdiyim insanlar!

Nurdur könül sarayıma,
Hər günümə, hər ayıma,
Dar gündə çəksəm adını
Gəlib çatar harayıma,
Mənim sevdiyim insanlar!

Dərdə, qəmə ortaq olar,
Üzü bir dönməz dağ olar.
Düşmənlərə qənim, yağı,
Dost gözünə çıraq olar
Mənim sevdiyim insanlar!

Bir dəryadır sədaqəti,
Bir dünyadır məhəbbəti.
Vüqarlı başının üstə,
Bayraq edər ədaləti
Mənim sevdiyim insanlar!

Yaraşıqdır kainata,
Həm anadır, həm də ata.
Qənimdir vaxtsız ölümə,
Çarpar ürəkdir həyata,
Mənim sevdiyim insanlar!
Mənim sevdiyim insanlar!

## DAĞILMIŞ DÜNYAMDA DÜNYAM VAR...

*"Anam Təbriz mənə gəhvarədə söyləyərdi, yavrum, bil,*
*Sənin qalmış o tayda xallı, telli bir xalan vardır.*
*Onu bizdən ayırmış ruziğarın sazü, nasazı,*
*Onunçün sızlaram hər yerdə görsəm saz çalan vardır."*

***M.Şəhriyar***

Əya, Şəhriyara, sənin bu tayda,
Arazdan o tayda xalam var mənim.
Bir əsmər bənizli, bir ala gözlü,
Sonalar sonası sonam var mənim.
O, mənim möhnətli, dərdli nənəmdir,
O, mənim nisginli, həsrətli anam.
Köçənlər əvəzi son dayağımdır,
Dağılmış dünyamda dağılmaz dünyam.



Mənə bacı deyir, bacı çağırır,
Vaxtsız köçüb gedən o bacım kimi.
Gözümün nurusan, söyləyir mənə,
Mehriylə ovudur sınan qəlbimi.
Böyük arzuları, məhəbbətiylə,
Çalışır dərdimi unutdurmağa,
Anam tək, bacım tək, dindirir məni,
Bilir ki, həsrətəm elə, torpağa.
Deyəndə ay xala, bircə arzunu,
Bircə istəyini, gəl, bildir mənə.
Deyir, iltiması-duam var bala,
Barı mən köçməmiş qayıt vətənə.
Qırx beş il hicranla alovlanmısan,
Bu oddan alışıb elin, Vətənin.
Həsrətin odunda elə yanmısan,
Bir simurq quşuna dönmüsən yəqin.
Sənsizlik dərd olub doğma Zəncana,
Gizlənmiş üzünü aç, göstər bizə.
Köçənlər köçdülər, alışa-yana,
Sənsizlik dərd olub qoca Təbrizə.
Əya, Şəhriyara, neçə zamandır,
Boynu bükülüyəm, sən söylə barı,
Agahsan səbrimin tükəndiyindən,
Söylə, necə açım bağlı yolları.?
Nə qədər can atsam o sahillərə,
Bir vüsal çiçəyin dərə bilmirəm.
Süleyman xalçasın göylərdən alıb,
Arazın üstünə sərə bilmirəm.
Hicran yollarında yarım əsrdir,
Çapıram, dilimdə yüz ah, yüz fəqan.
Yorulmuş köhlənim, təngimiş atım,
Məni çarmıxına çəkmişdir zaman...
Əya, Şəhriyara, sənin bu tayda,
O tayda yadigar xalam var mənim,
Ötən günlərimin son nişanəsi,
Dağılmış dünyamda, dünyam var mənim.

*1987*

## DÖRDLÜKLƏR

Dərindir kamalın dəryası dərin,
Onun dalğasında kükrəyən xəyal.
Bu dünya mülkündə ürəksizlərin,
Kamala yetməsi mahaldır, mahal.

İnsana məhəbbət duzum, çörəyim,
İnsan səadəti arzum, diləyim.
Bir gözdə qaralan buludu görsəm,
Könül səmasında ağlar ürəyim.

Dünya bəxş etmədi mənə bir inci,
Ömür çırağımdır yadlar sevinci.
Mən küsə bilmirəm əvəzində sən,
Məndən ömür boyu hey küs, hey inci.

Dağların başını duman almasın,
İşıq da, günəş də olsun firavan.
Dağların ürəyi-qəlbi dolmasın,
Buludtək qaralıb, dolmasın insan.

Özünə kor baxan bir insanam mən,
Cahanın özündə bir cahanam mən.
Bir ömür yanmışam doğmaya, yada,
Nədəndir həm yanan, həm yamanam mən.

Göylər tutulanda tutulur ürək,
Ürəyim açılır üzünü görcək.
Odlu günəşimsən parla uzaqdan,
Köçmə, ürəyimdən ey arzu-istək.

El doğru deyibdir hər bir gecənin
İşıqlı, ümidli bir gündüzü var.
Görsəm, görməsəm də vüsalın sənin,
Bir gün açılacaq hicranlı yollar.

Bir gün sona yetər ömür də, can da,
Bir gün ürək qalar ahda, amanda.
Tələs köməyinə şair könlümün,
Gözləmir ömür də, gün də, zaman da.



Dünya belə gəlib, belə getməsin,
Arzu tükənməsin, ümid bitməsin.
Həyat yollarında itsin ömür-gün,
Yollarda şerimin izi itməsin.

Qəlbim xəyalının otağındadır,
Tənha bir bənövşə yarpağındadır.
Eşitmir səsimi divanə könül,
O, sənin sevginin sorağındadır.

Görüş həsrətində yanar ürəyim,
Dustaqdır sinəmdə arzum, diləyim.
Keçib xan Arazı görüşə gəlsən,
Hicran kəməndindən çıxar biləyim.

Biz yorğun qəvvasıq, ayrılıq dəniz,
Gözü yolda qaldı yaralı Təbriz.
Qara buludlarda ildırım olaq,
Gülək bu dünyaya qəh-qəhəylə biz.

Bilirəm bir axşam sən gələcəksən,
Könül nisgilimi tən böləcəksən.
Unudub kədəri, qəmi, qüssəni,
Həsrətli köksümdə dincələcəksən.

Bulud sinəsini verdi dağlara,
Yağış nəğmə dedi tər budaqlara,
Buludtək zirvəyə verdim qəlbimi,
İndi bulud ağlar, mən də ağlaram.

Əzəldən belədir, beledir cahan,
Yamana yaxşıdır, yaxşıya yaman.
Belə daş ürəkli, belə vəfasız,
Belə etibarsız olarmı insan?

İnsan sədaqətlə yaransın qoşa,
Ömür gözəl olsun, gözəl tamaşa.
Dönsün lələzara ömür yolları,
Dünya cənnət olsun, qoy başdan-başa.

Qaya çiçəyitək dalğınsan, gülüm,
Nə yaman kövrəksən, şeyda bülbülüm.

Bu dünya dünyaya qalacaq tamam,
Qoy mən də bir ağız danışım, gülüm.

Doğmadan doğmasan, əzizdən əziz,
Burda Bakı şahid, orada Təbriz.
Niyə hər sözümdən sınırsan belə,
Bir arzu, bir dilək, bir ürəyik biz.

Bir xoş arzumsan, bir gözəl istək,
Zərifdən zərifsən, kövrəkdən kövrək.
Hər sözdən saralıb solursan belə,
Sinəndə çiçəkmi, ürəkmi, ürək?

Gözəldir bu həyat, gözəldir varlıq,
Vaxtsız tərk etməsin bizi cavanlıq.
Ey tale, hökmünə baş əymərəm mən,
Ey dünya, başıma eyləmə darlıq!

Dostdan vəfa adlı bir inci gəzdim,
Dostdan hər söz üstə mən inciməzdim.
Ömrümün, günümün sevinci yarım,
Səndə kədəri yox, sevinci gəzdim.

Çiçəyim çırtladı sən gələn zaman,
Gülür, qəlbim gülür, sən gülən zaman,
Dağılsın göylərdən qara buludlar,
Köçsün dünyamızdan bu qara hicran.

Məndən üz döndərdin, döndərdin yaman,
Əsən yellər kimi ötdün yanımdan.
Bu vəfasızlığı haraya yazım,
Sən ki, əyilməyən dağlar oğlusan.

Gəlişi səhərin nəfəsi yarım,
Səsi bu həyatın gur səsi yarım,
Ömrümün səhəri, dan ulduzusan,
Üzündə səadət şöləsi, yarım.

Üzündən ilahi bir nur saçılar.
Könlümün evindən zülmət qaçılar.
Hər səhər qarşıma sən çıxsan əgər,
Bir nilufər kimi qəlbim açılar.



Məhəbbət yolları dolaşıq, uzun,
Min bir çiçək dərim, bu yola düzüm.
Yaşadım bir ömür vətəndən uzaq,
İndi sənsizliyə de, necə dözüm?

Sənin də, mənim də könlümə qəmxar,
Sonsuz arzulardır, sonsuz arzular.
Sənin gözlərində qaldı sevincim,
Mənim gözlərimdə kədər, intizar.

Gecə dünya yatar, bu cahan yatar,
Dünya bir müqəddəs sükuta batar,
Mənimsə yaralı qəlbimin səsi
Səndən ayrıldığım dağlara çatar.

Gözümdə gözlərin qaldı, sevgilim,
Könlümü tufana saldı, sevgilim,
Könül mehmanısan gözlərim üstə,
O gözlər səbrimi aldı, sevğilim.

Dənizlər, çaylartək coşaram yenə,
Başımı başlara qoşaram yenə.
Bəla məni gəzər, mən də bəlanı,
Belə yaşamışam, yaşaram yenə.

Səhər dumanına bürünmüş sular,
Araz axıb gedir yenə lal kimi.
Arazın gözləri yaşlarla dolar,
Gizlənər, görünər bir xəyal kimi.

Yenə ürəyimi qəm, qüssə sarmış,
Niyə kövrək etdi bu dövran məni.
Xəbərim olmadan çəkib aparmış,
Sirlər dünyasına bu cahan məni.

Bahar buludutək dolmuş ürəyim,
Nə dilim söz tutur, nə əlim qələm.
Uçmuş xəyalımdan arzum, diləyim,
Gözümdə elə bil bir heçdir aləm.

Xəzan yarpağıtək çöhrəm sapsarı,
Tufanlar önündə pərişan mənəm.
İtirdim gəncliyi, itirdim yarı,
Cahanın özündə bir cahan mənəm.

Gəl çıx, ayrılığa dözə bilmirəm,
Əlimi əlindən üzə bilmirəm.
Səninlə gəzdiyim çölü, çəməni,
Dolana bilmirəm, gəzə bilmirəm.

Ümiddən əlini üzməyir könül,
Yolunu təlaşla gözləyir könül.
Diksinir hər səsdən, hər titrəyişdən,
Səni kölgə kimi izləyir könül.

Sən yaşıl baharsan, mən sarı xəzan,
Bir ömür sevgilim ayrı dolansan,
Yenə də sevincim sığmaz qəlbimə,
Çünki, səninləyəm harada olsan.

Könlün dan yeridir, mən batan günəş,
Sən yanar şimşəksən mən sönər atəş.
Nə qədər dünyada canımda can var,
Həsrət xəyalımla söhbət et, danış.

Yaxşı ki, sən varsan, ey tunc biləklim,
Ey böyük arzulu, böyük diləklim.
Yaşarsan mərd oğul, dağ oğul kimi,
Qanımda, canımda, ey dağ ürəklim.

Üzü gözəl olur, qəlbi gözəlin,
Zəriflik ağılla yaranır qoşa.
Ürəklə, idrakla bu dünya özü
Gözəl laləzardır gör, başdan-başa.

Yarımış bacıyam iki qardaşa,
Birisi Kamaldır, digəri Camal.
Ağılsız yaşamaq mümkün olsa da,
Ürəksiz yaşamaq mahaldır-mahal.



İncədən incəsən, sən inci yarım,
Nə küs sözlərimdən, nə inci, yarım.
Yanında batmaram bir də günaha,
Ey dərdli könlümün sevinci yarım.

Sənə bircə bunda oxşarlığım var,
Sənin baxışında yanar intizar.
Mən səni gözlərəm, sən onu gülüm,
Mən səndən, sən ondan səadət umar.

Həyata səsləyən dan ulduzusan,
Günəşim, günümsən, şirin arzumsan,
Necə ömr eləyim dünyada sənsiz,
Səhərsiz, günəşsiz yaşarmı insan?

Dolanım başına pərvanə kimi,
Qəlbimdə yaşarsan əfsanə kimi,
Yalnız xəyalımın zinətisən sən,
Özgə boynundakı dürdanə kimi.

Səni bir yaxınmı, uzaqmı, sanım,
Həsrət xəyalınla gəzib dolanım,
Məhəbbət odunun pərvanəsiyəm,
Uzaqdan-uzağa alışım, yanım.

Söz var ki, insanı odlara qalar,
Söz var ki, ürəyi həyata bağlar.
Mən soz söyləyəndə namərdə, mərdə,
Qoy sizə söykənim, sizə, a dağlar.

Sevgilim, gözünün haləsiyəm mən,
Dərdini bal kimi böləsiyəm mən.
Qışda günəşim ol, yazda dənizim,
Qəlbində nur kimi yanasıyam mən.

Amalım, istəyim, niyyətim büllur,
Hicranım, kədərim, həsrətim büllur.
İçib məst oluram büllur misradan,
Büllur ürəyimdir boşalır, dolur.

Gözəldir bu həyat, gözəldir varlıq,
Eşqin nemətidir hər bəxtiyarlıq.
Ey tale, hökmünə baş əymərəm mən,
Ey dünya, başıma eyləmə darlıq.

Yox-yox, riyasızam bu göylər qədər,
Mənə nə verirlər burda versinlər.
Axirət gününə etiqadım yox,
Qəlbimdə dil açan arzularım çox.

Pərvanə könlümə pərvanə yarım,
Ey ömür incisi dürdanə yarım.
Mənə həm yaxınsan, həm də ki, uzaq,
Dillərdə dolaşan əfsanə yarım.

İllər yorğunuyam xəstəyəm, xəstə,
Qoy kimsə gəlməsin məzarım üstə.
Azad olacağam azad quş kimi,
Qəmlərin əlindən qurtulmuş kimi.

Qəlbimdən silinsə illərin dağı,
Eşqim yandıracaq soyuq torpağı.
Tənha məzarımı döydükcə külək,
Qəbrimdən qalxacaq mavi bir çiçək.

O mənim baharım, ömür yazımdır,
O çiçək açmayan min bir arzumdur,
Onun jaləsidir gözümün yaşı,
Mən üsyankar idim taleyə qarşı.

Gül necə yaşayar çəməndən ayrı,
El necə yaşayar vətəndən ayrı.
Kim deyər yanaraq alışmadım mən,
Düşmənlə düşmənəm, barışmadım mən.

Dağlar da yaşamaz dağlardan ayrı,
Bağlar nisgil edər bağlardan ayrı,
Sənsiz bu dərdlərə mən necə dözüm,
Ömr edim sevgisiz çağlardan ayrı?



Ey tale, çarmıxa çəkmisən məni,
Döyüşdük, vuruşduq, qəm yedik, yetər.
Parçala sən məni, ya da mən səni,
Gözləmək, intizar hər dərddən betər.

Bu qədər incimə, küsmə, sevgilim,
Həyat bircə andır, inan bircə an.
Bu qədər xətrimə toxunma gülüm,
Könül sındırmağı, gəl sanma asan.

Ömür bircə andır, söyləyəndə mən,
Deyirəm, anların bilək qiymətin.
Həmişə, hər yerdə, hər an düşün sən,
Anları saxlamaq, qaytarmaq çətin.

Arzular sonsuzdur, ömürlər qısa,
Arzular bəzəyir çölləri, düzü.
Demirəm, sevgilim, gəl bataq yasa,
Həmişə səsləyir gecə gündüzü.

Hələ göz açmamış baharın qızı,
Özünü öyməyə tapmamış macal,
Payız bir don biçər – sarı-qırmızı
Budur ömür-həyat, budur həsbi-hal.

Qəlbinə bu qədər güman gəlməsin,
Mən yaxşı deyəndə yaman gəlməsin.
Dəlidağ kimisən bu xasiyyətdə,
İstərəm üstünə duman gəlməsin.

Könlümün, gözümün sevinci yarım,
Olmasın heç kimin sevinci, yarım.
Dedim Fərhad kimi, Məcnun kimi sev,
Demədim bu sayaq küs, inci, yarım.

Vüsalsız hicranın nə imiş adı?
Necə doğma sanım ürəksiz yadı?
Bir ömür yaşadım elsiz, obasız
Qırıldı könlümün qolu, qanadı.

## MÜNDƏRİCAT

*Ayrılıq nəfəsli, hicran soraqlı* . . . . 4

**Ayrılan ürəklər birləşəcəkdir**

Münacat . . . . 6
Ulu peyğəmbərim, rəsulallahım! . . . . 9
Rəsulallah! . . . . 11
Azərbaycan . . . . 14
Azərbaycan . . . . 16
Azərbaycanım . . . . 17
Araz . . . . 19
Azadlıq yolunun yolçusuyam mən . . . . 20
Təbriz . . . . 22
Mənəm . . . . 23
Bu, haman qılıncdır? . . . . 24
Qarabağım . . . . 29
İgidlərim, sıra-sıra səf bağlayın! . . . . 30
Qələmim süngüyə dön! . . . . 32
O çinar boylular . . . . 33
Nə gözəldir uşaqlıq . . . . 35
Mənim ürəyim . . . . 36
Yaşıl dünyam . . . . 37
Göndərin məni . . . . 39
Yaralı çinar . . . . 40
Haralısan? . . . . 41
Dostlar . . . . 42
Bu yolda . . . . 43
Bir çinar gözləyir məni . . . . 44
Ayrılıq . . . . 45
Mənim gündəliyim . . . . 46
Mən də . . . . 47
Tale . . . . 48
Apar məni o yerlərə . . . . 52
Hardasa . . . . 53
Cavab . . . . 54
Elə gəlsin . . . . 56



Mənim anam . . . . 56
Mən ölmərəm . . . . 58
Ana . . . . 60
Vətən . . . . 61
Sürgün . . . . 62
O günün arzusuyla . . . . 64
Şərq qadını . . . . 65
Necə gülüm? . . . . 66
Mənim çiçəyim . . . . 67
Məktub . . . . 67
Bakı . . . . 68
Mənim xalqım . . . . 70
Görüşlə bitmədi bu hicran niyə . . . . 71
Açıl, ürəyim, açıl! . . . . 73
Azadlıq baharı . . . . 75
Yadıma düşdü . . . . 76

**Xatırlaram o günləri**

Xatırlaram o günləri . . . . 77
Üç il bundan əvvəl . . . . 78
1979 . . . . 79
Seyrinə gəl Təbrizin . . . . 81
Salam sənə el adından . . . . 83
Vətənin şərəfli oğluna . . . . 85
Bəzən bir igidin . . . . 86
Başına dolanım . . . . 88
Baxma . . . . 89
İntiqam . . . . 90
Sənin nəyin var . . . . 91
Boğar dalğasında səni inqilab . . . . 92
İnanıram o parlaq günə . . . . 93
Hər kəsin həyatda bir diləyi var . . . . 94
Olacaq ölkəmiz yenə gülşən . . . . 96
Timsahın göz yaşları . . . . 97
Ana . . . . 99
Danışır anam . . . . 100
O göylərin altında . . . . 101

Bayatılar ... 106
Qəzəllər ... 110
Ölməz qəhrəman (*poema*) ... 112

**Səndən uzaqlarda**

Səndən uzaqlarda ... 137
Bir nəğmə itirmişəm ... 138
Qaranquşlar qayıdanda ... 140
Ömür günəşim ... 140
Sevgilim ... 142
Romans ... 143
Gəl ... 143
Nə tez unutdun mən ... 144
Gəl bir də görüşək ... 148
Xəzərim mənim ... 149
Firdovsi yanıldı ... 152
Aşıq sazında ... 153
Məhəbbət ... 154
Qalsaydın ... 155
Tapardım səni ... 156
Səhər, günorta, axşam ... 157
Biz indi ayrıldıq ... 159
Həyat lövhələri ... 161
Sən yadıma sal ... 163

**Mənə özümdən yaxın**

Mənə özümdən yaxın ... 164
Şerim ... 167
Qəlbimin parçası ... 168
Danışacağam ... 170
Mənim ruhumu çək ... 172
Laylay ... 172
Səni qəlbən sevirəm mən ... 175
İstərəm ... 176
İnanma ... 177
Arzular ... 178
Məktub ... 179



Özgə dərdi ... 180
Dağlar ... 181
Mən gülmək istərəm ... 182
Dağlar havalı gənclik ... 183
Məndən sonra ... 184
Mənə deyirlər ki ... 186
Hardasan ... 187
Dünya xali deyil ... 188
Laqeydlik ... 189
Atamın dərdi ... 190
Sənsizəm ... 190
O şer yaşayır ki ... 192
Xəzər sahilində düşüncələr ... 193
Mən səndən deyim ... 194
Bənövşə ... 195
Qızılgül ... 196
Miniatürlər ... 196
Ey kaş ... 198
Qədəmin mübarək ... 199
Mənim balaca Leylam ... 200
Dauqava ... 201
Öz-özünə bitən güllər ... 204
Qocalıq ... 204
Dəniz haqqında ballada ... 205
Cümə günü doğulmuşam ... 206
Qaçağı el saxlar ... 208
Sevdiyim insanlar ... 209
Dağılmış dünyamda dünyam var ... 210
Dördlüklər ... 212

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Ələkbər Kərimov* |
| Korrektor: | *Elmira Teymurova* |

Yığılmağa verilmişdir 08.08.2004. Çapa imzalanmışdır 07.02.2005
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 14. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 20.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.